European Commission

Joint Research Centre

Şərq Tərəfdaşlığı Ölkələrində Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı (SECAP) necə hazırlanır?

Merlərin Razılaşması üzrə Bələdçi

Davide, M., Bastos, J., Bezerra, P., Hernandez Moral, G., Palermo, V., Pittalis, M., Todeschi, V., Treville, A., Barbosa, P., Pisoni, E., Melica, G.

2026



Bu sənəd Avropa Komissiyasının elm və bilik xidməti olan Birgə Tədqiqat Mərkəzi (BTM) tərəfindən nəşr olunub. Məqsəd Avropa siyasətinin formalaşdırılması prosesinə dəlillərə əsaslanan elmi dəstək verməkdir. Bu nəşrin məzmunu mütləq şəkildə Avropa Komissiyasının mövqeyini və ya rəyini əks etdirmir. Bu nəşrdən hər hansı məqsədlə istifadəyə görə nə Avropa Komissiyası, nə də Komissiya adından çıxış edən hər hansı bir şəxs məsuliyyət daşımır. Bu nəşrdə istifadə olunan və mənbəyi Eurostat və ya Avropa Komissiyasının digər xidmətləri olmayan məlumatların əsasını təşkil edən metodologiya və onların keyfiyyəti barədə məlumat əldə etmək üçün istifadəçilər istinad edilən mənbəyə müraciət etməlidirlər. Xəritələrdə istifadə olunan adlar və materialın təqdimatı hər hansı ölkənin, ərazinin, şəhərin və ya bölgənin və ya onun hakimiyyət orqanlarının hüquqi statusu və ya sərhədlərinin delimitasiyası ilə bağlı Avropa İttifaqının hər hansı mövqeyinin ifadə edilməsini nəzərdə tutmur.

Əlaqə məlumatları
Adı: Giulia Melica
Ünvan: Avropa Komissiyası, Birgə Tədqiqat Mərkəzi, Via E. Fermi 2749, 21027 Ispra (VA), İtaliya
E-poçt: giulia.melica@ec.europa.eu
Tel.: +39 0332 78 9842

Birgə Tədqiqat Mərkəzi
https://joint-research-centre.ec.europa.eu

Çap ISBN 978-92-68-39779-4 ISSN 1018-5593 doi:10.2760/2472045 KJ-01-26-197-EN-C
PDF ISBN 978-92-68-39778-7 ISSN 1831-9424 doi:10.2760/1581660 KJ-01-26-197-EN-N

Lüksemburq: Avropa İttifaqının Nəşrlər Ofisi, 2026

© Avropa İttifaqı, 2026

Avropa Komissiyası sənədlərinin təkrar istifadəsi siyasəti, Komissiya sənədlərinin təkrar istifadəsi haqqında 12 dekabr 2011-ci il tarixli 2011/833/EU saylı Komissiya Qərarı (OJ L 330, 14.12.2011, səh. 39) ilə tənzimlənir. Başqa hal qeyd edilmədiyi təqdirdə, bu sənədin təkrar istifadəsinə Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası (https://creativecommons.org/licenses/by/4.0/) əsasında icazə verilir. Bu o deməkdir ki, müvafiq mənbəyə istinad edilməsi və edilmiş dəyişikliklərin göstərilməsi şərtilə, sənəddən təkrar istifadəyə icazə verilir

Avropa İttifaqının mülkiyyətində olmayan fotoşəkillərdən və ya digər materiallardan hər hansı istifadə və ya onların surətinin çıxarılması üçün icazə birbaşa müvafiq müəlliflik hüququ sahiblərindən alınmalıdır.

Qrafik dizayn: Bağdagül Tan
Üz qabığının illüstrasiyası, © www.freepik.com

Bu hesabata necə istinad edilməlidir: Davide, M., Bastos, J., Bezerra, P., Hernandez Moral, G., Palermo, V. və b., *Şərq Tərəfdaşlığı Ölkələrində Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı (SECAP) necə hazırlanır?*, Avropa İttifaqının Nəşriyyat Ofisi, Lüksemburq, 2026, https://data.europa.eu/doi/10.2760/1581660, JRC145839.

Mündəricat

Xülasə 3
Təşəkkürlər 4
İcra xülasəsi 5
1. Giriş 6
1.1. İqlim və Enerji üzrə Merlərin Razılaşmasından Qlobal Merlərin Razılaşmasına 6
1.2. Merlərin Razılaşması Şərq 7
1.3. Regional iqlim və enerji siyasəti konteksti 8
1.4. Bu Bələdçi Haqqında 10
2. SECAP 11
2.1. SECAP nədir 11
2.2. Əhatə dairəsi 12
2.3. Vaxt çərçivəsi 14
2.4. SECAP -ın əsas elementləri 14
3. SECAP-ın başlanğıc mərhələsi 17
3.1. Siyasi öhdəlik və rəsmi şəkildə prosesə qoşulma 17
3.2. Bütün müvafiq bələdiyyə şöbələrinin prosesə cəlb edilməsi 18
3.2.1. Müvafiq təşkilati strukturların yaradılması 18
3.2.2. İnsan resurslarının səfərbər edilməsi 21
3.3. Maraqlı tərəflərin cəlb olunması və səmərəli kommunikasiya 22
3.3.1. Maraqlı tərəflərin müəyyən edilməsi və xəritələndirilməsi 22
3.3.2. Maraqlı tərəflər necə cəlb edilə bilər 24
3.3.3. Kommunikasiya 27
3.3.4. Ədalət, bərabərlik və gender aspektlərinin nəzərə alınması 28
4. Mövcud vəziyyətin qiymətləndirilməsi və məqsədlərin müəyyən edilməsi 31
4.1. Mövcud yerli vəziyyətin əsaslandırılmış qiymətləndirilməsi 31
4.1.1. İstixana qazı emissiyalarının kadastrı 31
4.1.2. Risk və həssaslığın qiymətləndirilməsi 31
4.1.3. Enerjiyə Çıxış və Enerji Yoxsulluğunun Qiymətləndirilməsi 33
4.2. Ümumi vizyonun və iddialı hədəflərin müəyyən edilməsi 35
4.2.1. Regionda iqlim siyasətinə ümumi baxış 35
4.2.2. Uzunmüddətli vizyonun müəyyən edilməsi 40
4.2.3. Hədəflər və məqsədlər 41
5. Tədbirlərin planlaşdırılması və strategiyalar 45
5.1. Hərtərəfli tədbirlərin hazırlanması 45
5.1.1. Tədbirlərin planlaşdırılması 45

5.1.2. İQ emissiyalarının azaldılması üzrə tədbirlərin yerli havanın keyfiyyətinə təsirlərinin və mümkün ziddiyyətlərinin qiymətləndirilməsi 51
5.1.3. İcraya və monitorinqə hazırlıq....52
5.2. Zəruri maliyyələşdirmənin müəyyən edilməsi və təmin edilməsi....52
5.3. SECAP-ın qəbul edilməsi və təqdim olunması....54
6. SECAP-ın icrası və monitorinqi....55
6.1. Mərhələlər və göstəricilərlə birlikdə ətraflı icra strategiyaları....55
6.2. İcranın monitorinqi və hesabatlılıq....56
7. Kiçik bələdiyyələr üçün əlaqələndirilmiş fəaliyyət imkanları və dəstək....59
7.1. Birgə SECAP-lar....59
7.2. SECAP proseslərini dəstəkləyən Razılaşma Koordinatorları....60
Nəticələr....61
İstinadlar....62
İxtisarlar və təriflər....65
Qutuların siyahısı....66
Şəkillərin siyahısı....67
Cədvəllərin siyahısı....68

Xülasə

Şərq Tərəfdaşlığı ölkələrində İqlim və Enerji üzrə Merlərin Razılaşması (MR Şərq) 2011-ci ildə başlamışdır. O vaxtdan bəri onun hədəfləri daha da iddialı olmuş, əhatə dairəsi isə genişlənmişdir. Bu sənəd MR Şərq təşəbbüsündəki bələdiyyələrə dayanıqlı enerji və iqlim üzrə fəaliyyət planını (SECAP) hazırlamaq üçün kontekst, məqsədlər, metodoloji prinsiplər, prosedurlar və ən yaxşı təcrübələr təqdim edir. Sənəd Şərq Tərəfdaşlığı kontekstini və xüsusiyyətlərini əks etdirmək məqsədilə məzmunu uyğunlaşdırılmış Avropa İttifaqı Merlər Razılaması (MR Aİ) Bələdçisinin əsas hissəsinə əsaslanır, və SECAP prosesinin bütün mərhələləri boyunca MR Şərq təşəbbüsünün imzaçılarına onların ehtiyaclarına uyğun məlumat və metodiki istiqamətləndirmə təqdim edir.

Təşəkkürlər

Bu sənəd Birgə Tədqiqat Mərkəzi (BTM) tərəfindən Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə Baş Direktorluğu (DG ENEST) ilə İnzibati Razılaşma çərçivəsində hazırlanmışdır. Merlərin Razılaşması Şərq təşəbbüsü çərçivəsində göstərdiyi dəstəyə və rəhbərliyə görə DG ENEST-ə təşəkkürümüzü bildiririk. Həmçinin imzaçılar və iştirakçılar ilə apardıqları dəyərli işə görə Merlərin Razılaşması Şərq təşəbbüsünün texniki yardım qrupuna təşəkkür edirik.

Bu sənəd 2025-ci ildə nəşr edilmiş Merlər Razılaşması Aİ "Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı (SECAP) necə hazırlanır?" adlı bələdçi kitabı əsasında hazırlanmışdır.

Müəlliflər həmçinin BTM-nin Enerji effektivliyi və bərpa olunan enerji bölməsinin rəhbəri Christian Thiel-ə davamlı dəstəyi və metodiki istiqamətləndirməsinə görə minnətdarlıqlarını bildirirlər.

Müəlliflər

Davide M., Bastos J., Bezerra P., Hernandez Moral G., Palermo V., Pittalis M., Todeschi V., Treville A., Barbosa P., Pisoni E., Melica G.

İcra xülasəsi

Şərq Tərəfdaşlığı ölkələrinin İqlim və Enerji üzrə Merlərin Razılaşması (MR Şərq) 2011-ci ildə başlamış və Şərq Tərəfdaşlığı (ŞT) ölkələrinin xüsusi ehtiyaclarına uyğunlaşdırılmışdır. Hal-hazırda, o, aşağıdakı ölkələri əhatə edir: Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukrayna.

Bu bələdçi hərtərəfli, addım-addım rəhbərlik təmin etməklə, MR Şərq bələdiyyələrinə aşağı karbonlu, iqlim təsirlərinə davamlı və inklüziv cəmiyyətin qurulmasına dəstək göstərir və icmalarında dayanıqlıq mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayır.

Bu vəsait Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planlarının (SECAP) tərtibi, hazırlanması, tətbiqi və monitorinqinin vacib aspektlərini əhatə edir. O, bütün prosesin uğuru üçün vacib olan və bələdiyyələrin fəaliyyətinin diqqət mərkəzində olmalı olduğu 10 əsas element ətrafında qurulub:

1. Bələdiyyə şurasının (və ya ekvivalent qərar qəbuletmə orqanının) siyasi öhdəliyi və rəsmi iştirakı
2. Bütün müvafiq bələdiyyə şöbələrinin cəlb edilməsi
3. Maraqlı tərəflərin cəlb olunması və effektiv kommunikasiya
4. Mövcud yerli vəziyyətin düzgün qiymətləndirilməsi
5. Ümumi baxışın (vizyonun) formalaşdırılması və iddialı hədəflərin müəyyən edilməsi
6. Əsas problemlərin həlli üçün hərtərəfli tədbirlərin hazırlanması
7. Müvafiq maliyyələşmənin müəyyən edilməsi və təmin olunması
8. SECAP-ın qəbul edilməsi və təqdim edilməsi
9. Mərhələlər və göstəricilər daxil olmaqla ətraflı icra strategiyaları
10. Monitorinq və hesabat

Avropa Komissiyasının Birgə Tədqiqat Mərkəzi (BTM) 2008-ci ildə Aİ-də yarandığı gündən etibarən MR təşəbbüsünə elmi, texniki və metodoloji dəstək göstərilməsinə cavabdehdir. BTM-nin rolu təşəbbüsün Aİ-nin iqlim və enerji siyasətləri ilə uyğunluğunu, eləcə də elmi əsaslılığını təmin etməkdir. BTM-nin vəzifələrinin əsas hissəsi imzaçılara prosesi asanlaşdırmaq üçün metodoloji təlimatların hazırlanması daxil olmaqla, fəaliyyət planlarını hazırlamağa və həyata keçirməyə kömək etməkdir.

Bu bələdçi 2018-ci ildə nəşr olunmuş əvvəlki "Şərq Tərəfdaşlığı ölkələrində Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı (SECAP) necə hazırlanır" (Kona və b. 2018) təlimatın əsaslı şəkildə yeniləmiş versiyasıdır. Burada Avropa və beynəlxalq iqlim siyasəti məqsədlərinin irəliləyişinə uyğun olaraq öhdəliklər barədə yenilənmiş məlumatlar təqdim olunur. Bundan əlavə, burada MR Şərq çərçivəsinin işlənib hazırlanması ilə əlaqədar, xüsusilə, enerji yoxsulluğu sütununun daxil edilməsi ilə bağlı əlavə metodiki istiqamətləndirmə təqdim olunur. Sənəd hazırda oxunuşu asanlaşdırmaq və müxtəlif auditoriyaların ehtiyaclarına cavab vermək məqsədilə hazırlanmış yeni struktur əsasında tərtib edilmişdir.

Gələcəkdə BTM -nin bu istiqamətdə həyata keçirəcəyi fəaliyyəti metodiki təlimatların digər regional MR təşəbbüslərinin kontekstinə uyğunlaşdırılmasına yönəldilə bilər.

1. Giriş

1.1. İqlim və Enerji üzrə Merlərin Razılaşmasından Qlobal Merlərin Razılaşmasına

İqlim probleminin həllinə bələdiyyələrin verə biləcəyi potensial töhfəni nəzərə alaraq, Avropa Komissiyası tərəfindən 2008-ci ildə, Aİ-nin ilk İqlim və Enerji Paketinin qəbul edilməsindən sonra, bələdiyyələrin dayanıqlı enerji siyasətlərinin həyata keçirilməsi istiqamətində göstərdikləri səyləri dəstəkləmək və təşviq etmək məqsədilə Merlərin İqlim və Enerji üzrə Razılaşması (MR) təşəbbüsü başladılmışdır. Təşəbbüs, ərazilərində dayanıqlıq siyasətlərini könüllü olaraq həyata keçirməyə öhdəlik götürən Aİ-nin yerli və regional hakimiyyət orqanlarını bir araya gətirmək və cəlb etmək məqsədi daşıyırdı və onlara istixana qazı (İQ) emissiyalarının azaldılması məqsədlərini reallığa çevirmək üçün uyğunlaşdırılmış metodologiyalar və hesabat çərçivələri təqdim edirdi. Əvvəlcə, öhdəlik bələdiyyələrin dayanıqlı enerji üzrə fəaliyyət planını (SEAP) icra etməklə baza göstəriciləri ilə müqayisədə 2020-ci ilə qədər Aİ-nin ən azı 20% emissiyaların azaldılması məqsədinə çatması idi.

2014-cü ildə Aİ-nin iqlim dəyişikliyinə uyğunlaşma strategiyasının qəbul edilməsi ilə əlaqədar olaraq, Avropa Komissiyası "Merlərin Razılaşması" ilə eyni prinsiplərə əsaslanan, lakin iqlim dəyişikliyinə uyğunlaşmaya yönəlmiş "Merlərin Uyğunlaşması" adlı ayrıca bir təşəbbüs başlatdı. 2015-ci ildə "Merlərin Razılaşması" və "Merlərin Uyğunlaşması" təşəbbüsləri birləşdirilərək İqlim və Enerji üzrə Merlərin Razılaşmasına (MR AI) start verildi. Bununla da Aİ bələdiyyələrinin 2030-cu ilədək emissiyaların ən azı 40% azaldılması hədəfinə nail olmaq üzrə ilkin emissiyaların azaldılması (mitiqasiya) öhdəliyi gücləndirildi və iqlim dəyişikliyinə uyğunlaşma üçün yerli tədbirlər təşəbbüsə inteqrasiya olundu.

Aİ-nin iqlim siyasətinin əhatə dairəsinin və ambisiyasının genişlənməsi ilə əlaqədar, MR Aİ 2050-ci ilə qədər karbon neytrallığı hədəfini qəbul etdi. Bu hədəf yerli iqlim dəyişikliyinə davamlılığı və uyğunlaşmanı gücləndirmək, təhlükəsiz, dayanıqlı və iqtisadi baxımdan əlverişli enerji təmin etmək strategiyaları ilə dəstəklənir. 2021-ci ilin aprel ayından etibarən təşəbbüsün Aİ üzrə imzaçıları 1990-cı il səviyyələri ilə müqayisədə 2030-cu ilədək istixana qazı (İQ) emissiyalarını ən azı 55% azaltmaq, habelə 2050-ci ilədək şəhər və qəsəbələrini iqlim baxımından neytral etmək, onların iqlim dəyişikliyinə davamlılığını və enerji təhlükəsizliyini artırmaq üçün tədbirlər təklif etməyə çağırılırlar (Şəkil 1). Bu kontekstdə təşəbbüs hazırda üç sütun ətrafında qurulub: istixana qazı emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və enerji yoxsulluğunun azaldılması. Bu üç sütun üzrə cəsarətli öhdəliklər və tədbirlər ilə bələdiyyələr "Avropa Yaşıl Sazişi"nin məqsədlərinə və "Paris Sazişi"nin ən yüksək ambisiyalarına nail olunmasında mühüm rol oynayırlar. Daha geniş şəkildə desək, MR Aİ, Avropa İttifaqının iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün yerli səviyyədə şəhərlərə, qəsəbələrə və regionlara dəstək olmaq məqsədilə başlatdığı artan sayda təşəbbüsün bir hissəsidir. Bu təşəbbüslərə Aİ-nin 2030-cu ilə qədər 100 İqlim Neytral və Ağıllı Şəhər üzrə Missiyası, *Aİ-nin İqlim Dəyişikliyinə Uyğunlaşma üzrə Missiyası və Aİ Yaşıl Şəhər Sazişi daxildir.*[1]

[1] Bu təşəbbüslər haqqında daha çox məlumatı Avropa Komissiyasının https://climate.ec.europa.eu/eu-action/local-and-regional-climate-action_en ünvanında yerləşən Yerli və regional iqlim tədbirləri veb səhifəsində əldə etmək olar.

Şəkil 1. 2050-ci ilədək Merlərin Razılaşmasının hədflərinə aparan yol



Mənbə: Merlərin Razılaşması Avropa veb səhifəsi

Avropa Komissiyasının təşəbbüsün genişləndirilməsinə verdiyi dəstək sayəsində MR təşəbbüsü 2008-ci ildə fəaliyyətə başladığı vaxtdan etibarən Aİ-dən kənarda da tədricən genişlənərək "Şərq və Cənub qonşuluq ölkələrini" (müvafiq olaraq, 2011 və 2012-ci illərdə), daha sonra isə Saharaaltı Afrika ölkələrini əhatə etmişdir.

2017-ci ildə Merlərin Razılaşması Merlərin Paktı ilə birləşdirilərək[2] İqlim və Enerji üzrə Qlobal Merlərin Razılaşması (GCoM) yaradıldı. İllər ərzində GCoM iqlim dəyişikliyi ilə mübarizə aparmaq və aşağı karbonlu, iqlim dəyişikliyinə davamlı cəmiyyətə keçmək üçün könüllü fəaliyyətin təşviqi və dəstəklənməsi kimi ümumi uzunmüddətli vizyonu olan şəhərlərin və yerli idarəetmə orqanlarının ən böyük beynəlxalq alyansına çevrildi. GCoM-a dəstəyinin bir hissəsi olaraq, Avropa Komissiyası Amerika və Asiyada regional və milli Razılaşma Ofislərini maliyyələşdirdi.

Regional ofislərin, bələdiyyə və regional şəbəkələrin və milli hökumətlərin dəstəyi ilə GCoM, Paris Sazişinin məqsədlərinə nail olmaq üçün yerli töhfəni dəstəkləmək və nümayiş etdirmək məqsədilə bələdiyyələrin öhdəliklərini bir araya gətirir. Bu koalisiya 13558 şəhər və qəsəbəni bir araya gətirir, 147 ölkədə 1,2 milyarddan çox insanı (dünya əhalisinin təxminən 15%-ni) əhatə edir (Merlərin Qlobal Razılaşması 2024).

Bütün bu təşəbbüslər birlikdə Avropa Komissiyasının yerli icmaları dəstəkləməyə yönəlmiş güclü və artan öhdəliyini, eləcə də iddialı dayanıqlı enerji və iqlim tədbirlərinin təşviqində çoxsəviyyəli idarəetmə yanaşmasının əhəmiyyətini göstərir.

1.2. Merlərin Razılaşması Şərq

2011-ci ilin sentyabr ayında Merlərin Razılaşması təşəbbüsü Şərq Tərəfdaşlığı ölkələrinə də şamil edildi və MR Şərq təşəbbüsü başladı. Birinci mərhələdə (2011-2015) Şərq Tərəfdaşlığı

[2] Merlərin Paktı, merlər və şəhər rəsmiləri arasında istixana qazı emissiyalarını azaltmaq, irəliləyişi izləmək və iqlim dəyişikliyinin təsirlərinə hazırlıq görmək öhdəliyi götürmək üçün BMT-nin əməkdaşlıq səyi idi. Lima-Paris Fəaliyyət Gündəliyinin (LPAA) bir hissəsi olan bu təşəbbüs, 2014-cü ildə Nyu-Yorkda keçirilən BMT-nin İqlim Sammitində BMT-nin Şəhərlər və İqlim Dəyişikliyi üzrə Xüsusi Elçisi Maykl R. Blumberq tərəfindən dünyanın qlobal şəhər şəbəkələrinin – "C40 Şəhərlər İqlim Liderlik Qrupu (C40)", "Dayanıqlıq üçün Yerli Hakimiyyət Orqanları (ICLEI)" və "Birləşmiş Şəhərlər və Yerli Hakimiyyət Orqanları (UCLG)"- rəhbərliyi altında, BMT-nin şəhər məsələləri üzrə aparıcı agentliyi olan UN-Habitat-ın dəstəyi ilə irəli sürülmüşdür.

və Mərkəzi Asiya regionlarının 11 ölkəsi iştirak etdi. 2017-ci ildən etibarən təşəbbüs Şərq Tərəfdaşlığı (ŞT) ölkələrinin xüsusi ehtiyaclarına uyğunlaşdırılıb və bu gün Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynanı əhatə edir.

MR Şərq təşəbbüsünün ilkin diqqəti enerji ilə əlaqəli emissiyaların azaldılmasına yönəlmişdi və imzaçılar 2020-ci ilədək CO_2 emissiyalarını ən azı 20% azaltmağı və Dayanıqlı Enerji üzrə Fəaliyyət Planını (SEAP) hazırlayıb həyata keçirməyi öhdələrinə götürmüşlər. 2016-cı ildən etibarən emissiyaların azaldılması (mitiqasiya) üzrə daha iddialı öhdəliyin qəbul edilməsi, 2030-cu ilədək emissiyaların 30% azaldılması hədəfinin müəyyənləşdirilməsi və iqlimə uyğunlaşma (adaptasiya) sütununun əlavə edilməsi ilə əlaqədar olaraq, MR Şərq bələdiyyələri SEAP-ların hazırlanmasından SECAP-ların (Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planlarının) hazırlanmasına keçmişlər. MR Şərqin 2030-cu il üçün emissiyaların azaldılması hədəfi 2021-ci ildə daha da artırılaraq 35%-ə çatdırılmışdır.

Hazırda regional uzunmüddətli öhdəlik, Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (MMT) öhdəliklərinə uyğun olaraq daha iddialı uzunmüddətli hədəflər qəbul etmək və 2050-ci ilə qədər iqlim neytrallığına nail olmaq səyləri ilə 2050-ci ilədək CO_2 (və ehtimal ki, digər istixana qazları) emissiyalarını 1990-cı il emissiya səviyyələri ilə müqayisədə ən azı 60% və ya 2005-ci ildən sonrakı baza ilində emissiya səviyyələri ilə müqayisədə 2050-ci ilədək ən azı 40% azaltmağı hədəfləyir. Bundan əlavə, imzaçılar iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmaqla, eləcə də ədalətli keçidi və əlverişli, təhlükəsiz və dayanıqlı enerjiyə çıxışı təmin etmək üçün əsas tədbirlərdən biri kimi enerji yoxsulluğu ilə mübarizə aparmaqla öz ərazilərinin iqlim dəyişikliyi təsirlərinə davamlığını artırmaq üçün tədbirlər görməyi öhdələrinə götürürlər.

2025-ci ilin yanvar ayı etibarilə Merlərin Razılaşması – Şərq Tərəfdaşlığı, Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada 540 bələdiyyəni bir araya gətirərək, şəhər səviyyəsində səmərəli iqlim siyasəti və strategiyalarının hazırlanmasını və həyata keçirilməsini təşviq edir (Davide və b. 2026). MR çərçivəsində imzaçılar könüllü olaraq bələdiyyənin öz ərazisində üç sütun üzrə: istixana qazı (İQ) emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və enerji yoxsulluğunu yüngülləşdirmə öhdəliklərinə necə nail olmaq niyyətində olduğunu ətraflı izah edən strateji və əməliyyat aləti olan SECAP-ı hazırlamağı və tətbiq etməyi öhdələrinə götürürlər. SECAP uzunmüddətli strateji baxış çərçivəsində nail olunması nəzərdə tutulan məqsəd və vəzifələri, eləcə də planlaşdırılan tədbirləri və icra üzrə yol xəritəsini milli və beynəlxalq öhdəliklər və strategiyalara uyğun olaraq müəyyən edir.

Bu sənəd Şərq Tərəfdaşlığı ölkələrində bələdiyyələrə SECAP-ın hazırlanması və icrası prosesində dəstək göstərmək və onlara hərtərəfli, ardıcıl və səmərəli fəaliyyət planı hazırlamaq üçün rəhbər prinsiplərə dair ümumi məlumat təqdim etmək məqsədi daşıyır.

1.3. Regional iqlim və enerji siyasəti konteksti

Şərq Tərəfdaşlığı (ŞT) 2009-cu ildə başlamış və Avropa Qonşuluq Siyasətinin (AQS) Şərq istiqamətini təmsil edir. Tərəfdaşlığın məqsədi Avropa İttifaqı və onun üzv dövlətləri ilə Şərqi Avropa və Cənubi Qafqazın "tərəfdaş ölkələri" arasında siyasi və iqtisadi əlaqələri gücləndirmək və dərinləşdirməkdir. Şərq Tərəfdaşlığı, iqlim dəyişikliyi üzrə Paris Sazişi və BMT-nin 2030-cu il Gündəliyinin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) daxil olmaqla bir çox qlobal siyasət məqsədlərinin həyata keçirilməsini dəstəkləyir. O, Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti üzrə qlobal strategiyasında[3] müəyyən edildiyi kimi, Aİ qonşularının sabitliyini, rifahını və dayanıqlığını artırmaq kimi ümumi məqsədə töhfə verməyi nəzərdə tutur.

[3] Xarici və təhlükəsizlik siyasəti üzrə qlobal strategiya

2017-ci ildə keçirilən Şərq Tərəfdaşlığının 5 -ci Zirvə Görüşündə razılaşdırılmış "2020-ci il üçün 20 nəticə"[4] çərçivəsində Şərq Tərəfdaşlığı dörd əsas siyasət sahəsində nəticələr əldə etmək və həyat səviyyəsini yaxşılaşdırmaq üçün ümumi islahat gündəliyi üzərində işləmişdir: (1) daha güclü iqtisadiyyat; (2) daha güclü idarəetmə; (3) daha güclü əlaqəlilik; və (4) daha güclü cəmiyyət. Bunlarla yanaşı, gender, vətəndaş cəmiyyəti, media və strateji kommunikasiya üzrə çarpaz hədəflər müəyyən edilmişdir.

2019-cu ildə geniş və əhatəli məsləhətləşmələr nəticəsində növbəti gündəliyin əsası qoyuldu. Bunun nəticəsində "2020-ci ildən sonrakı Şərq Tərəfdaşlığı siyasəti: "Davamlılığın gücləndirilməsi – hamı üçün nəticə verən Şərq Tərəfdaşlığı"[5] adlı Birgə Kommunikasiya və "2020-ci ildən sonrakı Şərq Tərəfdaşlığı siyasəti üzrə Şuranın Nəticələri"[6], qəbul edildi. Bu sənədlər davamlılığı siyasətin əsas çərçivəsi kimi müəyyən edərək və beş uzunmüddətli siyasət məqsədini irəli sürərək Tərəfdaşlıq üçün yeni baxış təqdim etmişdir. Digər məqsədlərlə yanaşı, Aİ, onun üzv dövlətləri və tərəfdaş ölkələr davamlı, dayanıqlı və inteqrasiya olunmuş iqtisadiyyatların təşviqi, habelə ekoloji və iqlim dəyişikliyinə davamlılıq istiqamətində irəliləyişin təmin edilməsi üçün birgə fəaliyyət göstərmək barədə razılığa gəldilər.

Bu yeni gündəlik 2021-ci ilin iyul ayında qəbul edilmiş "Birgə Qərargah İşçi Sənədi: Bərpa, Davamlılıq və İslahat: 2020-ci ildən sonrakı Şərq Tərəfdaşlığı prioritetləri "ndə daha ətraflı şəkildə təsvir edilmişdir[7]. Yeni Şərq Tərəfdaşlığı gündəliyi, hər bir tərəfdaş ölkə üçün bir sıra aparıcı təşəbbüsləri və investisiyaları dəstəkləmək və davam etdirmək, eləcə də heç kəsi geridə qoymayan iqlimə davamlı və ədalətli cəmiyyətlərin möhkəmlənməsinə kömək etmək üçün idarəetmə sütununu ehtiva edir. Plan müxtəlif prioritet sahələr üzrə dövlət və özəl investisiyalarının həcmini 17 milyard avroyadək artırmağı hədəfləyir. Bu sahələrə nəqliyyat əlaqələliliyinin gücləndirilməsi, kiçik və orta sahibkarlıq subyektləri üçün maliyyəyə çıxış, rəqabət qabiliyyətini və Aİ dəyər zəncirlərinə inteqrasiyanı gücləndirmək üçün kapitala investisiyalar, rəqəmsal keçidə dəstək, ətraf mühit və iqlim davamlılığına, o cümlədən, enerji səmərəliliyinə investisiyalar, səhiyyə sisteminin davamlılığının və insan kapitalının inkişafının dəstəklənməsi daxildir.

İqlim dəyişikliyi və dayanıqlı enerji 2025-ci il üçün müəyyən edilmiş, vətəndaşlar və biznes üçün yüksək transformativ təsirə malik olan on əsas hədəfdən bəzilərində birbaşa və dolayı şəkildə öz əksini tapır. Bunlara aşağıdakılar daxildir:

Dayanıqlı enerjiyə investisiya yatırılması nəticəsində 250 000 ev təsərrüfatının enerji istehlakını ən azı 20% azaltmasına imkan yaradılması;

Daha 3 milyon insanın təhlükəsiz su xidmətlərinə çıxışı üçün ətraf mühitə və iqlimə investisiya qoyuluşu; 300 şəhərdə hava keyfiyyətinin monitorinqi və yaxşılaşdırılması.

Dayanıqlı və ağıllı əlaqəliliyə investisiya qoyuluşu, o cümlədən, 3000 km prioritet avtomobil və dəmir yollarının tikintisi və ya yenilənməsi.

Bu siyasət çərçivəsində Şərq Tərəfdaşlığı üzrə Merlərin Razılaşması təşəbbüsü yerli səviyyədə geniş bələdiyyələr və maraqlı tərəflər icmasını bir araya gətirərək, Şərq Tərəfdaşlığının məqsədlərini tamamlayır və dəstəkləyir, eyni zamanda iqlim dəyişikliyinin təsirlərinin azaldılması (mitiqasiya), iqlim dəyişikliyinə uyğunlaşma (adaptasiya) və enerji yoxsulluğu ilə bağlı uzunmüddətli beynəlxalq, Aİ və milli məqsədlərin dəstəklənməsini təmin edir.

---

4 2020-ci il üçün 20 nəticə

5 2020-ci ildən sonrakı Şərq Tərəfdaşlığı siyasəti: Dayanıqlılığın Gücləndirilməsi – hamı üçün nəticə verən Şərq Tərəfdaşlığı

6 Council Conclusions on the Eastern Partnership policy beyond 2020 (2020-ci ildən sonra Şərq Tərəfdaşlığnaı dair Şuranın Nəticələri

7 Birgə Qərargah İşçi Sənədi: Bərpa, Davamlılıq və İslahat: 2020-ci ildən sonrakı Şərq Tərəfdaşlığı prioritetləri

Qutu 1. Bu təlimat kitabçasında istifadə olunan əsas təriflər

İqlim dəyişikliyinin təsirlərinin azaldılması (mitiqasiya), dedikdə, istixana qazlarının emissiyalarını azaltmaq və ya onların udulmasını artırmaq üçün insan müdaxiləsi nəzərdə tutulur. İqlim siyasətində təsirlərin azaldılması tədbirləri, azaltmağa töhfə verən texnologiyalar, proseslər və ya təcrübələrdir, məsələn, bərpa olunan enerji texnologiyaları, emissiyaların minimuma endirilməsi prosesləri və ictimai nəqliyyatdan istifadə təcrübələri. Təsirlərin azaldılması variantı istixana qazı (İQ) emissiyalarını azaldan texnologiya və ya təcrübədir (IPCC 2022).

İqlim dəyişikliyinə uyğunlaşma (adaptasiya), insan sistemlərində, zərəri azaltmaq və ya faydalı imkanlardan istifadə etmək üçün faktiki və ya gözlənilən iqlimə və onun təsirlərinə uyğunlaşma prosesinə aiddir. Təbii sistemlərdə bu, faktiki iqlimə və onun təsirlərinə uyğunlaşma prosesini ifadə edir; insan müdaxiləsi gözlənilən iqlimə və onun təsirlərinə uyğunlaşmanı asanlaşdıra bilər. Uyğunlaşma variantlarına uyğunlaşma məsələlərinin həlli üçün mövcud və uyğun olan bir sıra strategiyalar və tədbirlər daxildir. Mənfi nəticəli adaptasiya (maladaptasiya) hazırda və ya gələcəkdə, istixana qazı emissiyalarının artması, iqlim dəyişikliyinə qarşı həssaslığın artması və ya dəyişməsi, daha qeyri-bərabər nəticələr və ya rifahın azalması da daxil olmaqla, iqlimlə əlaqəli mənfi nəticələrin riskini artıra bilər. Əksər hallarda, mənfi nəticəli adaptasiya uyğunlaşma tədbirlərinin nəzərdə tutulmamış nəticəsi olur (IPCC, 2022). (IPCC 2022).

Enerji yoxsulluğu o halda yaranır ki, ev təsərrüfatı enerji istehlakını sakinlərin sağlamlığına və rifahına mənfi təsir göstərəcək dərəcədə azaltmalı olur. Enerji yoxsulluğunun əsasını üç başlıca amil təşkil edir: i) enerji xərclərinin ümumi xərclər içərisində yüksək payı; ii) aşağı gəlir; iii) binaların və məişət cihazlarının aşağı enerji səmərəliliyi[8].

1.4. Bu Bələdçi Haqqında

Avropa Komissiyasının Birgə Tədqiqat Mərkəzi (BTM) (Joint Research Centre (JRC) Merlərin Razılaşması təşəbbüsünün yarandığı gündən etibarən ona elmi, texniki və metodoloji dəstək göstərir. BTM-nin rolu təşəbbüsün Razılaşmanın regional iqlim və enerji öhdəlikləri ilə uyğunluğunu, eləcə də elmi əsaslılığını və etibarlılığını təmin etməkdir. BTM-nin əsas vəzifələrindən biri təşəbbüsə qoşulmuş şəhərlərə fəaliyyət planlarının hazırlanması və həyata keçirməsində kömək etməkdir. Bu dəstəyə prosesi asanlaşdırmaq məqsədilə metodoloji bələdçi kitablarının hazırlanması da daxildir.

Bu MR Şərq Bələdçisi 2025, Şərq Tərəfdaşlığı ölkələrindəki bələdiyyələrə SECAP-ın hazırlanmasında dəstək göstərmək və onlara hərtərəfli, əlaqələndirilmiş və effektiv fəaliyyət planı tərtib etmək üçün rəhbər prinsiplərə dair ümumi baxış təqdim etmək məqsədi daşıyır. Bu MR Şərq bələdçisi SECAP-ın hazırlanması prosesinin kontekstini, ümumi icmalını və əsas elementlərini təqdim edir. Bu, MR Şərq imzaçıları və təşəbbüs vasitəsilə iqlim fəaliyyətində iştirak etmək istəyən bələdiyyələr üçün əsas addımlar və prinsiplərə dair metodoloji rəhbərlik rolunu oynayır. MR Şərq imzaçıları MR Aİ çərçivəsində hazırlanmış və MR Şərq şəraitində də tətbiq olunan texniki aspektlər üzrə əlavə ətraflı təlimatlar təqdim edən beş tamamlayıcı sənədə istinad edə bilərlər:

1. İstixana qazı emissiyası kadastrı necə hazırlanır
2. Risk və həssaslıq qiymətləndirməsi necə hazırlanır
3. Enerji yoxsulluğunun qiymətləndirilməsi necə hazırlanır
4. Mitiqasiya, adaptasiya və enerji yoxsulluğu ilə bağlı tədbirlər necə planlaşdırılır
5. Mitiqasiya, adaptasiya və enerji yoxsulluğu ilə bağlı tədbirlər üçün maliyyə alətləri

Bu bələdçi 2018-ci ildə nəşr olunmuş "Şərq Tərəfdaşlığı Ölkələrində Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı (SECAP) necə hazırlanır" (Kona və b. 2018) adlı sənədin əsaslı şəkildə yenilənmiş versiyasıdır. Kitabda beynəlxalq iqlim siyasəti məqsədlərinin irəliləyişinə uyğun olaraq öhdəliklər barədə yenilənmiş məlumatlar və yerli iqlim dəyişmələrinə uyğunlaşma ilə bağlı ətraflı təlimatlar təqdim olunur. Bundan əlavə, GCoM ümumi hesabat çərçivəsinin (common reporting framework – CRF) hazırlanması ilə əlaqədar, xüsusən də enerjiyə çıxış və enerji yoxsulluğu sütununun daxil edilməsi ilə bağlı əlavə təlimatlar təqdim olunur.

[8] Avropa Komissiyasının Enerji Yoxsulluğu ilə bağlı veb səhifəsi


2. SECAP

2.1. SECAP nədir

Dayanıqlı enerji və iqlim üzrə fəaliyyət planı (SECAP) bələdiyyə şurası tərəfindən rəsmi olaraq qəbul edilmiş inteqrasiya olunmuş, strateji və əməliyyat planıdır. Bu plan müvafiq bələdiyyənin müxtəlif fəaliyyət sahələrində iqlim dəyişikliyi ilə bağlı problemlərin həlli və dayanıqlı enerjiyə keçid üzrə öhdəlik və tədbirləri müəyyən edir. Plan bələdiyyələr tərəfindən hazırlanır və uzunmüddətli strateji baxış çərçivəsində əldə ediləcək məqsəd və vəzifələri, həmin məqsədlərə nail olmaq üçün müxtəlif sektorlar üzrə tədbirlər toplusunu, habelə milli və beynəlxalq öhdəlik və strategiyalara uyğun gələn və ya onların tələblərini üstələyən tədbirlərin həyata keçirilməsi üzrə yol xəritəsini müəyyən edir.

SECAP üç sütun, yəni iqlim dəyişmələri təsirlərinin azaldılması, iqlim dəyişmələrinə uyğunlaşma və enerji yoxsulluğu ətrafında qurulub ki, bunlar tək bir inteqrasiya olunmuş sənəddə və ya ayrı-ayrı sənədlərdə təqdim edilə bilər (Şəkil 2). SECAP-ın üç sütunu. Hər sütun üzrə uzunmüddətli strategiya fəaliyyətə çevrilir, məqsədlər və tədbirlər müəyyən edilir, onların icrası üçün konkret müddətlər və məsul tərəflər təyin olunur. SECAP-ın hazırlanması ilk növbədə mövcud yerli vəziyyətin hərtərəfli öyrənilməsinə və qiymətləndirilməsinə əsaslanmalıdır.

Şəkil 2. SECAP – ın üç sütunu



Mənbə: MR Şərq öhdəliyi mətninə əsaslanan BTM-nin ətraflı izahı[9]

Xüsusilə, üç sütun üzrə tədbirləri dəstəkləmək və əsaslandırmaq üçün erkən mərhələdə üç alət hazırlanır:

[9] İqlim və Enerji üzrə Merlərin Razılaşmasının rəsmi mətni – MR Şərq https://com-east.eu/library/official-text-of-covenant-of-mayors-on-climate-and-energy/ ünvanında mövcuddur.

- **Baza emissiya kadastrı (BEK)** baza ili üçün İQ emissiyası kadastrıdır. O, ərazidəki müxtəlif emissiya mənbələrini müəyyən edir və imzaçılara İQ emissiyasının azaldılması hədəfinə nail olmaq üçün ən yaxşı fəaliyyət sahələrini və imkanları müəyyən etməyə və onlara yönəlməyə kömək edir.
- **Risk və Həssaslıq Qiymətləndirməsi (RHQ)** yerli əraziyə təsir edən ən müvafiq iqlim təhlükələrini və həssaslıqlarını müəyyən edir. İqlimə uyğunlaşma strategiyasının hazırlanmasına və bu cür riskləri aradan qaldırmaq üçün müvafiq adaptasiya tədbirlərinin müəyyənləşdirilməsinə əsas verir.
- Nəhayət, **enerji yoxsulluğunun qiymətləndirilməsi (EYOX)** yerli enerji yoxsulluğu vəziyyətini müəyyən etməyə kömək edir və onun aradan qaldırılmasına yönəlmiş strategiyaların hazırlanması üçün məlumat təmin edir.

SECAP-a daxil olan hədəflər və tədbirlər bələdiyyələrin bütün təşkilati səviyyələrdə siyasət formalaşdırılmasına və planlaşdırılmasına inteqrasiya olunmalıdır. Qeyd etmək lazımdır ki, iqlim dəyişikliyi təsirlərinin azaldılması (mitiqasiya), iqlim dəyişikliyinə uyğunlaşma (adaptasiya) və enerji yoxsulluğunun bəzi aspektləri bir-biri ilə əlaqəlidir və bir-birini tamamlamalıdır. Tədbirlər arasında qarşılıqlı əlaqəni gücləndirmək və mövcud resurslardan istifadəni optimallaşdırmaq üçün bu məqam sektorlar üzrə və sahələrarası tədbirlərdə nəzərə alınmalı və öz əksini tapmalıdır. Bundan əlavə, SECAP sabit və sərt çərçivəli sənəd hesab edilməməlidir. Vəziyyət dəyişə bildiyindən, iqlim dəyişikliyinin daim dəyişən kontekstini və tədbirlərin həyata keçirilməsindən əldə edilən dərsləri nəzərə alan daimi monitorinqə əsaslanaraq planın müntəzəm olaraq yenidən nəzərdən keçirilməsi faydalı və ya zəruri ola bilər.

Yerli maraqlı tərəflər və icmaların iştirakı ilə işlənmiş və bələdiyyə daxilində ən yüksək siyasi səviyyələr tərəfindən dəstəklənən yaxşı hazırlanmış SECAP, fəaliyyət üçün ümumi və konkret yol xəritəsi təqdim edir. Bu, əvvəlcədən planlaşdırmaya kömək edir və uğurlu icra ehtimalını artırır. Bu, həmçinin iqlim tədbirlərinin daha geniş tanıdılmasına və əhatə dairəsinin genişləndirilməsinə, eləcə də bələdiyyənin imicinin yaxşılaşdırılmasına imkan yaradır.

Bələdiyyə MR-ə imzaçı kimi qoşulduğu andan etibarən iki il ərzində SECAP-ı hazırlayıb təqdim etməyi öhdəsinə götürür.

Qutu 2. Digər təşəbbüslər və ya layihələr çərçivəsində hazırlanmış iqlim üzrə fəaliyyət planları MR Şərq çərçivəsində SECAP kimi etibarlı hesab edilə bilərmi?

Merlər Razılaşmasının prinsipləri, öhdəlikləri və əhatə dairəsi ilə uyğunlaşdırılmış iqlim üzrə fəaliyyət planları SECAP-lara bərabər hesab edilə bilər. Fəaliyyət planı MR Şərq tərəfindən müəyyən edilmiş səviyyəyə bərabər və ya daha yüksək öhdəlik səviyyəsini göstərməli, sütunlar, əhatə dairəsi, sektorlar, müddət və coğrafi sərhəd baxımından minimum tələb olunan əhatəni təmin etməli və bu bələdçidə göstərildiyi kimi mövcud vəziyyətin qiymətləndirilməsi, hədəflərin müəyyənləşdirilməsi, fəaliyyətlərin planlaşdırılması, monitorinq və hesabatlılıq ilə bağlı bütün məlumatları təqdim etməlidir. Tələb olunan məlumatların hamısı ilkin fəaliyyət planında əks olunmadığı halda, çatışmayan məlumatları tamamlamaq üçün ayrıca sənədlərdən istifadə edilə bilər.


2.2. Əhatə dairəsi

SECAP yerli səviyyədəki tədbirlərə diqqət yetirir və bələdiyyənin təsiri altında olan fəaliyyətləri və sektorları əhatə edir. Beləliklə, o, bir qayda olaraq, bələdiyyənin yurisdiksiyası altında olan coğrafi ərazini əhatə edir və həm dövlət, həm də özəl sektorlara təsir edən tədbirləri özündə birləşdirir.

SECAP iqlim dəyişmələri ilə bağlı təsirlərin azaldılmasını, iqlim dəyişikliyinə uyğunlaşmanı (iqlimə davamlılığı) və enerji yoxsulluğunu daxil etdiyindən, bələdiyyələrin diqqəti, məsələn, uzunmüddətli perspektivdə enerji istifadəsinə və mənbələrinə, torpaqdan istifadənin

planlaşdırılmasına və iqlim dəyişikliyinə davamlılığa təsir göstərə bildikləri fəaliyyətlər və sektorlar üzərində cəmləşməlidir (Şəkil 3).

Şəkil 3. Hər sütun üzrə diqqət mərkəzində olan fəaliyyət sahələri



Mənbə: BTM

İqlim dəyişikliyinin təsirlərinin azaldılması (mitiqasiya) üzrə kadastrlarda və tədbirlərdə əhatə olunacaq əsas hədəf sektorlar binalar, avadanlıq/qurğular (yaşayış, kommersiya və bələdiyyə) və şəhər nəqliyyatıdır. SECAP həm bu sektorlardan yaranan emissiyalar haqqında məlumat verməli, həm də onları azaltmaq üçün tədbirləri daxil etməlidir. Buraya binalarda və nəqliyyat sektorunda enerji effektivliyinin təşviqi, enerji səmərəli məhsulların istifadəsinin stimullaşdırılması və ya dayanıqlı yerli elektrik enerjisi istehsalının təşviqi, məsələn, günəş fotovoltaik (PV), külək enerjisi, kogenerasiya istilik və elektrik enerjisi (CHP) sistemlərindən istifadə, yerli enerji istehsalının təkmilləşdirilməsi və yerli istilik/soyutma istehsalı daxil ola bilər. Öz binaları və enerji qurğuları, daxili nəqliyyat parkı və ondan istifadə ilə bağlı iddialı tədbirlər həyata keçirməklə bələdiyyənin nümunə göstərməsi gözlənilir.

İqlim dəyişikliyinə uyğunlaşma (adaptasiya) üçün SECAP-a əhatə olunan ərazidə iqlim dəyişikliyinə ən çox həssas olma ehtimalı olan sektorlar, ərazilər və əhali daxil edilməlidir. Həssas sektorlar (məsələn, binalar, nəqliyyat, enerji, su, tullantılar, torpaqdan istifadənin planlaşdırılması, ətraf mühit və biomüxtəliflik, kənd təsərrüfatı və meşə təsərrüfatı, səhiyyə, mülki müdafiə və fövqəladə hallar, turizm), eləcə də təhlükənin intensivliyi və tezliyi, şəhər perimetrləri daxilində, bir bələdiyyədən digərinə, həmçinin şəhər ərazilərindən daha çox kənd ərazilərinə qədər xeyli dəyişə bilər. Buna görə də bələdiyyənin məsuliyyət daşıdığı ərazilərdə təhlükələri və həssaslıqları dərindən anlamaq onların təsirini azaldan və həssas qrupları qoruyan tədbirlərin planlaşdırılması üçün çox vacibdir.

Enerji yoxsulluğuna gəldikdə, SECAP-ın əhatə dairəsi bələdiyyənin sərhədləri daxilində enerji yoxsulluğu ilə əlaqəli vəziyyətin araşdırılmasını nəzərdə tutur. Buna əsaslanaraq, bələdiyyə qiymətləndirmədən irəli gələn enerji yoxsulluğu aspektlərinin həllinə və aradan qaldırılmasına yönəlmiş müvafiq tədbirləri və hədəfləri müəyyən etmək üçün SECAP-dan istifadə edəcək. Tədbirlər enerjiyə çıxış və enerji yoxsulluğunun müxtəlif amillərini əhatə edən beş makro-sahə üzrə qruplaşdırılır: iqlim, obyektlər və mənzil sektoru, mobillik, sosial-iqtisadi, siyasət və tənzimləyici çərçivələr, iştirak/maarifləndirmə və qiymətləndirmə.

SECAP ümumiyyətlə bir bələdiyyənin ərazisini əhatə etsə də, bir qrup bələdiyyə də birgə fəaliyyət planı hazırlamaq qərarına gələ bilər. Bu seçim xüsusilə kiçik bələdiyyələr üçün əlverişlidir, çünki bu, onlara birgə planlaşdırma və ümumi fəaliyyətlərin (əməliyyat və ehtimal ki, maliyyə) faydalarından yararlanmağa imkan verir. Daha ətraflı məlumat bölmə 7.1-də verilmişdir.

2.3. Vaxt çərçivəsi

SECAP bələdiyyənin öhdəliklərini yerinə yetirmək üçün nəzərdə tutduğu strateji tədbirlərin aydın konturunu ehtiva etməlidir. Vaxt çərçivəsi milli və regional kontekst və strategiyalarla uyğunlaşdırılmalıdır. MR-ə qoşulan bələdiyyə 2050-ci ilədək iqlim neytrallığına nail olmaq məqsədi ilə orta və uzunmüddətli hədəflər müəyyən etməyi öhdəsinə götürür. Bu hədəflər MR Şərq regional məqsədlərinə uyğun və ən azı MMT-lərdə müəyyən edilmiş milli hədəflər qədər iddialı olmalıdır. Əgər SECAP uzunmüddətli dövrü (məsələn, 2050-ci ilədək) nəzərdə tutursa, o, həmçinin 2030-cu il və ya ideal olaraq növbəti beş il üçün qısamüddətli hədəfləri də əhatə etməlidir. Bu, iqlim neytrallığı məqsədinə doğru aydın müəyyən edilmiş istiqamətdə irəliləməyə imkan verir.

Belə uzunmüddətli dövr üçün konkret tədbirləri və büdcələri ətraflı planlaşdırmaq həmişə mümkün olmadığına görə SECAP-ın aşağıdakıları əhatə edən şəkildə hazırlanması tövsiyə olunur:

- **uzunmüddətli vizyon, strategiya və məqsədləri,** o cümlədən, məsələn, 2050-ci il üçün torpaqdan istifadənin planlaşdırılması, nəqliyyat və mobillik, dövlət satınalmaları, yeni/təmir edilmiş binalar üçün standartlar kimi sahələrdə qəti öhdəlikləri**;**
- uzunmüddətli məqsədlərə nail olmaq üçün bir mərhələ olan qısa və orta müddətdə (adətən 2030-cu ilə qədər və ya növbəti beş il ərzində) əldə ediləcək, həyata keçiriləcək və monitorinq ediləcək **ətraflı hədəfləri və tədbirləri.**

2.4. SECAP -ın əsas elementləri

Güclü və ardıcıl SECAP hazırlamaq üçün bələdiyyələrə 10 əsas elementə diqqət yetirmələri tövsiyə olunur. Bu elementlər bütün prosesin uğuru üçün çox vacibdir və SECAP-ın planlaşdırılması, işlənib hazırlanması, həyata keçirilməsi və monitorinqində bələdiyyələrin fəaliyyətinə istiqamət vermək məqsədi daşıyır. Bunlar Şəkil 4 -də ümumiləşdirilib.

Şəkil 4. SECAP-ın 10 əsas elementi



Mənbə: BTM

10 əsas element bu təlimat kitabının növbəti bölmələrində ətraflı şəkildə təqdim olunanları ümumiləşdirir. Onlar SECAP prosesinin müvafiq mərhələlərinə uyğun olaraq dörd əsas bölmədə qruplaşdırılır: i) başlanğıc mərhələsi, ii) mövcud vəziyyətin qiymətləndirilməsi və

məqsədlərin müəyyən edilməsi, iii) fəaliyyətin planlaşdırması və strategiyaları, iv) icra və monitorinq. Cədvəl 1-də SECAP-ın hazırlanması və həyata keçirilməsi prosesindəki əsas addımlar və bələdçinin hər bir element üçün müvafiq bölməsi göstərilir.

Cədvəl 1. SECAP-ın hazırlanması prosesindəki əsas mərhələlər

Mərhələ	Əsas element	Bölmə
Addım 1 : BAŞLANĞIC mərhələsi	1. Bələdiyyə şürasının siyasi öhdəliyi və rəsmi şəkildə prosesə qoşulması	3.1
	2. Bütün müvafiq bələdiyyə şöbələrinin səfərbər edilməsi	3.2
	3. Maraqlı tərəflərin prosesə cəlb olunması və effektiv kommunikasiya	3.3
Addım 2: MÖVCUD VƏZİYYƏTİN QİYMƏTLƏNDİRMƏSİ və məqsədlərin MÜƏYYƏNLƏŞDİRİLMƏSİ	4. Mövcud yerli vəziyyətin hərtərəfli qiymətləndirilməsi	4.1
	5. Ümumi baxışın (vizyonun) və iddialı hədəflərin müəyyən edilməsi	4.2
Addım 3: FƏALİYYƏTLƏRİN PLANLAŞDIRILMASI və strategiyalarl	6. Əsas problemlərin həlli üçün kompleks tədbirlərin hazırlanması	5.1
	7. Müvafiq maliyyələşdirmənin müəyyən edilməsi və təmin olunması	5.2
	8. SECAP-ın qəbul edilməsi və təqdim olunması	5.3
Addım 4: İCRA VƏ MONİTORİNQ	9. Mərhələlər və göstəricilər daxil olmaqla ətraflı icra strategiyaları	6.1
	10. Monitorinq və hesabat	6.2

Mənbə: BTM

3. SECAP-ın başlanğıc mərhələsi

3.1. Siyasi öhdəlik və rəsmi şəkildə prosesə qoşulma

Merlər Razılaşmasının imzalanması bələdiyyə şurası tərəfindən qəbul edilmiş rəsmi qərarla dəstəklənməlidir. Bu addım təşəbbüsün məqsəd və prinsiplərinə sadiqliyi təmsil edir. Bu ilk öhdəlik daha sonra SECAP sənədinin təqdim edilməsi ilə bir daha təsdiqlənir; həmin sənəd də bələdiyyə şurası (və ya analoji qərar qəbuledən orqan) tərəfindən təsdiq edilməlidir. SECAP-ın həyata keçirilməsi mərhələsində də siyasi öhdəlik təmin edilməlidir.

Planlaşdırılan tədbirlərin uğurunu təmin etmək üçün yüksək səviyyəli dəstək vacibdir. Bələdiyyənin əsas qərar qəbul edən şəxslərinin SECAP-ın hazırlanması prosesində tam iştirak etməsi, rəhbərlik və dəstək göstərməsi və müvafiq texniki idarələrinə/bölmələrinə aydın səlahiyyət verməsi olduqca vacibdir. SECAP-ı hazırlamaq və həyata keçirmək üçün kifayət qədər insan resursları, kifayət qədər vaxt və büdcə ayırmaları da eyni dərəcədə vacibdir. Siyasi öhdəlik və liderlik idarəetmə dövrünü stimullaşdıran hərəkətverici qüvvələrdir. Buna görə də, onlar elə başlanğıcdan təmin edilməlidir.

Bələdiyyənin əsas qərar qəbul edən şəxsləri aşağıdakı istiqamətlərdə mühüm rol oynaya bilərlər:[10]

- SECAP-ın vizyonunu digər şöbələrin müvafiq həyata keçirilən tədbirləri və təşəbbüsləri ilə birləşdirmək və onun ümumi planlaşdırmanın bir hissəsinə çevrilməsini təmin etmək;
- SECAP-ın bütün müddəti ərzində onun icrası və monitorinqinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək;
- İctimaiyyətin iştirakını və maraqlı tərəflərin prosesə cəlb olunmasını təşviq etmək və dəstəkləmək;
- SECAP prosesinə bələdiyyə və sakinlərin "sahib çıxmasını" təmin etmək;
- ümumi iqlim fəaliyyəti gündəliyində irəliləmək üçün birbaşa əməkdaşlıq və həmkarlararası mübadilə yolu ilə ölkə daxilində və xaricində yerli və regional hakimiyyət orqanları ilə gələcəyə baxışlarını, nəticələrini, təcrübələrini və biliklərini bölüşmək.

SECAP təsdiqləndikdən sonra, icra və monitorinq boyunca siyasi dəstək və diqqət qorunub saxlanılmalıdır. Ən yüksək səviyyəli məsul orqan olaraq, bələdiyyə şurası SECAP-ın icrası barədə ətraflı məlumatlandırılmalıdır və lazım olduqda planlarda müvafiq düzəlişlər etməlidir.

Siyasi dəstəyi təmin etməyin vahid yolu yoxdur. İnzibati strukturlar, siyasi təsdiq nümunələri və siyasi mədəniyyətlər ölkədən ölkəyə dəyişir və yerli kontekstdən asılıdır. Buna görə də hər bir bələdiyyə SECAP-ın uğurla hazırlanmasını və həyata keçirilməsini təmin etmək üçün zəruri siyasi dəstəyi gücləndirmək məqsədilə hansı addımların atılmalı olduğunu müəyyən etməlidir

[10] Bələdiyyə başçıları, bələdiyyə başçılarının müavinləri, direktorlar, icra orqanları, şəhər şuraları və s. kimi müvafiq qərar qəbul edən şəxslər və ya qruplar.

Qutu 3. Yerli səviyyədə siyasi diqqətin və dəstəyin təmin edilməsi ilə bağlı təkliflər

- Bələdiyyə başçısını və digər əsas qərar qəbul edənləri SECAP-ın əhəmiyyəti və faydaları, eləcə də lazım olan resurslar barədə daim məlumatlandırın. Siyasi hakimiyyət orqanlarına təqdim edilən sənədlərin aydın, qısa və əhatəli olmasını təmin edin.
- Əsas siyasi qruplara iqlim dəyişikliklərinin səbəbləri və təsirləri barədə qısa məlumat verin, yerli səviyyədə potensial təsirləri (artıq müşahidə olunmuş təsirlər və gələcək risklər) və səmərəli cavab tədbirlərinin nümunələrini təqdim edin.
- Bələdiyyə şurası tərəfindən bu sahədə qəbul edilmiş digər qərarlara və öhdəliklərə (məsələn, əlaqəli strategiyalar və planlar, şəhər gündəliyi) xüsusi istinad edin.
- Mövcud imkanlardan və yaranan sinerjidən, məsələn, iqlim dəyişikliyi məsələlərinin medianın xüsusi diqqət mərkəzində olduğu məqamlarda, yararlanın.
- İqlim siyasətlərinin faydalarını (məsələn, sosial, iqtisadi, məşğulluq, hava keyfiyyəti və sağlamlıq sahələrində) vurğulayın. Mesajı sadə, aydın və auditoriyaya uyğun şəkildə çatdırın.

3.2. Bütün müvafiq bələdiyyə şöbələrinin prosesə cəlb edilməsi

SECAP-ın hazırlanması və həyata keçirilməsi mürəkkəb və vaxt aparan prosesdir və hərtərəfli planlaşdırma və davamlı idarəetmə tələb edir. Bu, bələdiyyənin idarəçiliyindəki müxtəlif şöbələr, məsələn, ətraf mühitin mühafizəsi, torpaqdan istifadə və məkan planlaşdırması, iqtisadiyyat və sosial məsələlər, binalar və infrastrukturun idarə edilməsi, mobillik və nəqliyyat, büdcə və maliyyə, dövlət satınalmaları, eləcə də kommunikasiya və ictimaiyyətlə əlaqələr bölmələri arasında əməkdaşlıq və koordinasiya tələb edir. Bu şöbələrin SECAP-ı xarici və ya məcburi bir tapşırıq kimi deyil, gündəlik fəaliyyətlərinin cari və planlaşdırılan yerli layihə və proqramlarla uzlaşdırılmış ayrılmaz tərkib hissəsi kimi görməsi vacibdir.

Uğurlu SECAP, məsuliyyətləri təyin olunmuş aydın təşkilati strukturla dəstəklənən sektorlararası və vahid yanaşmaya əsaslanır. Müxtəlif siyasətlər, eləcə də bələdiyyə şöbələri və kənar təşkilatlar arasında koordinasiyanın olmaması əsas maneə ola bilər. Buna görə də, MR imzaçıları şöbələrarası əməkdaşlığı inkişaf etdirmək üçün şərait yaratmalıdırlar. Şöbələrə, digər daxili səlahiyyət sahələri ilə yarana biləcək sinerji (habelə mümkün ziddiyyətlər) nəzərə alınmaqla, müvafiq və aydın vəzifələr həvalə edilməlidir.

3.2.1. Müvafiq təşkilati strukturların yaradılması

Mövcud təşkilati strukturlar (məsələn, energetika idarəetmə bölməsi, dayanıqlı inkişaf gündəliyinin koordinasiyası) MR kontekstində istifadə edilə bilər. SECAP-ın hazırlanması prosesinin əvvəlində koordinator (bir nəfər və ya kiçik bir qrup) təyin edilməlidir. Bu koordinator siyasi rəhbərliyin və inzibati rəhbərliyin tam dəstəyi ilə, eləcə də planlaşdırılan tapşırıqları yerinə yetirmək üçün lazımi vaxt və büdcə vəsaitləri ilə təmin olunmalıdır. Koordinatoru dəstəkləmək üçün xüsusi bir bölmə və ya komanda nəzərdə tutula bilər[11]. Bələdiyyənin ölçüsündən asılı olaraq, məlumatların toplanması, işlənməsi və paylaşılması kimi müxtəlif vəzifələrin yerinə yetirilməsi üçün bir neçə nəfərin təyin edilməsi da lazım ola bilər. Xüsusiyyətlər konkret şəraitdən asılı olaraq dəyişsə də, sadə bir təşkilati struktur aşağıdakıları əhatə edə bilər (Şəkil 5):

- **Rəhbər komitə**. Siyasət formalaşdıran və yüksək səviyyəli rəhbərlərdən ibarət komitənin vəzifəsi prosesə strateji istiqamət və lazımi siyasi dəstək vermək, eləcə də iqlim dəyişikliyi ilə bağlı siyasətlərin müxtəlif şöbələrin fəaliyyətinə inteqrasiyasını təmin etməkdir.

[11] "100 İqlim Neytral və Ağıllı Şəhər Missiyası"nı tərəfindən nəzərdə tutulduğu kimi, Keçid komandasının konsepsiyası və onun müxtəlif formaları bələdiyyələrə iqlim keçidini həyata keçirmək üçün tələb olunan həm daxili, həm də xarici bacarıqları, imkanları və resursları əhatə edən bir komanda qurmaqda dəstək ola bilər. Bölmənin sonunda əlavə mənbələrə baxın.

– **SECAP işçi qrupu** – bələdiyyənin müxtəlif şöbələrinin nümayəndələrindən, eləcə də dövlət qurumlarının və akademik dairələrin mütəxəssislərindən ibarət olmaqla proqramın irəliləməsi, layihələrin hazırlanması və icrasının monitorinqinə cavabdehdir və aşağıdakı kimi strukturlaşdırıla bilər **:**
    - **Tematik alt qruplar -**iqlim və enerji üzrə planlaşdırma rəhbərlərindən, bələdiyyənin müxtəlif şöbələrinin əsas əməkdaşlarından, dövlət qurumlarının nümayəndələrindən, akademik dairələrin mütəxəssislərdən və s. ibarət qruplardır**.** Onların vəzifəsi, SECAP tədbirlərində birbaşa iştirak edən əsas qeyri-bələdiyyə iştirakçılarının töhfələri ilə, müəyyən məsələlər ətrafında fəaliyyətlərin əlaqələndirilməsi ola bilər**.**
    - **Sahələrarası alt qruplar** -bələdiyyə şöbələrinin məsul şəxslərindən və kənar ekspertlərdən ibarət qruplardır. Bu qruplar müxtəlif sektorların perspektivlərini nəzərə almaqla istixana qazlarının azaldılması imkanlarını, iqlim dəyişmələrinə qarşı həssaslığı və enerji yoxsulluğu ilə bağlı problemləri müəyyənləşdirməyə kömək edir. Bununla yanaşı, onlar bələdiyyənin real ehtiyaclarına və mövcud məlumatlara əsaslanaraq iqlim məsələlərinin mövcud siyasət sahələrinə inteqrasiyasına kömək edir və layihələrin konkret nəticələrə yönəldilməsini təmin edir.

Rəhbər komitənin və işçi qrupunun, eləcə də alt qrupların ayrıca rəhbəri və aydın şəkildə müəyyən edilmiş məqsəd və funksiyaları olmalıdır, bununla yanaşı, onların birgə işləməsi təşviq edilməlidir. SECAP prosesinin gedişatına səmərəli nəzarəti təmin etmək üçün müntəzəm görüş cədvəli, dəqiq müəyyən edilmiş gündəlik və layihələr üzrə vahid hesabatvermə strategiyasının hazırlanması tövsiyə olunur.

SECAP-ın bütün komponentlərinin bələdiyyənin müvafiq şöbələrinin digər fəaliyyətləri və təşəbbüsləri ilə inteqrasiyası vacibdir və onlar bələdiyyənin ümumi planlaşdırmasının bir hissəsinə çevrilməlidir. Təşkilatda prosesə güclü nəzarəti təmin etmək üçün müvafiq bələdiyyə iştirakçılarına məsul vəzifələr həvalə edilməlidir. Bələdiyyənin təşkilatı strukturu üçün zəruri ola biləcək düzəlişləri müəyyən etmək üçün şöbələr və iştirakçılar arasında müxtəlif qarşılıqlı əlaqələri göstərən axın cədvəlinin tərtib edilməsi faydalı ola bilər.

Daxili kommunikasiya kampaniyası bələdiyyənin müxtəlif şöbələrində çalışan əməkdaşların məlumatlandırılmasına və prosesə cəlb olunmasına kömək edə bilər. Tərəflər arasında ünsiyyəti asanlaşdırmaq və məlumat mübadiləsini təşviq etmək üçün bələdiyyə komandası daxilində əlaqələndirici şəxs müəyyən edilməlidir.

Şəkil 5. Təşkilati strukturun nümunəsi



Mənbə: BTM

Qutu 4. Misal: Xırdalanın inzibati strukturu

İmzaçı: Xırdalan (Azərbaycan) | Əhalisi: 195 200 | Qoşulma: 2022

Xırdalan bələdiyyəsində SECAP-ın icrası mövcud inzibati sistemə daxil edilmişdir. Lazımi məlumatları toplamaq və SECAP-ın hazırlanmasını əlaqələndirmək, planın bələdiyyənin gündəlik fəaliyyətinə inteqrasiya olunmasını və ixtisaslı işçilər tərəfindən dəstəklənməsini təmin etmək üçün xüsusi işçi qrupu yaradılmışdır.

Təyin olunmuş yerli koordinator bələdiyyə şöbələri, bələdiyyə, şəhər şurası və kənar maraqlı tərəflər arasında əməkdaşlığa nəzarət edir. Bu funksiya müxtəlif bölmələr arasında vəzifələrin uyğunlaşdırılmasını və SECAP-ın icrasının ardıcıl və yaxşı əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin edir.

Qutu 5. Misal: Çernovtsi icmasının "SECAP İşçi Qrupu"

İmzaçı: Çernovtsi icması (Ukrayna) | Əhali: 262 294 | Qoşulma: 2021


Çernovtsi, bələdiyyənin iqlim və enerji təşəbbüslərini əlaqələndirmək üçün rəsmi SECAP İşçi Qrupu yaratmışdır. Merin rəsmi sərəncamı ilə yaradılan qrupa mer müavini, şəhər şurasının üzvləri, bələdiyyə idarələrinin rəhbərləri və yerli su və istilik təchizatı kommunal xidmətlərinin nümayəndələri daxildir.

Bu İşçi Qrupu bələdiyyənin iqlim və enerji məsələləri üzrə mərkəzi əlaqələndirici orqanı kimi fəaliyyət göstərir.

Onun vəzifələrinə aşağıdakılar daxildir:

- bələdiyyənin enerji siyasətinin hazırlanması;
- yerli enerji monitorinqi sisteminin təkmilləşdirilməsi və idarə olunması;
- enerji istehlakı ilə bağlı məlumatların toplanması və təhlili;
- SECAP-ın icrasına nəzarət və monitorinq;
- yerli qurumların bələdiyyənin enerji idarəetmə sisteminə cəlb edilməsi;
- enerji səmərəliliyi və iqlim tədbirlərinin icrası barədə sakinlərin məlumatlandırılması.

Əslində, aşağıdakı şəkildə ümumiləşdirilən bu struktur bələdiyyə idarələri arasında üfüqi koordinasiyanı, yerli kommunal xidmətlərlə şaquli koordinasiyanı və icma ilə ardıcıl əlaqəni təmin edir və SECAP-ın səmərəli həyata keçirilməsinə imkan verir.



Mənbə: Çernovtsi icmasının fəaliyyət planından tərcümə (səhifə 74)

Təşkilati strukturlar üzrə əlavə resurslar

NetZeroCities (2022). Transition Team Playbook – Orchestrating a Just Transition to Climate Neutrality

(Keçid Komandası üzrə Təlimat – İqlim neytrallığına ədalətli keçidin əlaqələndirilməsi).

Tavella, C., Pessina, A., Yearworth, M., Spoerndli, C. (2019). Guidelines for Stakeholders' Engagement (Maraqlı tərəflərin cəlb edilməsi üzrə təlimatlar). H2020 CoME EAsy layihəsi çərçivəsində hazırlanmış hesabat.

3.2.2. İnsan resurslarının səfərbər edilməsi

SECAP-ın səmərəli hazırlanması və həyata keçirilməsi insan resurslarının vaxtında səfərbər edilməsini tələb edir. Bələdiyyə SECAP-ı hazırlamaq və planlaşdırılan tədbirləri həyata keçirmək üçün kifayət qədər işçi heyətinin mövcudluğunu təmin etməlidir. Bunun üçün, digər idarəetmə səviyyələrindən dəstəyin müəyyən edilməsi, cəlb edilməsi və ayrılması, yaxud bu dəstəyin tövsiyə və tələb edilməsi zəruri ola bilər.

Müxtəlif insan resursları səfərbər edilə bilər:

- Daxili (bələdiyyədə mövcud olan): bələdiyyə idarəetmə strukturunda mövcud olan insan resursları. SECAP prosesi ilə əlaqəli tapşırıqları bələdiyyənin artıq dayanıqlı inkişaf və/və ya enerji və iqlimlə bağlı məsələlərlə məşğul olan mövcud şöbələrinin işinə inteqrasiya etməklə onlardan istifadə etmək olar. Texniki məsələlər, məlumatların idarə edilməsi, layihə və maliyyə idarəetməsi, investisiya layihələrinin hazırlanması, kommunikasiya vasitələri və digər müəyyən edilmiş boşluqlar üzrə işçilərin bilik və bacarıqlarını artırmaq üçün xüsusi təlimlər nəzərdə tutula bilər.
- Daxili (yeni): şöbələr və insan resursları mövcud deyilsə və ya kifayət deyilsə, SECAP-ın hazırlanması və həyata keçirilməsi üçün ehtiyacların qiymətləndirilməsinə uyğun olaraq yeni bölmələr yaradıla bilər.
- Xidmətlərin kənardan cəlb edilməsi (Autsorsinq): bələdiyyədə mövcud olan əməkdaşların bu sahədə kifayət qədər ixtisası və təcrübəsi yoxdursa, məhdud müddətə və ya SECAP çərçivəsində müəyyən bir tapşırığı yerinə yetirmək üçün kənar resurslardan istifadə edilə bilər. SECAP-ın texniki hissələri üzrə işi dəstəkləmək üçün özəl məsləhətçilər, bələdiyyə şəbəkələri, universitetlər və tədqiqat institutları ilə müqavilə bağlana bilər. Bəzi tapşırıqlar üçün autsorsinq xidməti cəlb olunarsa, SECAP-ın bütün mərhələlərində işlərin ardıcıl və fasiləsiz icrasını təmin etmək üçün bələdiyyə podratçıların işinə yaxından nəzarət etməli və onlardan yerinə yetirilən tapşırıqlar barədə ətraflı sənədləşdirmə tələb etməlidir.
- Resursların birgə istifadəsi: bələdiyyənin (xüsusən də kiçik bələdiyyələrin) öz SECAP-ını hazırlamaq və həyata keçirmək üçün kifayət qədər bacarıq və ya resursu yoxdursa, o, digər bələdiyyələrlə və ya digər idarəetmə səviyyələri ilə qüvvələrini birləşdirə bilər. Birgə resurslardan istifadə etməyin müxtəlif yolları var, məsələn, qonşu bələdiyyələrlə koordinasiya və əməkdaşlıq çərçivəsində birgə SECAP hazırlamaq (bölmə 7.1) və ya Razılaşma Koordinatorlarından dəstək almaq (bölmə 7.2).
- Qeyd etmək lazımdır ki, SECAP-a ayrılan daxili insan resursları maliyyə və strateji baxımdan xüsusilə məhsuldar ola bilər. Resursların mümkün qədər daxildən cəlb edilməsi prosesə daha güclü bağlılıq yaradır, xərclərə qənaət edir və SECAP-ın reallaşdırılmasını dəstəkləyir.

3.3. Maraqlı tərəflərin cəlb olunması və səmərəli kommunikasiya

Maraqlı tərəflərin cəlb edilməsi və iştirakçılıq əsasında birgə fəaliyyət yerli ekoloji idarəetmədə əsas yer tutur. SECAP çərçivəsində iqlim dəyişmələri ilə bağlı öhdəliklərin yerinə yetirilməsində dövlət və özəl sektorların, eləcə də son istifadəçilərin əhəmiyyəti nəzərə alınmaqla, planlaşdırma prosesinin əvvəlində ictimaiyyətin və təşkilatların cəlb edilməsi xüsusilə vacibdir. Maraqlı tərəflərin cəlb olunması və iştirakçılığa əsaslanan yanaşmalar əsas iştirakçıların prosesə bağlılığının və prosesin şəffaflığının, eləcə də SECAP-ın etibarlılığının və tədbirlərin qəbulunun təmin edilməsi üçün çox vacibdir. Onlar həmçinin cəmiyyətin bütün təbəqələrində davranış dəyişikliklərinə töhfə verir və ətraf mühitin idarə olunması nəticələrinə müsbət təsir göstərdikləri qəbul edilir. (Cattino və Reckien 2021; Rivas və b. 2021; Newig və b. 2023).

3.3.1. Maraqlı tərəflərin müəyyən edilməsi və xəritələndirilməsi

Maraqlı tərəflərin müəyyən edilməsi və xəritələndirilməsi birgə hazırlanmış, paylaşılan və inklüziv SECAP-in işlənib hazırlanmasının ilk mərhələsidir. Maraqlı tərəflər aşağıdakı xüsusiyyətlərə malik şəxslər və ya qruplardır:

- maraqları müvafiq məsələdən təsirlənən;

- fəaliyyəti müvafiq məsələyə təsir göstərən;
- strategiyanın hazırlanması və həyata keçirilməsi üçün lazım olan məlumata, resurslara və təcrübəyə malik olan/onlara nəzarət edən;
- strategiyanın uğurla həyata keçirilməsi üçün iştirakı və prosesə cəlb olunması zəruri olanlar.

Maraqlı tərəflərin əhatəli siyahısının hazırlanması SECAP prosesinin mərhələlərinə cəlb ediləcək yerli icmanın formalaşdırlmasına başlayan bələdiyyələr üçün ilkin şərtdir. Yerli şəraitdən asılı olaraq, maraqlı tərəflərin geniş kateqoriyaları müəyyənləşdirilə, daha sonra isə müxtəlif təşkilatların, qrupların və ya qurumların nümayəndələri dəqiqləşdirilə bilər.

İqlim dəyişikliyi və dayanıqlı inkişaf kontekstində beşqat spiral (quintuple helix) yanaşması maraqlı tərəflərin beş alt sistemini müəyyən edir:

1. Təhsil sistemi (akademik dairələr, universitetlər, ali təhsil sistemləri və məktəblər);
2. İqtisadi sistem (sənaye, şirkətlər, xidmət sahələri və banklar);
3. Siyasi sistem (dövlət və hökumət);
4. Media əsaslı və mədəniyyət- əsaslı ictimaiyyət (vətəndaş cəmiyyəti də daxil olmaqla);
5. Təbii mühit (ətraf mühit/sosial ekologiya nümunələrini və xüsusi bilik və təcrübəni təmsil edən iştirakçılar).

Bu modelə görə, biliklərin bir altsistemdən digərlərinə dövriyyəsi biliklərin yaranmasına təkan verir və sosial-ekoloji keçid üçün yeni ideyalar yaradır. Cədvəl 2-də beşqat spiral modeli əsasında maraqlı tərəflərin xəritələndirilməsinə dair nümunə təqdim olunur.

Müəyyən edilmiş maraqlı tərəflər, xüsusiyyətləri, təsiri və maraqlari baxımından fərqli ola bildiyindən, onların xüsusiyyətlərinə, təsir/maraq səviyyəsinə və həll ediləcək əsas məsələlərlə bağlı rollarına əsasən xəritələndirilməsi vacibdir. Bəzi qurumlar və ya qruplar daha böyük potensial riskə və ya xüsusilə yüksək marağa malik ola bilər ki, bu da onları planın uğuru baxımından daha kritik tərəflərə çevirir. Bu əsas maraqlı tərəflər daha yaxından idarəetmə, tez-tez monitorinq və zəruri hallarda, prosesdə daha yüksək iştirak səviyyəsi tələb edir. Bütün maraqlı tərəflərin xüsusiyyətlərini vizuallaşdırmaq üçün qrafiklərdən istifadə edən müxtəlif maraqlı tərəflərin xəritələndirmə alətləri mövcuddur. Bunlar bələdiyyələrə bir maraqlı tərəfin digərləri ilə müqayisədə mövqeyini anlamağa, nümunələri müəyyən etməyə və maraqlı tərəfləri ümumi xüsusiyyətlərə əsasən qruplaşdırmağa kömək edə bilər.

Cədvəl 2. Beşqat Spiral (Helix Quintuple) modeli əsasında kateqoriyalar üzrə qruplaşdırılmış maraqlı tərəflər nümunəsi

Spiral		Kateqoriya	Maraqlı tərəf
Təbii Ətraf Mühit *Maraqlı tərəflərin xəritələndirilməsinin hər səviyyəsində nəzərə alınmalıdır*	Təhsil sistemi	Məktəblər, Tədqiqat və Akademik dairələr	Universitetlər
			Məktəblər
			Tədqiqat mərkəzləri/institutlar
			Mütəxəssislər
	İqtisadi sistem	Biznes və sənaye sahələri	Sahibkarlar
			Yerli sənaye sahələri
			Tikinti/Tikinti şirkətləri
			Fermerlər/Kənd təsərrüfatı/Qida şirkətləri
			Məsləhət şirkətləri
		Maliyyə tərəfdaşları	Banklar
			Özəl fondlar
			ESCO-lar (Enerji Xidmətləri Şirkətləri)
			Sığorta şirkətləri
		Kommunal xidmətlər şirkətləri	Nəqliyyat/mobillik şirkətləri
			Tullantıların idarə olunması şirkətləri
			Enerji təchizatçıları
			Su təsərrüfatı müəssisələri
	Siyasi sistem	Dövlət qurumları	Milli/regional inzibati orqanlar və/və ya qonşu bələdiyyələr
			Yerli və regional ətraf mühit və enerji agentlikləri
		Digər dövlət qurumları	Mülki müdafiə (məsələn, polis və yanğınsöndürmə idarələri)
			Ticarət Palataları
			Liman administrasiyası və/və ya sahil mühafizəsi
			Xəstəxanalar/təcili yardım xidmətləri
	Media əsaslı və mədəniyyətə əsaslanan ictimaiyyət	Geniş ictimaiyyət	Sakinlər
			Turistlər
		Mədəni/vətəndaş cəmiyyəti birlikləri	Yerli birliklər, QHT-lər və şəbəkələr
			Fondlar və muzeylər
			Həmkarlar ittifaqları
			Dini qruplar və icmalar
			Könüllülər
		Kommunikasiya	Yerli media
			Kommunikasiya agentlikləri

Mənbə: BTM

3.3.2. Maraqlı tərəflər necə cəlb edilə bilər

Müəyyənləşdirildikdən və xəritələndirildikdən sonra, maraqlı tərəflər SECAP prosesinin lap əvvəlindən cəlb olunmalıdır; bununla yanaşı, müxtəlif maraqlı tərəf qrupları müxtəlif mərhələlərdə iştirak edə bilər. Bəzi maraqlı tərəf qrupları SECAP hazırlığının konkret tapşırıqlarında da fəal rol oynaya bilər. Məsələn, akademik mütəxəssislər, kommunal xidmət şirkətləri, QHT-lər və özəl sektor faydalı məlumatların toplanmasına və paylaşılmasına, eləcə də əsaslı və siyasətlə əlaqəli göstəricilərin təqdim edilməsinə töhfə verə bilər. Qərar qəbuletmə prosesinin bütün mərhələlərində aydın və məqsədyönlü iştirak, yerli

iqlim dəyişmələrinə uyğunlaşma və təsirlərin azaldılması üzrə iddialı və transformativ planlaşdırmanın əsas elementidir (Cattino və Reckien 2021).

SECAP-in hazırlanmasında və qərar qəbuletmə prosesində maraqlı tərəflərin iştirakının müxtəlif dərəcələri mövcuddur: məlumatdan tutmuş məsləhətləşmə, iştirak və səlahiyyətləndirmə kimi daha yüksək səviyyəli iştiraka qədər (Cədvəl 3- ə baxın). Ümumi və inklüziv SECAP-ın hazırlanması üçün maraqlı tərəflərin və şəxslərin ən yüksək iştirakı təmin olunmalı və onların arasında dialoq və əməkdaşlıq təşviq edilməlidir.

Maraqlı tərəflərin cəlb olunması səviyyəsindən asılı olaraq, müxtəlif metod və üsullardan istifadə etməklə onların prosesdə iştirakını gücləndirmək olar (Cədvəl 3).

Cədvəl 3. İcma ilə əlaqə üsullarına dair nümunələr

	Məlumatlandırmaq	Məsləhətləşmək	Cəlb etmək	Əməkdaşlıq etmək	Səlahiyyət vermək
İŞTİRAKIN MƏQSƏDİ	Cəmiyyəti müvafiq məlumatlarla təmin etmək	İcmadan fikir toplamaq	İcma ehtiyaclarının və resurslarının prosesə inteqrasiya olunmasını və planlaşdırmada nəzərə alınmasını təmin etmək	Qərarların icrasında icmanın liderlik rolunu təmin etmək	İcma tərəfindən idarə olunan qərar qəbuletməni təşviq etmək
İCMAYA MESAJ	*'Sizi məlumatlandıracağıq'*	*"Sizin fikriniz bizim üçün maraqlıdır '*	*"Siz bizi bu məsələ haqqında fərqli düşünməyə (və buna görə də hərəkət etməyə) şövq edirsiniz"*	*"Sizin liderliyiniz və təcrübəniz məsələni necə həll etməyimiz üçün çox vacibdir"*	*"Əsaslı dəyişikliklərə yönəlmiş həllər üçün kollektiv gücü və potensialı üzə çıxarmağın vaxtıdır"*
İŞTİRAK TEXNİKALARI	– Veb sayt – Ümumi Məlumat Kanalları – Videolar – İnfoqrafika – Sosial Media – Reklam və Mediada işıqlandırma – Çap materialları – Təqdimatlar və canlı yayım – Ekspert paneli – Nümayişlər/Sərgilər – Sahəyə səfərlər/ Turlar – İctimai görüşlər	– Sorğular – Səsvermə – Anketlər – Müsahibələr – Fokus qrupları – Onlayn forumlar – Onlayn şərhlər – Sosial media Dinləməsi – Sosial mediada müzakirələri/ ictimai forumlar – Seminarlar – Qapı-qapı görüşlər – Ev şəraitində kiçik qrup müzakirələri – Açıq qapı günləri/pop-up tədbirlər – Şərh qutuları	– Kütləvi mənbələrdən ideyaların toplanması/ ideyaların generasiyası – İcmanın xəritələnməsi – Rəqəmsal hekayə – Birgə planlaşdırma sessiyası (Dizayn Charrette) – Zehni xəritələndirmə (Mind Mapping) – (Ən Əhəmiyyətli Dəyişiklik (ƏƏD) Most Significant Change (MSC) – Vizyonlaşdırma – Ssenarilərin sınaqdan keçirilməsi – Sakinlər üçün panellər – Hakatonlar – İştirakçılıq əsasında büdcələşdirmə	– Böyük qrup görüşləri – Sənədlərin birgə hazırlanması – Onlayn icmalar – Açıq məkan formatı Opena Space) – İşçi qrupları/tədris dairələri	– Birgə qərar qəbuletmə platforması – Sakinlər komitələri – Sakinlərdən ibarət münsiflər heyəti – İcma göstəriciləri üzrə layihələr – Resurslara Əsaslanan İcma İnkişafı (RƏİİ) (ABCD – Asset-Based Community Development)

Mənbə: Tamarack Institute (2017) və Covenant of Mayors – Europe (2023) məlumatları əsasında uyğunlaşdırılmışdır.

Maraqlı tərəflərin cəlb edilməsi planının hazırlanması şəhərlərə hər bir mərhələdə prosesə cəlb olunacaq maraqlı tərəfləri, onların rollarını, istifadə ediləcək metodları və məqsədləri müəyyənləşdirməyə, eləcə də işin gedişatını izləməyə, maraqlı tərəflərin ehtiyaclarını müəyyən etməyə və iştirak üçün potensial maneələrin qarşısını almağa kömək edə bilər

(Cədvəl 4). Bundan əlavə, maraqlı tərəflərin cəlb edilməsi üzrə mütəxəssislərə və prosesi fəallaşdıran mütəxəssislərə müraciət etmək faydalı ola bilər.

Cədvəl 4. Maraqlı tərəflərlin cəlb edilməsi planının mümkün strukturu (yalnız illüstrativ məqsədlər üçün)

Mərhələ	Ad/ İstinad	Tip (Kateqoriya)	Maraq	Təsir	Rol	Kommunikasiya yanaşması	Metod	...
Mərhələ 1: Başlanğıc mərhələsi	Ad	Bələdiyyə şöbəsi. (Dövlət orqanı)	+++	+++	Koordinasiya	E-poçt, Telefon zəngi	Dövri görüşlər	...
	Ad	QHT (Vətəndaş cəmiyyəti)	++	++	Nişanlanma/ Məsləhətləşmə	E-poçt	Vətəndaş panelləri	
	Ad	Sakinlər (Vətəndaş cəmiyyəti)	++	+++	Məsləhətləşmə	Xəbər bülleten/ Kommunikasiya kampaniyası	Vətəndaş panelləri/ Sorğu	
	...							
Mərhələ 2: Mövcud vəziyyətin qiymətləndirilməsi və məqsədlərin müəyyənləşdirilməsi	Ad	Ekspert (Akademik dairələr)	+++	++	Məlumatların toplanması/təhlili	E-poçt, Video zəng	İşçi qrupu	
	Ad	Ətraf Mühit Agentliyi (Dövlət orqanı)	++	++	Məlumat təminatçısı/təhlili	E-poçt	İşçi qrupu	
	Ad	Enerji təchizatçısı (Kommunal Xidmətlər)	++	+++	Məlumat təminatçısı	E-poçt, görüş	İşçi qrupu	
	Ad	QHT (Vətəndaş cəmiyyəti)	++	++	Vizyonun formalaşdırılması	E-poçt	Vətəndaş panelləri	
	...							
Mərhələ 3: Fəaliyyət planlarının və strategiyaların hazırlanması	Ad	Bank (Maliyyə sektoru)	+	+++	Sponsor	Telefon zəngi, görüş	Kütləvi ideya yaratma	
	Ad	QHT (Vətəndaş cəmiyyəti)	++	++	İştirak/ Fəaliyyətin həyata keçirilməsi.	E-poçt	Seminar	
	Ad	Özəl şirkət (Biznes)	+	++	Fəaliyyətin həyata keçirilməsi.	Telefon zəngi, e-poçt	Hakaton	
	Ad	Sakinlər (Vətəndaş cəmiyyəti)	++	+++	Fəaliyyətlərin planlaşdırılması/ Həyata keçirilməsi	Xəbərlər bülleten/ Kommunikasiya kampaniyası	İştirakçılıq əsasında büdcələşdirmə	
	...							
Mərhələ 4: İcra və monitorinq	Ad	Bələdiyyə şöbəsi (Dövlət orqanı)	+++	+++	Monitorinq	E-poçt, Telefon zəngi	Dövri görüşlər	
	Ad	Yerli TV (Kommunikasıya)	++	+++	Nəticələrin ictimaiyyətə çatdırılması	Telefon zəngi, e-poçt	Mətbuat açıqlaması	
	...	...						

Mənbə: BTM

Qutu 6. Misal: Lutsk birləşmiş icmasında maraqlı tərəflərin cəlb edilməsi

İmzaçı: Lutsk birləşmiş icması (Ukrayna) | Əhali: 240 292 | Qoşulma: 2022

2050-ci ilədək iqlim və enerji məqsədlərinə nail olmaq üçün icma layihənin həyata keçirilməsinə töhfə verən, SECAP tədbirlərindən faydalanan və ya dəyərli ideyalar və təcrübə təklif edən bütün müvafiq maraqlı tərəfləri fəal şəkildə prosesə cəlb edir.

Lutskda gənclərin iştirakına yönəlmiş mühüm nümunələrdən biri "Lutskdakı Yeni STEM-Təhsil Mərkəzinin Enerji Modernləşdirilməsi: İqlim Tədbirlərinin Təşviqi " (2025–2028) proqramıdır. Mərkəz qabaqcıl enerji səmərəli texnologiyaları və interaktiv elementləri birləşdirərək tələbələrin təmiz enerji sistemlərini fəaliyyətdə müşahidə edə biləcəyi real həyat nümayiş məkanı kimi xidmət edir. Bu praktik mühit gəncləri bərpa olunan enerji, iqlim dəyişikliyi və dayanıqlı şəhər inkişafı mövzularını araşdırmağa təşviq edir, iqlimlə bağlı maarifləndirməni artırmağa və icma daxilində dayanıqlıq təşəbbüslərinə uzunmüddətli dəstək verməyə kömək edir.

Başqa bir nümunə olaraq, Lutsk şəhəri enerji səmərəliliyinin və bərpa olunan enerjinin Avropa iqlim fəaliyyətinin məqsədlərinə nail olmaqda rolu barədə ictimaiyyətin məlumatlılığını artırmaq üçün Dayanıqlı Enerji Günləri kampaniyasına başlamışdır. Kampaniya məktəblilər üçün bələdiyyənin bərk yanacaqla işləyən qazanxanasına maarifləndirici səfərlə başladı və onlar burada 2019-cu ildə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və Şərqi Avropa Enerji Effektivliyi və Ətraf Mühit Tərəfdaşlığı (E5P) fondu tərəfindən dəstəklənən layihə çərçivəsində quraşdırılmış müasir qazanxananın işi ilə tanış oldular. Bu təşəbbüs şəhərin ikili diqqətini: istilik təchizatı infrastrukturunun modernləşdirilməsini və vətəndaşların, xüsusən də gənclərin iqlim və enerji mövzularında maarifləndirilməsi prosesinə fəal şəkildə cəlb edilməsini vurğulayır.

Maraqlı tərəflərin cəlb olunması ilə bağlı əlavə resurslar

NetZeroCities, "Vətəndaşların iştirakı və maraqlı tərəflərin cəlb olunması" mövzusunda qısa materiallar ("Citizens participation and stakeholder engagement").

Tavella C., Pessina A., Yearworth M., Spoerndli C. (2019). Maraqlı tərəflərin cəlb olunması üzrə təlimatlar. Hesabat H2020 CoME EAsy layihəsi tərəfindən hazırlanmışdır. (Guidelines for stakeholders' engagement).

Beynəlxalq İctimai İştirak Assosiasiyası, "IAP2 İctimai İştirak Spektri" (International Association for Public Participation "IAP2 Public Participation Spectrum").

Avropa İqlim Paktı "Vətəndaşların cəlb olunması üçün sürətli vasitələr" (European Climate Pact "Quick tools for citizens engagement").

3.3.3. Kommunikasiya

Kommunikasiya, SECAP-ın hazırlanması və həyata keçirilməsi zamanı kənar və daxili maraqlı tərəfləri məlumatlandırmaq, həvəsləndirmək və dəstəkləmək üçün vacib vasitədir. Buna görə də, SECAP-ın hazırlanması zamanı mümkün, səmərəli və yerli ehtiyaclara və mədəni kontekstə uyğunlaşdırılmış aydın kommunikasiya strategiyası tətbiq edilməlidir.

Kommunikasiya strategiyası SECAP-ın hazırlanmasının bütün mərhələlərini əhatə etməli və bu proses zamanı maraqlı tərəflərdən dəstək almaqda, həm bələdiyyənin, həm də tərəfdaşların öhdəliklərinin əyani şəkildə təqdim olunmasında, eləcə də əldə edilən nəticələrin vurğulanmasında mühüm rol oynaya bilər.

İlkin mərhələdə aydın kommunikasiya strategiyası və düzgün hazırlanmış məlumat kampaniyaları SECAP məqsədlərinin tam başa düşülməsini təmin edə və iqlim dəyişikliyi mövzuları ətrafında dezinformasiya və yanlış məlumatların yayılması riskinin qarşısını ala bilər. İqlim dəyişikliyinin təsirlərinin yumşaldılması (mitiqasiya) və İQ emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma (adaptasiya) və enerji yoxsulluğu çox vaxt səhv başa düşülən və gündəlik problemlərlə əlaqəli məsələlər kimi qəbul edilməyən terminlərdir. Bunların

cəmiyyətin rifahı və gündəlik fəaliyyətlərlə əlaqəsini göstərmək planın ictimaiyyət tərəfindən qəbulu üçün çox vacib ola bilər. Maraqlı tərəflərin xərclərlə bağlı narahatlıqlarını aradan qaldırmağa kömək etmək üçün mitiqasiya, adaptasiya və enerji yoxsulluğu tədbirlərinin faydalarına, məsələn, sağlamlığa və həyat keyfiyyətinə müsbət təsirlərə və ya şəhərlərin yaşamaq üçün əlverişli və cəlbedici edilməsinə diqqət yetirmək vacibdir.

İcra mərhələsində həm bələdiyyənin müxtəlif şöbələri arasında daxili, həm də ictimaiyyət də daxil olmaqla, müvafiq maraqlı tərəflərlə xarici əlaqələrin qurulması vacibdir. Bu halda, kommunikasiya planları konkret tədbirlərin həyata keçirilməsi və ya planın ümumi məqsədinə nail olunması ilə əlaqələndirilə bilər.

Təcrübə və qabaqcıl təcrübələr mübadiləsi aparmaq üçün digər bələdiyyələrlə, xüsusən də digər MR imzaçıları ilə şəbəkələşmə xüsusilə tövsiyə olunur. Bu, öyrənmə prosesini sürətləndirir və hər bir bələdiyyə tərəfindən həyata keçirilən tədbirləri işıqlandırır ki, bu da pilot və/və ya nümayiş layihələrini dəstəkləmək üçün investorları və əlavə maliyyələşdirməni cəlb edə bilər.

Səmərəli kommunikasiya strategiyasının əsas məqamları:

- İstədiyiniz nəticəni müəyyənləşdirin: kommunikasiya vasitəsinin/planının gözlənilən təsiri aydın və obyektiv olmalıdır. Nəticələrin bəzi nümunələri bunlardır: məlumatlılığın artırılması, mövzu ilə bağlı biliklərin genişləndirilməsi, siyasi əhəmiyyətin artırılması, dəstəyin əldə edilməsi, fəaliyyətin təşviqi və nəticələrin ictimaiyyətə çatdırılması.
- Əsas mesaja diqqət yetirin: bu, aydın, qısa və sadə olmalıdır.
- Əsas auditoriyanı müəyyənləşdirin və onlara müraciət edin: hədəf auditoriyası daxili (bələdiyyənin inzibati qurumları daxilində) və ya xarici (digər maraqlı tərəflər) ola bilər. Hədəf auditoriyasını öyrənmək onların marağını cəlb etməyə və konkret narahatlıqları aradan qaldırmağa kömək edəcək.
- Potensial əhatə dairəsini və kommunikasiya təsirini qiymətləndirmək üçün göstəriciləri müəyyən edin (tədbirdə iştirakçıların sayı, sorğu cavabları, veb sayta daxil olmalar, elektron poçt vasitəsilə rəylər və s.).
- Büdcəni müəyyənləşdirin.
- İstədiyiniz nəticədən və mövcud resurslardan asılı olaraq ən uyğun kommunikasiya kanalını(larını) müəyyənləşdirin: üz-üzə, reklam, poçt, elektron poçt, veb sayt, bloqlar, çıxışlar/görüşlər, broşürlər, plakatlar, bülletenlər, nəşrlər, media açıqlamaları, sponsorluq və s.
- Planlaşdırmanı dəqiqləşdirin: yuxarıda göstərilən bütün ilkin məlumatları və planın həyata keçirilməsi ilə bağlı müddətlər, məsuliyyətlər, hər bir tədbirin xərcləri və icrası üçün potensial maneələr kimi detalları ümumiləşdirən plan tərtib edin.

3.3.4. Ədalət, bərabərlik və gender aspektlərinin nəzərə alınması

Şəhərlərdə iqlim dəyişikliyi ilə bağlı tədbirlər həqiqətən inklüziv olmalı, həssas və marginal əhali qruplarının ehtiyaclarına üstünlük verməli və gender əsaslı bərabərsizlikləri açıq şəkildə aradan qaldırmağa yönəlməlidir.

Həssas icmaların qərar qəbuletmə proseslərində fəal təmsil olunmasının və iştirakının təmin edilməsi, iqlim dəyişikliyindən ən çox təsirlənən, yüksək enerji xərclərinin daha ağır yükünü daşıyan və ya keçidin mənfi nəticələrinə daha çox məruz qalanlardan (məsələn, marginal qruplar, aşağı gəlirli ailələr, qadınlar və yaşlı əhali) məlumatlı və məqsədyönlü töhfələr almaq üçün vacibdir. Bundan əlavə, məlumat, təhsil, təlim və maliyyə resurslarına çıxış təmin etməklə marginal və həssas icmaların gücləndirilməsi onların enerji səmərəliliyi

proqramlarında, bərpa olunan enerji təşəbbüslərində və iqlimə davamlılıq layihələrində fəal iştirakına imkan verir. Bu, nəticə etibarilə onların iqlim fəaliyyəti təşəbbüslərinə təkan vermək və onlardan faydalanmaq potensialını artırır.

Keçmişdə iqlim üzrə fəaliyyət planları çox vaxt ekoloji və iqtisadi aspektlərə üstünlük verirdi, nəticədə isə sosial amil nəzərdən qaçırılır və ya kifayət qədər nəzərə alınmırdı, hətta bərabərsizliklər artırdı, məsələn, "yaşıl gentrifikasiyanı" təşviq etməklə (Anguelovski və b. 2022) . "Ədalətsizlik ocaqlarına" çevrilməmək üçün şəhərlər iqlim səyləri ilə onların müxtəlif nəticələri arasındakı əlaqələri etiraf etməli, iqlim fəaliyyətinin gözlənilməz nəticələrini nəzərə almalı və iqlim fəaliyyətlərini planlaşdırarkən ədalətlilik məsələlərinə daha çox diqqət yetirməlidirlər (Della Valle və b. 2023) .

Ədalət və bərabərlik məsələlərini nəzərə almaq üçün şəhərlər bir sıra siyasət alətlərini tətbiq edə bilərlər (Diezmartínez və Short Gianotti 2022):

1. Həssas qruplarla və ya onların maraqlarını müdafiə edəm qruplar ilə birbaşa əlaqə quraraq "ədalət tərəfdaşlığı" vasitəsilə yerli iştirakı artırmaq. Bu yolla şəhərlər tarixən az təmsil olunmuş icmalar arasında iştirakı təşviq edə, yerli biliklərdən və resurslardan istifadə edə və beləliklə, bütün sakinlərin ehtiyaclarına və prioritetlərinə cavab verən iqlim tədbirləri hazırlaya və həyata keçirə bilərlər.
2. Tədbirlərin ədalət məqsədlərinə uyğun olmasını təmin etmək üçün həssas əhali qruplarının təmsil edilməsinə və onlarla əlaqə qurulmasına cavabdeh olan "bərabərlik üzrə məsləhət şuraları" yaratmaq.
3. Bələdiyyə idarəetmə orqanlarına siyasət prosesi boyunca ədalət və bərabərlik aspektlərini nəzərə almaq və tətbiq etmək üçün istiqamət verən "bərabərlik alətləri" hazırlamaq. Yoxlama siyahıları və ya istiqamətləndirici suallar daxil ola biləcək bu alətlər şəhərlərə siyasətlərin yerli həssas əhaliyə potensial faydalarını və gözlənilməz təsirlərini qiymətləndirməyə və hər bir siyasət və proqramın tətbiq olunmazdan əvvəl qiymətləndirilməsini aparmağa imkan verir.
4. İqlim üzrə fəaliyyət planlarının ədalət və bərabərlik baxımından təsirlərini ölçmək və ədalət məqsədlərinə doğru irəliləyişi izləmək üçün "ədalət göstəricilərini" müəyyən etmək.

İqlim fəaliyyətinin planlaşdırılmasında gender boşluqlarını fəal şəkildə aradan qaldıran gender amillərini nəzərə alan yanaşmalara üstünlük verilməsi iqtisadi imkanlar yaratmaqla yanaşı, iqlim strategiyalarını da gücləndirir və bütün əhalinin faydalanmasını təmin edir. İqlim tədbirləri onların hazırlanması və həyata keçirilməsinin hər mərhələsində müxtəlif gender qruplarının şəraiti, vəziyyəti və ehtiyacları arasındakı fərqləri sistematik şəkildə nəzərə almaqla gender məsələlərinə həssas yanaşa bilər. Gender yanaşmasının bütün proseslərə inteqrasiyası kimi tanınan bu prosesə baza məlumatlarının formalaşdırlması, iştirakçılıq əsasında planlaşdırma prosesləri, məqsədlərin, fəaliyyətlərin və göstəricilərin müəyyən edilməsi, monitorinq və qiymətləndirmə daxildir (MMT tərəfdaşlığı 2021).

SECAP-lara gender bərabərliyi və sosial inklüzivlik məsələlərinin inteqrasiyası üzrə əsas addımlara aşağıdakılar daxildir (Qlobal Merlər Razılaşması 2025):

1. Gender bərabərliyi və inklüzivlik üzrə öhdəlik götürmək: gender bərabərliyini və inklüzivliyi təmin etmək üçün şərtləri əvvəldən müəyyənləşdirin (məsələn, gender və inklüzivlik üzrə məsul şəxs təyin edin).
2. Güc və iştirak sahələrindəki boşluqları xəritələndirmək: yerli konteksti öyrənin və alternativ mənbələrdən istifadə etməklə və məlumatların toplanması (məsələn, sorğular və icma tərəfindən toplanan məlumatlar) vasitəsilə ilə gender üzrə məlumat boşluqlarını aradan qaldırın.

3. İnklüziv icma iştirakını təmin etmək: qadınların, qızların və marginal qrupların iştirakına maneələri (məsələn, qayğı məsuliyyətləri, vaxt çatışmazlığı və potensial xərclər) aradan qaldırın və təhlükəsiz və hörmətə əsaslanan mühit yaradın.
4. İnklüziv iqlim fəaliyyət planını hazırlamaq: təklif olunan tədbirləri müvafiq gender icmaları ilə məsləhətləşərək təsdiqləyin, irəliləyişi və nəticələri izləmək üçün Gender Bərabərliyi, Əlillik və Sosial İnklüzivlik (GBƏSİ) əsasında hazırlanmış ölçü meyarları və göstəricilər kimi xüsusi çərçivələrdən istifadə edin.
5. Zamanla baş verən struktur dəyişikliklərini də izləyin: məsələn, qadınlar üçün iş imkanlarına çıxışın artması, bacarıqların inkişafı, qadınların emosional və sosial rifahı.

Fəaliyyət planlarına gender yanaşmasını təmin etmək üçün xüsusi strategiyalara aşağıdakılara nümunə ola bilər: gender bərabərliyini və inklüzivliyi təmin edən iqlim maliyyələşməsinin tətbiqi (məsələn, gender əsaslı büdcə və iştirakçılıq əsaslı büdcə, maliyyə institutlarını qadın təşkilatları ilə əlaqələndirmək, gender əhatəli layihələr); məlumatları real həyat təcrübələri ilə birləşdirərək ideayaları konkret tədbirlərə çevirmək; satın alınan mal və xidmətlər vasitəsilə gender baxımından ədalətli və inklüziv satınalmanın tətbiqi, məsələn, qadınların rəhbərlik etdiyi, azlıqlara məxsus və ya yerli müəssisələr üçün müqavilələrin təşviq edilməsi, eləcə də podratçıların layihələrinə sosial dəyər şərtlərinin və/və ya gender təsirinin qiymətləndirilməsinin daxil edilməsi ilə.

Ümumilikdə, SECAP-lar ədalətli şəhər keçidlərini inkişaf etdirmək və gender bərabərliyini təşviq etmək üçün əsas vasitələrə çevrilmək potensialına malikdir. İnsanlar həyata keçirilən tədbirləri başa düşməsələr və ya onlara birgə sahib çıxmasalar, sosial risklər yarana bilər (G. Ulpiani və Vetters 2023. Buna görə də, planlaşdırma prosesinin əvvəlində sosial ədalət və bərabərsizliklə bağlı narahatlıqların, eləcə də kəsişən marginalizasiya formalarının nəzərə alınması iqlim fəaliyyət planlarının legitimliyini təmin etmək və bununla da sosial riskləri azaltmaq üçün vacibdir. Bərabərlik məsələlərinin SECAP proseslərinə necə daxil ediləcəyinə dair əlavə təlimat Merlərin Razılaşması – Avropa (2023) tərəfindən təmin edilir.

Qutu 7. Moldova Respublikasının bələdiyyələrində qadınların səlahiyyətlərinin artırılması vasitəsilə iqlimə davamlı icmaların formalaşdırılması

Ölkə: Moldova Respublikası | Əhali: 2 409 207 | İl: 2024 – 2028

BMTİP Moldova tərəfindən İsveç və Norveçin maliyyə yardımı ilə həyata keçirilən "Qadınların imkanlarının genişləndirilməsi vasitəsilə davamlı icmaların formalaşdırılması, 2-ci mərhələ" layihəsi çərçivəsində Moldova Respublikasının gender aspektlərinin iqlim siyasətinə inteqrasiyası səylərini gücləndirmək üçün təxminən 10,1 milyon ABŞ dolları məbləğində ümumi büdcə ayrılır.

Bu təşəbbüsün tərkib hissələrindən biri iqlim dəyişikliyinə davamlılığı artıran və iqlim dəyişikliyi təsirlərinin azaldılması və ona uyğunlaşma səylərinə töhfə verən SECAP-ların hazırlanmasında və həyata keçirilməsində seçilmiş 42 yerli icmaya dəstək göstərməkdir. SECAP-lar gender məsələlərinə həssas yanaşma nəzərə alınmaqla hazırlanacaq və yerli maraqlı tərəflərlə məsləhətləşmələr əsasında formalaşdırılacaq. Bu icmalar həmçinin SECAP ilə əlaqəli tədbirlərin həyata keçirilməsi üçün maliyyə yardımı, eləcə də məsləhət və metodiki dəstək alacaqlar.

Eyni zamanda, ev təsərrüfatı çərçivəsində iqtisadi fəaliyyətlə məşğul olan təxminən 160 qadın və qadınların rəhbərlik etdiyi 40 kənd təsərrüfatı müəssisəsi enerji səmərəliliyi imkanlarından və bərpa olunan enerji mənbələrindən istifadə, damcı suvarma və s. kimi ağıllı iqlim həllərini tətbiq etmək üçün maliyyə dəstəyi və məsləhət və metodiki dəstək alacaq. 12 yerli biznes inkubatoru gender və iqlim sahəsindəki potensiallarını gücləndirəcək və kənd qadınlarına uyğunlaşdırılmış xidmətlər göstərmək üçün institusional dəstək alacaq. Bu xidmətlər onların bizneslərinin iqlimə davamlılığının gücləndirilməsinə və iqlim dəyişikliyi təsirlərinin azaldılması planlarının hazırlanmasına yönələcək.

4. Mövcud vəziyyətin qiymətləndirilməsi və məqsədlərin müəyyən edilməsi

4.1. Mövcud yerli vəziyyətin əsaslandırılmış qiymətləndirilməsi

4.1.1. İstixana qazı emissiyalarının kadastrı

SECAP prosesi istixana qazı (İQ) emissiyalarının kadastrının hazırlanmasını əhatə edir. Bu emissiya kadastrı bələdiyyənin ərazisi və fəaliyyəti ilə əlaqəli potensial İQ emissiyalarını kəmiyyətcə ölçür. Müxtəlif daşıyıcılardan enerji istehlakı, bərpa olunan və bərpa olunmayan mənbələrdən enerji istehsalı, eləcə də digər fəaliyyət məlumatları əsasında və müvafiq emissiya amillərini (EA) tətbiq etməklə bələdiyyə əsas şəhər sektorları ilə əlaqəli emissiyaları qiymətləndirə bilər.

İqlim dəyişikliyi təsirlərinin azaldılması tədbirlərini dəstəkləmək, eləcə də bələdiyyənin SECAP-ın hazırlanmasını, icrasının izlənilməsini və təsirlərinin ölçülməsini təmin etmək, zərurət yarandıqda isə, fəaliyyət istiqamətini uyğunlaşdırmaqı və ya tənzimləmək üçün İQ emissiyalarının uçotu çox vacibdir. Xüsusilə, baza emissiya kadastrının (BEK) hazırlanması SECAP-ın əsas hissəsini təşkil edərək əldə olunmuş İQ emissiyalarının azaldılmasının müqayisə ediləcəyi başlanğıc istinad nöqtəsini müəyyən etmək məqsədi daşıyır, ardıcıl monitorinq emissiya kadastrları (MEK) isə icra boyunca irəliləyişin izlənməsi üçün mühüm əhəmiyyət kəsb edir.

İstixana qazı emissiyalarının kadastrı sektorların nisbi töhfələrini müəyyən etməyə və istixana qazlarının azaldılması tədbirlərinin müvafiq şəkildə tərtib edilməsini və prioritetləşdirilməsini dəstəkləməyə imkan verir. Enerji istehlakı və yerli enerji istehsalı ilə bağlı məlumatlar bələdiyyəyə enerji səmərəliliyi və bərpa olunan enerjinin tətbiqi baxımından irəliləyişi izləməyə imkan verir. Bundan əlavə, onlar şəffaf proses və kommunikasiyanın təmin edilməsində mühüm rol oynayır və bununla da yerli iqlim və enerji məqsədlərinə töhfə verə biləcək bütün maraqlı tərəflərin və iştirakçıların prosesə marağını və cəlb olunması potensial olaraq artıra bilər.

Keyfiyyəti, uyğunluğu və müqayisəliliyi təmin etmək üçün MR kadastrlarının əhatə dairəsi, sərhədləri və metodologiyası müəyyən edilmiş standartlara və çərçivələrə əsaslanmalı, eyni zamanda bələdiyyələrin ehtiyaclarına və imkanlarına uyğunlaşdırıla bilən və çevik olmalıdır. Məsələn, bələdiyyələrə İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (İDHP) yanaşmalarına uyğun olan İQ uçotu yanaşmalarından və prinsiplərindən istifadə etmək tövsiyə olunur. Bununla belə, MR çərçivəsi bələdiyyə fəaliyyətlərini xüsusi sektor kimi təqdim edən kadastr strukturunu müəyyən edir. Bu strukturda şəffaflığı və bələdiyyənin nümunəvi rolunu təşviq etmək məqsədilə enerji istifadəsi və emissiyalar üzrə hesabatların ayrıca təqdim edilməsi nəzərdə tutulur.

Ətraflı təlimatlar Aİ MR "İstixana qazı emissiyası kadastrı necə hazırlanır" (How to prepare a greenhouse gas emission inventory) adlı əlavə sənəd 1-də verilmişdir.

4.1.2. Risk və həssaslığın qiymətləndirilməsi

Risk və Həssaslıq Qiymətləndirməsinin (RHQ) hazırlanması bələdiyyələr üçün vacib bir mərhələdir. Bu proses iqlim risklərini və həssaslıqlarını qiymətləndirmək üçün elmi məlumatları yerli biliklərlə birləşdirir. RHQ, iqlim dəyişikliyinin mənfi təsirlərinə qarşı icmaların davamlılığının artırılmasına yönəlmiş müəyyənləşdirmə, təhlil, kommunikasiya və davamlı təkmilləşdirməni əhatə edən strateji yanaşmaya əsaslanır.

İqlimlə əlaqəli təhlükələrin müəyyən edilməsi RHQ-nın ilk əsas addımıdır. Bələdiyyələr iqlim məlumatlarından və xidmətlərindən istifadə edərək bölgələrinin üzləşdiyi konkret iqlim təhlükələrini müəyyən edə bilərlər. Bu mərhələ potensial təhlükələri xəritələndirmək üçün tarixi iqlim modellərinin və gələcək proqnozların diqqətlə təhlilini əhatə edir. İqlim təhlükələri müəyyən edildikdən sonra növbəti mərhələ resursların, infrastrukturun və əhalinin bu təhlükələrə məruz qalmasının xəritələndirilməsidir. Bu mərhələ həmin obyektlərin (sektorlar və əhali qruplarının) müəyyən edilmiş təhlükələrə qarşı həssaslığının qiymətləndirilməsi ilə birləşdirilir. Daha sonra uyğunlaşma potensialının qiymətləndirilməsi aparılır və burada diqqət icmanın iqlim təsirlərinə nə dərəcədə uyğunlaşa biləcəyini qiymətləndirməyə yönəldilir. Buraya iqlim dəyişiklikərinə uyğunlaşmaya kömək edə biləcək resursların, texnologiyanın, biliklərin və infrastrukturun yoxlanılması daxildir.

Risk təhlili və prioritetləşdirmə RHQ-nın növbəti mərhələləridir. Bu, ümumi riskləri müəyyən etmək üçün bütün toplanmış məlumatların sintezini əhatə edir. Burada risklərin kəmiyyət baxımından qiymətləndirilməsi, potensial təsirlərin müəyyən edilməsi və icmanın potensialı və ehtiyaclarına uyğun olan aydın, ölçülə bilən iqlim dəyişikliklərinə uyğunlaşma məqsədlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Qutu 8. Bu bölmə ilə əlaqəli əsas anlayışların tərifi

İqlim Təhlükəsi. Həyat itkisinə, xəsarətə və ya sağlamlığa digər təsirlərə, eləcə də əmlaka, infrastruktura, dolanışıq vasitələrinə, xidmət təminatına, ekosistemlərə və ətraf mühit ehtiyatlarına zərər və itkilərə səbəb ola biləcək təbii və ya insan tərəfindən törədilən fiziki hadisənin, tendensiyanın və ya fiziki təsirin potensial olaraq baş verə bilməsidir. Bu hesabatda "təhlükə" termini adətən iqlimlə əlaqəli fiziki hadisələrə və ya tendensiyalara və ya onların fiziki təsirlərinə aiddir (IPCC 2022).

İqlim Təsirinə Məruz Qalma: Mənfi təsirə məruz qala biləcək yerlərdə və mühitlərdə insanların, dolanışıq vasitələrinin, növlərin və ya ekosistemlərin, ekoloji funksiyaların, xidmətlərin və resursların, infrastrukturun və ya iqtisadi, sosial və ya mədəni resursların mövcudluğu (IPCC 2022).

İqlim Həssaslığı:

Əhali Qrupları üçün: İqlim həssaslığı, əhali qrupunun iqlim təsirlərindən zərərə nə dərəcədə həssas olduğunu ifadə edir. Buna sosial-iqtisadi vəziyyət, sağlamlıq, yaş, yer və resurslara çıxış kimi amillər təsir göstərə bilər. Həssas qruplara yaşlı insanlar, aztəminatlı icmalar və ya əvvəldən mövcud sağlamlıq problemləri olanlar daxil ola bilər.

Sektorlar üçün: Sektorlar üçün iqlim həssaslığı iqtisadi sektorların (məsələn, kənd təsərrüfatı, su ehtiyatları və ya energetika) iqlim dəyişkənliyinə və ekstremal hallara qarşı həssaslığını ifadə edir. Bu, texnologiya, infrastruktur, bazar dinamikası və tənzimləyici çərçivələr kimi sektorun spesifik xüsusiyyətlərindən asılı ola bilər.

Uyğunlaşma qabiliyyəti: Uyğunlaşma qabiliyyəti sistemin, icmanın və ya təşkilatın iqlim dəyişkənliyinə və ekstremal vəziyyətlərə uyğunlaşmaq, potensial zərərləri azaltmaq, imkanlardan yararlanmaq və ya nəticələrin öhdəsindən gəlmək qabiliyyətidir. Buraya resurs mövcudluğu, texnologiya, informasiya və bacarıqlar, infrastruktur, institutlar və bərabərlik kimi elementlər daxildir.

İqlim Təsiri: İqlim təsiri iqlim dəyişkənliyinin və dəyişmələrinin təbii və insan sistemlərinə təsirlərini ifadə edir. Təsirlər müsbət və ya mənfi ola bilər və həm tədricən baş verən dəyişikliklərdən (məsələn, temperaturun yüksəlməsindən), həm də ekstremal hadisələrdən (məsələn, qasırğalardan) yarana bilər. Bu təsirlər çox vaxt həmin sistemlərin fəaliyyətində və onların təmin etdiyi xidmətlərdə dəyişikliklərə səbəb olur.

İqlim Riski: Dəyərlərin müxtəlifliyini nəzərə alaraq, dəyər daşıyan bir şeyin təhlükə altında olduğu və nəticənin qeyri-müəyyən olduğu hallarda potensial nəticələrin yaranma ehtimalıdır. Risk həssaslığın, məruz qalmanın və təhlükənin qarşılıqlı təsiri nəticəsində yaranır (IPCC 2022).

Bələdiyyənin müxtəlif iqlim dəyişikliyi təhlükələrinə qarşı həssaslığını sistematik şəkildə qiymətləndirmək üçün RHQ -də vaxt çərçivələrinin, iqlim dəyişikliyi ssenarilərinin, iqlim üzrə məlumat mənbələrinin və yerli məlumatların inteqrasiya dərəcəsinin seçilməsini əhatə edən əsaslandırılmış texniki seçimlərin edilməsi nəzərdə tutulur. Bu, vahid qiymətləndirmə və ya

hər təhlükə yaxud həssas sektor üçün ayrıca aparılan müxtəlif qiymətləndirmələr şəklində ola bilər.

İqlim riski yalnız iqlimlə əlaqəli təhlükələrdən deyil, həm də bölgənin/icmanın müvafiq təhlükəyə məruz qalmasından və həssaslığından asılı olduğuna görə, son mərhələdə riskin aşağıdakı düstura əsasən qiymətləndirilməsi üçün təhlükə, məruz qalma və həssaslıq haqqında məlumatlar birləşdirilir:

Risk = Təhlükə × Məruz qalma × Həssaslıq

Keçmiş iqlim təhlükələri və təsirləri haqqında məlumat və təhlillər bələdiyyələrin kontekstini və faktiki vəziyyətini anlamaq, iqlimlə bələdiyyənin ətraf mühit və sosial-iqtisadi elementləri arasındakı əlaqələr barədə məlumat əldə etmək üçün vacibdir. RHQ-lar həmçinin bələdiyyələrin üzləşə biləcəyi tendensiyaları və potensial təhlükələri əvvəlcədən müəyyən etmək və proqnozlaşdırmaq üçün gələcək perspektivləri nəzərə alır və iqlim modellərindən, ssenarilərindən və proqnozlarından istifadəni tələb edir. Bu, həmçinin icmaların faktiki və gələcək ehtiyaclarına cavab verən uyğunlaşma (adaptasiya) tədbirlərinin planlaşdırılmasına imkan verəcəkdir.

Ətraflı təlimatlar MR Aİ " Risk və Həssaslıq Qiymətləndirməsi (RHQ) necə hazırlanır " ("How to prepare a Risk and Vulnerability Assessment (RVA)" adlı əlavə sənədi 2-də verilmişdir.

4.1.3. Enerjiyə Çıxış və Enerji Yoxsulluğunun Qiymətləndirilməsi

Enerjiyə çıxış və enerji yoxsulluğu bələdiyyələrin dayanıqlı inkişafı, davamlılığı və rifahı baxımından vacib elementlərdir. Enerjiyə çıxış və enerji yoxsulluğu (EÇY) Qlobal İqlim və Enerji üzrə Merlərin Razılaşmasının (GCoM) üçüncü sütununu təşkil edir. Qlobal səviyyədə sütun üç enerji atributundan istifadə etməklə strukturlaşdırılıb:[12]

- Təhlükəsiz enerji: enerji əlçatan və/və ya etibarlıdır, iqtisadi, sosial və mədəni fəaliyyətlərdə iştirak imkanı təmin edir.
- Dayanıqlı enerji: enerji bərpa olunan və çirkləndirici olmayan mənbələrdən istehsal olunur və sağlamlıq, sosial və gender baxımından mənfi nəticələrə yol verilmir.
- İqtisadi baxımdan əlçatan enerji: enerji iqtisadi baxımdan əlçatandır və/və ya binaların enerji effektivliyinin təmin edilməsi ilə xərclərin səmərəliliyi maksimuma çatdırılır və bununla da iqtisadi, sosial və mədəni imkanlar üçün enerji resurslarından istifadə etmək mümkün olur.

Qiymətləndirmə mərhələsinin məqsədi effektiv fəaliyyət planlaşdırmasını təmin etmək üçün yerli kontekstdə enerjiyə çıxış və enerji yoxsulluğu, o cümlədən onun miqyası, əsas səbəbləri və onlara təsir edən amillər barədə hərtərəfli məlumat verməkdir. Məsələnin iqlim şəraitindən sosial-iqtisadi vəziyyətlərə və siyasi yanaşmaların mövcudluğuna qədər çoxölçülü aspektlərini nəzərə alaraq, enerjiyə çıxış və enerji yoxsulluğu atributları qiymətləndirmənin strukturlaşdırılmış şəkildə aparılması üçün çərçivə təmin edir (Şəkil 6). Yerli səviyyədə enerjiyə çıxışı və enerji yoxsulluğunu qiymətləndirmək üçün bələdiyyələrə hər bir atribut üzrə bir sıra göstəricilər təqdim olunur.[13]


Hər bir GCoM regionu yerli xüsusiyyətlərinə və enerji ehtiyaclarına əsasən ən uyğun enerji atributunu seçə və enerji qiymətləndirməsini buna uyğunlaşdıra bilər. Strukturlaşdırılmış

12 QMR Ümumi Hesabat Çərçivəsində (GCoM Common Reporting Framework (CRF) təsvir edildiyi kimi

13 Qlobal Merlər Razılaşması, Enerjiyə Çıxış və Enerji Yoxsulluğu Sütunu (EAPP) Əlavəsi, Ümumi Hesabat Çərçivəsi (Global Covenant of Mayors, Energy Access and Poverty Pillar (EAPP) Annex, Common Reporting Framework)

məsləhətləşmə prosesindən sonra Şərqi Avropa qonşuluğu ölkələri və Mərkəzi Asiya enerjinin iqtisadi əlçatanlığı atributunu seçdilər.[14]

Şəkil 6. Enerjiyə çıxış və enerji yoxsulluğu sütununun atributları və MR Şərq üçün seçilmiş atribut üzrə müvafiq göstəricilər



Mənbə: BTM

Yerli şəraitin xəritələndirilməsinin ilkin mərhələsindən sonra bələdiyyələr qiymətləndirmə prosesi üçün aşağıdakı əsas addımları atmalıdırlar:

1. Məlumatların toplanması və emalı: bələdiyyələr əvvəlcə müxtəlif departamentlər (məsələn, mənzil və ya sosial xidmətlər) üzrə mövcud olan məlumatların inventarlaşdırılmasını aparmalı və onları uyğun göstəricilər üçün tələb olunan məlumatlarla müqayisə etməlidirlər. Bu kifayət deyilsə, onlar kənar təşkilatlarla (məsələn, enerji təchizatçıları və ya universitetlərlə) əməkdaşlıq edərək məlumat toplaya və ya birbaşa sorğular və müsahibələr vasitəsilə ilkin məlumatları əldə edə bilərlər. Məlumatların yerli şəraitə uyğunluğunu və etibarlılığını təmin etmək vacibdir, bunun üçün çox vaxt milli məlumatların bələdiyyə səviyyəsinə uyğunlaşdırılması və ya normallaşdırılması tələb olunur.
2. Seçilmiş göstəricilər üzrə hesabatlar: imzaçılar enerjiyə çıxışı və enerji yoxsulluğunu ölçmək və monitorinq etmək üçün göstəricilərdən istifadə edirlər.

Bələdiyyələrə enerjiyə çıxışın və enerji yoxsulluğunun çoxşaxəli problemini daha ətraflı və dolğun şəkildə anlamaq üçün mümkün qədər çox göstəricidən istifadə etmək tövsiyə olunur. Lakin, bu təlimatın praktiki tətbiqi baxımından ən azı bir göstəricidən istifadə etməyi tövsiyə edirik:

– Şəhər sərhədi daxilində enerji yoxsulluğu ilə üzləşən ev təsərrüfatlarının və ya əhalinin faizi

Bu göstərici gəlirlərinin müəyyən edilmiş faizədək hissəsini enerji xidmətlərinə sərf edən şəxslərin və ya ev təsərrüfatlarının faizini ölçür və əhali arasında enerjinin iqtisadi əlçatanlığı barədə təsəvvür formalaşdırmağa imkan verir. Hədd kimi istifadə edilən konkret faiz dəyişə bilər və mövcud bələdiyyə şəraitinə uyğun olaraq bələdiyyələr tərəfindən müəyyən edilməlidir. Bu göstərici, ev təsərrüfatlarının enerji xərclərinin maliyyə yükünü müəyyən etməyə, enerji yoxsulluğu riskini qiymətləndirməyə və həssas qruplar üçün enerjiyə çıxışı və iqtisadi əlçatanlığı yaxşılaşdırmağa yönəlmiş məqsədyönlü tədbirləri əsaslandırmağa kömək edir.

Ev təsərrüfatı üzvlərinin iqtisadi aspektləri və/və ya sosial xüsusiyyətləri enerji yoxsulluğuna təsir göstərə bilər. Buna görə də, həssaslığın konkret müəyyənedici amillərini və onların

[14] Bu bələdçi Şərq Tərəfdaşlığı kontekstinə uyğunlaşdırıldığı üçün burada təqdim olunan təlimat MR Şərq regionunun seçdiyi atributa yönəlmişdir. Digər iki atribut - dayanıqlılıq və təhlükəsizlik - və ya digər MR regional kontekstlərində eyni atribut üçün enerjiyə çıxışın və enerji yoxsulluğunun qiymətləndirməsinin necə hazırlanması barədə məlumatlar bu sənəddə əhatə olunmur.

azaldılması istiqamətində necə tədbir görülməli olduğunu müəyyən etmək üçün sosial-iqtisadi amillərin öyrənilməsi mühüm əhəmiyyət daşıyır. Həmçinin nəzərə almaq lazımdır ki, enerji yoxsulluğu vəziyyəti çox vaxt sosial və/və ya iqtisadi həssaslığın digər formaları ilə əlaqəli olur.

Lakin enerji yoxsulluğunun yaranması və qiymətləndirilməsinə yalnız sosial/iqtisadi baxımdan yanaşmaq olmaz. Məsələn, evlərin fiziki/texniki vəziyyəti və ətraf mühit keyfiyyətli enerji xidmətlərinə çıxışa təsir göstərə bilər. Eynilə, nəqliyyat ehtiyacları və təcrübələri enerji yoxsulluğu vəziyyətini daha da ağırlaşdıra bilər. Çoxsaylı perspektivləri və xüsusiyyətləri əhatə edən müxtəlif göstəricilərdən istifadə və onların birləşdirilməsi enerji yoxsulluğunun hərtərəfli qiymətləndirilməsinə dəstək ola bilər.

EPAH (Energy Poverty Advisory Hub 2023,(Enerji Yoxsulluğu Məsləhət Mərkəzi 2023) təlimatında təqdim olunan yanaşmaya əsasən, bələdiyyədə enerji yoxsulluğunun "səbəblərini və nəticələrini" (sosial qruplar və coğrafi yayılma baxımından) müəyyən etməyə çalışmaq üçün bir sıra istiqamətləndirici suallardan istifadə etmək tövsiyə olunur. Məsələn:

- "Enerji səmərəliyinin və cihazların keyfiyyətinin aşağı olmasının təsiri nədir?"
- "İnsanlar mümkün yaxşı təcrübələrdən xəbərdardırmı?"
- "Bu məhəllədə yaşayan insanlar kimlərdir?" (işsizlikdən əziyyət çəkən insanlar, xüsusi sağlamlıq problemləri olan insanlar və s.)

Məsələn, həssas qrupların müəyyən edilməsi bələdiyyənin konkret vəziyyətinin əks etdirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərə və enerji yoxsulluğu ilə bağlı siyasətlərin hazırlanması üçün vacib istiqamət verə bilər.

Qiymətləndirmənin sonunda imzaçı, yerli şəraitdə enerjiyə çıxış və enerji yoxsulluğu barədə dolğun təsəvvürə, o cümlədən bir çox atribut üzrə seçilmiş göstəricilərdən əldə edilən məlumatlara sahib olmalıdır. Bu məlumatlar onlara əsaslandırılmış məqsədlər qoymağa, tədbirləri prioritetləşdirməyə və məqsədyönlü siyasət və tədbirlər hazırlamağa imkan verir.

Ətraflı təlimatlar MR Aİ "Enerji yoxsulluğunun qiymətləndirilməsi necə hazırlanır" adlı əlavə sənəd 3-də verilmişdir (How to develop an energy poverty assessment)*.

* Qeyd edək ki, əlavə sənəd 3-də enerji yoxsulluğunun qiymətləndirilməsi Aİ çərçivəsinə əsaslanır, bununla belə, bu sənəd, tədbirlərin hazırlanması, göstəricilər və praktik nümunələr kimi məsələlərdə MR Şərq bələdiyyələri üçün faydalı mənbə ola bilər.

4.2. Ümumi vizyonun və iddialı hədəflərin müəyyən edilməsi

4.2.1. Regionda iqlim siyasətinə ümumi baxış

İqlim məqsədlərini müəyyən edərkən bələdiyyələrin öz ərazilərində enerji və iqlim məsələlərinə təsir edən mövcud bələdiyyə, regional, milli və beynəlxalq siyasət və qaydaları barədə aydın təsəvvürü olmalıdır. Bu bölmədə MR Şərq bələdiyyələri üçün əhəmiyyət kəsb edə biləcək iqlim siyasəti kontekstinə ümumi baxış təqdim olunur.

Şərq Tərəfdaşlığı çərçivəsində Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna postsovet iqtisadi irsi, regional həssaslıqlar və Aİ-nin dayanıqlılıq məqsədləri ilə uyğunlaşma şəraitində formalaşan mürəkkəb, lakin inkişaf etməkdə olan iqlim siyasəti mənzərəsini bölüşürlər. Keçid iqtisadiyyatları olaraq, onlar enerji təhlükəsizliyi, mədən yanacaqlarından və ya sudan (məsələn, hidroenerjidən) asılı enerji mənbələrindən asılılıq, eləcə də quraqlıq, daşqınlar və buzlaqların geri çəkilməsi kimi iqlim təsirlərinə uyğunlaşmaq üçün təcili ehtiyac kimi ümumi problemlərlə mübarizə aparırlar. Bu ölkələr həmçinin enerji mənbələrini

şaxələndirmək və dəyişkən təchizatçılardan asılılığı azaltmaq kimi strateji prioriteti bölüşürlər və bu prioritet son regional geosiyasi proseslərlə daha da güclənir. Bu çətinliklərə baxmayaraq, onların iqlim siyasəti getdikcə Paris Sazişi və Aİ-nin Şərq Tərəfdaşlığı üçün Yaşıl Gündəliyi kimi beynəlxalq öhdəliklərdən irəli gələn dekarbonizasiya, enerji effektivliyi və regional əməkdaşlığa doğru istiqaməti əks etdirir.

İqlimə davamlılıq və dayanıqlı enerji sahəsindəki boşluqları aradan qaldırmaq üçün Aİ-nin maliyyələşdirilməsi və texniki dəstəyi, bərpa olunan enerjinin tətbiqinə, karbon neytrallığı hədəflərinə və transsərhəd ətraf mühit əməkdaşlığına üstünlük verən EU4Climate təşəbbüsü və Yaşıl Gündəlik kimi proqramlar vasitəsilə təmin edilir. Qərbi Balkan ölkələri ilə yanaşı, Ukrayna, Moldova və Gürcüstan da Enerji Birliyi[15] vasitəsilə dəstəklənir. Enerji Birliyi enerji və iqlim hədəfləri üzrə planlaşdırma, hesabatlılıq və monitorinq üçün, o cümlədən Milli Enerji və İqlim Planları (MEİP) vasitəsilə, ümumi qaydalar müəyyən edir və Aİ qanunvericiliyinə uyğunlaşmanı nəzərdə tutur.

Beynəlxalq səviyyədə onların hamısı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC), Kioto Protokolu və Paris Sazişi də daxil olmaqla əsas beynəlxalq iqlim sazişlərinin bir hissəsidir və hamısı bu sazişlərə əsasən öz MMT-lərini təqdim ediblər. Onlar həmçinin icranın maliyyələşdirilməsi və texniki yardımdan yararlanmaq üçün çoxtərəfli fondlar (GCF, GEF), çoxtərəfli inkişaf bankları (ÇİB-lər) və donorlarla əməkdaşlıq edirlər.

Beynəlxalq öhdəlikləri dəstəkləyən siyasətlər, eləcə də milli səviyyədə iqlim siyasəti çərçivəsi aşağıda təqdim olunur.

Ermənistan

Ermənistanın 2026-2035-ci illər üçün MMT 3.0 sənədində[16] 2035-ci il üçün iqtisadiyyat üzrə istixana qazı emissiyalarını qeyd-şərtsiz 1990-cı il səviyyəsi ilə müqayisədə 44% və beynəlxalq dəstək şərti ilə 52% azaltmaq hədəfi müəyyən edilib. Sənəddə adaptasiya prioritetləri müəyyən edilib və 41 adaptasiya tədbiri əhəmiyyətli beynəlxalq yardım tələb edir, 22 qeyd-şərtsiz mitiqasiya tədbiri isə daxili resurslar və siyasət islahatları hesabına maliyyələşdiriləcək.

Milli Adaptasiya Planı (MAP)[17] yeddi əsas sektor üzrə prioritetləri müəyyən edir: meşə ekosistemləri, insan sağlamlığı, su ehtiyatları, kənd təsərrüfatı, energetika, yaşayış yerləri və infrastruktur, habelə turizm. Buraya həmçinin ölkənin on inzibati rayonunun hamısı üçün adaptasiya strategiyaları, hər bir sahəyə uyğun sektoral adaptasiya planlarının (SAP) hazırlanması planları daxildir. Planın həyata keçirilməsi daxili dövlət maliyyəşməsinin, donor qrantlarının və çoxtərəfli inkişaf banklarının (ÇİB) güzəştli maliyyələşdirməsinin, eləcə də prioritet layihələr üçün GCF/GEF-dən məqsədyönlü maliyyələşdirmənin birgə istifadəsinə əsaslanır.

Uzunmüddətli Aşağı İstixana Qazı Emissiyaları ilə İnkişaf Strategiyası (LT-LEDS),[18] uzunmüddətli perspektivdə enerji müstəqilliyi və iqlim neytrallığına xüsusi diqqət yetirərək, ölkənin 2050-ci ilə qədər olan vizyonunu müəyyən edir. Strategiyanın məqsədi iqlim üzrə öhdəliklərin yerinə yetirilməsi üçün uzunmüddətli gündəliyi təmin etmək, yerli və beynəlxalq investorlar üçün erkən və proqnozlaşdırıla bilən siqnallar yaratmaq, inkişaf məqsədlərini iqlim tədbirləri ilə uzlaşdırmaq, habelə iqtisadiyyatın bütün sahələri üzrə iqlim təsirlərinin azaldılması imkanlarını sistemli şəkildə nəzərə almaqdır.

15 Enerji Birliyinin ana səhifəsinə https://www.energy-community.org/ ünvanında baxın.

16 Ermənistanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfəsi (NDC 3.0)

17 Ermənistanın Milli Adaptasiya Planı (UNFCCC)

18 Gürcüstanın Uzunmüddətli Aşağı İstixana Qazı Emissiyaları ilə İnkişaf Strategiyası

Milli Assambleya tərəfindən 2026-cı ildə qəbul edilmiş yeni İqlim haqqında Qanun Ermənistanın beynəlxalq iqlim öhdəliklərini yerinə yetirməsi üçün hüquqi əsas yaradır. Xüsusilə, sənəd 2030-2035-ci illərə qədər emissiyaların 40-44% azaldılmasını dəstəkləmək üçün Ölçmə, Hesabatlılıq və Verifikasiya (Measurement, Reporting, Verification (MRV) sisteminin yaradılmasını və (Paris Sazişinin 6-cı maddəsinə əsasən) bazar əsaslı mexanizmlərin tətbiq edilməsini nəzərdə tutur. İqlim dəyişmələrinin təsirlərinin azaldılması baxımından Qanun enerji effektivliyini, bərpa olunan enerjini və emissiyaların azaldılması üçün infrastrukturun modernləşdirilməsini təşviq edir. Eyni zamanda, o, kənd təsərrüfatı və su ehtiyatlarının idarə edilməsi kimi sektorlardakı həssaslıqları nəzərə alır və iqlim dəyişikliyinə davamlılığın təmin edilməsi üçün institusional potensialın gücləndirilməsinə diqqət yetirir.

Ermənistanın 2026-2030-cu illər üçün Milli Enerji Effektivliyi Fəaliyyət Planının (NEEAP) hazırlanmasına başlanılıb. İlk üç NEEAP-ın təməlinə əsaslanaraq, dördüncü fəaliyyət planında əsas diqqətin son enerji istehlakını və istixana qazı emissiyalarını azaltmağa yönəldiləcəyi gözlənilir. Əsas sahələrə səmərəliliyin artırılması tədbirləri və gücləndirilmiş tənzimləmələrin tətbiq olunduğu ictimai binalar, yaşayış sektoru və nəqliyyat, habelə bərpa olunan enerji mənbələrinə keçidə yönəlmiş daha geniş təşəbbüslər daxildir. Bundan əlavə, sənəddə gender amilini nəzərə alan və sosial cəhətdən əhatəli tədbirlərin inteqrasiyasına daha çox diqqət yetiriləcək. 2026-2030-cu illər üçün fəaliyyət planının həyata keçirilməsi çərçivəsində ümumi enerji tələbatının azaldılması, enerji təhlükəsizliyinin gücləndirilməsi və əsas iqtisadi məhsulların enerji intensivliyinin aşağı salınması, eyni zamanda enerji səmərəliliyi həllərinin təşviqi yolu ilə enerjinin iqtisadi əlçatanlığı ilə bağlı artan narahatlıqların aradan qaldırılması nəzərdə tutulur.

Azərbaycan

Milli səviyyədə Müəyyən edilmiş Töhfələrə, MMT 3.0 (2025)[19] əsasən, Azərbaycan 1990-cı baza ili ilə müqayisədə 2035-ci ilə qədər istilik effekti yaradan qazların emissiyalarını 40% azaltmaq kimi uzunmüddətli məqsəd qoymuşdur. Bu hədəf, ölkənin aşağı karbonlu inkişaf trayektoriyasına keçidini təmin etmək üçün vacib hesab edilən iqlim maliyyəşməsi, texnologiyanın ötürülməsi və potensialın artırılması daxil olmaqla beynəlxalq dəstəyə çıxışdan asılıdır. MMT 3.0, yeddi əsas sektorda – energetika, neft və qaz, binalar, sənaye, nəqliyyat, kənd təsərrüfatı, meşəçilik və digər torpaqdan istifadə, eləcə də tullantıların idarə olunması sahələrində- çətinlikləri və imkanları nəzərə alan hərtərəfli sektoral strategiyaları təqdim edir.

Azərbaycanın 2024-cü ildə təqdim edilmiş ilkin Milli Adaptasiya Planı (MAP)[20] uzunmüddətli iqlim dəyişmələrinə uyğunlaşma yanaşmasını, eləcə də qısa (2025-2026) və ortamüddətli (2027-2030) dövrlər üçün prioritet tədbirləri müəyyən edir. Orada su ehtiyatları, kənd təsərrüfatı, səhiyyə, iqlim təhlükələri/fəlakətləri və sahil/dağ ekosistemləri ən həssas ərazilər kimi müəyyən edilir. Həssaslıqları azaltmaq üçün ilkin MAP hazırda iqlim dəyişikliyinə davamlılıq məsələsini əhatə edən mövcud qanunvericiliyi (su məcəlləsini, tikinti məcəlləsini, meşə və torpaq məcəllələrini) nəzərdən keçirir və adaptasiya tədbirlərinin planlaşdırılması, əlaqələndirilməsi və həyata keçirilməsinə məlumat və təhlil vasitəsilə dəstək verməyi nəzərdə tutur. İlkin MAP-ın 2025–2026-cı illər ərzində zəruri hüquqi və institusional çərçivənin yaradılması, eləcə də adaptasiya tədbirlərinin sektoral inkişaf strategiyalarına və planlarına inteqrasiyası üçün potensialın artırılması yolu ilə tammiqyaslı MAP-a keçidi gözlənilir.

19 Azərbaycanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfəsi (NDC 3.0)

20 Azərbaycanın ilkin Milli Adaptasiya Planı (UNFCCC)

Milli səviyyədə, 2021-ci ildə Prezidentin "Azərbaycan 2030: Sosial-iqtisadi İnkişaf üzrə Milli Prioritetlər" sərəncamı ilə ölkənin növbəti onillik üçün sosial-iqtisadi prioritetləri, o cümlədən ətraf mühitin inkişafı məqsədləri müəyyən edilmişdir. Xüsusilə, beş prioritetdən biri iki əsas məqsəd vasitəsilə təmiz ətraf mühiti və yaşıl inkişafı təşviq etməyə yönəlir: i) ətraf mühit ehtiyatlarına təzyiqin azaldılması və yaşıllıqların payının artırılması da daxil olmaqla yüksək keyfiyyətli ekoloji mühit, ii) enerjidən səmərəli istifadə etməklə və ilkin istehlakda alternativ və bərpa olunan enerji mənbələrinin payını artırmaqla yaşıl enerji məkanı.

Gürcüstan

Gürcüstanın 2026-cı ildə qəbul edilmiş MMT 3.0 sənədi[21], 2030-cu ilədək ümumi xalis istixana qazı emissiyalarını 1990-cı il səviyyəsindən 47%, 2035-ci ilə qədər isə 50% azaltmağı hədəfləyir. Layihə, bərpa olunan enerjinin payını artırmağı və xalis sıfır enerji sistemlərinə doğru irəliləməyi, elektrik mobilliyi və təkmilləşdirilmiş ictimai nəqliyyat da daxil olmaqla daha təmiz nəqliyyatı inkişaf etdirməyi, yeni binalar üçün məcburi enerji effektivliyi standartlarını tətbiq etməyi və tullantıların idarə olunması islahatlarını genişləndirməyi, həmçinin ədalətli keçid yanaşmasını təşviq etməyi nəzərdə tutur.

Ölkənin Milli səviyyədə Müəyyən edilmiş Töhfələri (MMT) 2023-cü ildə təsdiq edilmiş və əsrin ortalarına qədər əldə ediləcək iqlim neytrallığı hədəfini müəyyən edən Uzunmüddətli Aşağı Emissiyalı İnkişaf Strategiyasına (Long-Term Low Emission Development Strategy (LT LEDS)[22] əsaslanır.

Milli səviyyədə İqlim Dəyişikliyi Strategiyası və Fəaliyyət Planı (Climate change Strategy and Action Plan (CSAP)[23] milli iqlim məqsədlərinə nail olmaq və beynəlxalq öhdəliklərin həyata keçirilməsini dəstəkləmək üçün hazırlanmış xüsusi sektoral emissiyaların azaldılması (mitiqasiya) hədəflərini və tədbirlərini müəyyən edir. Bundan əlavə, CSAP hədəf göstəriciləri Milli Enerji və İqlim Planında (National Energy and Climate Plan (NECP) müəyyən edilmiş meyarlarla uyğunlaşdırılır[24]. NECP 2021-2030-cu illər üçün iqlim dəyişikliyinin təsirlərinin azaldılması, onlara uyğunlaşma və dayanıqlı enerji inkişafına kompleks yanaşmanı müəyyən edir. Mövcud milli strategiya və planlara, xüsusən də Enerji və Su Təchizatı haqqında Qanuna (Maddə 7) əsaslanaraq, NECP Enerji Birliyinin beş əsas ölçüsünün hər biri üçün milli hədəfləri və müvafiq siyasətləri və tədbirləri əhatə edir[25]: 1) Dekarbonizasiya ; 2) Enerji effektivliyi; 3) Enerji təhlükəsizliyi ; 4) Daxili enerji bazarı ; 5) Tədqiqat, innovasiya və rəqabət qabiliyyəti. Xüsusi diqqət 2030-cu ilədək əldə ediləcək hədəflərə, o cümlədən istixana qazı emissiyalarının azaldılması, bərpa olunan mənbələrdən enerjinin artırılması, enerji effektivliyinin təşviqi və həm ölkə daxilində, həm də qonşu ölkələrlə enerji sistemlərinin qarşılıqlı əlaqəsinin gücləndirilməsinə yönəldilmişdir.

Moldova

Moldova Respublikasının beynəlxalq iqlim öhdəlikləri ölkənin inkişaf edən iqlim siyasətinin və getdikcə daha iddialı olan Milli səviyyədə Müəyyən edilmiş Töhfəsinin (MMT) əsasını təşkil edir. MMT 3.0-də[26] əsas mitiqasiya hədəfləri aşağıdakılardır:

21 Gürcüstanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfəsi (NDC3.0)

22 Gürcüstanın Uzunmüddətli Aşağı Emissiyalı İnkişaf Strategiyası

23 Gürcüstanın İqlim Dəyişikliyi Strategiyası və Fəaliyyət Planı

24 Gürcüstanın Milli Enerji və İqlim Planı

25 Enerji birliyi veb səhifəsi - Avropa Komissiyası, https://energy.ec.europa.eu/strategy/energy-union_en ünvanında mövcuddur

26 Moldovanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfəsi (BMTİÇK)

- 2030-cu ilə qədər İQ emissiyalarının 1990-cı il səviyyəsi ilə müqayisədə 71% azaldılması (mütləq, iqtisadiyyat miqyaslı hədəf);
- 2035-ci ilə qədər İQ emissiyalarının 1990-cı il səviyyəsi ilə müqayisədə 75% azaldılması (uzunmüddətli iqtisadiyyat miqyaslı hədəf).

Milli səviyyədə, "İqlim Tədbirləri haqqında" 74/2024 saylı qanun Moldova Respublikasının 2050-ci ilə qədər xalis sıfır emissiyaya nail olması üçün hüquqi çərçivəni və iqlim dəyişikliyinin təsirlərinin azaldılması və onlara uyğunlaşma üzrə qlobal məqsədlərə doğru irəliləmək üçün tənzimləyici çərçivəni müəyyən edir.[27] Qanun, istixana qazı emissiyalarının azaldılması, iqlimə uyğunlaşma və təbii fəlakət risklərinin idarə edilməsi üzrə iqlim dəyişikliyi siyasətlərini və dövlət kapital qoyuluşlarını təsdiqləmək və əlaqələndirmək səlahiyyətinə malik qurumlararası orqan olan İqlim Dəyişikliyi üzrə Milli Komissiyanı təsis edir. Qanun həmçinin CO_2 emissiyalarının qiymətlərinin müəyyən edilməsi üçün maliyyə mexanizmlərini və nəqliyyat sektorunda yanacaq istehlakının və CO_2 emissiyalarının azaldılması üzrə tədbirləri, eləcə də aviasiya, dəniz nəqliyyatı və sənaye obyektlərindən emissiyaların monitorinqi, hesabatı və verifikasiyası sistemlərini təqdim edir. Yerli şəraitə tətbiq olunan müddəalar və dəstək mexanizmləri də daxil edilmişdir. Xüsusilə, 35-ci maddə bələdiyyələrdən 1 yanvar 2026-cı il tarixinədək iqlim dəyişikliyinin təsirlərinin azaldılması və onlara uyğunlaşma tədbirlərini özündə əks etdirən Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planlarını (SECAP-ları) hazırlamağı və təsdiq etməyi tələb edir.

2025-ci ilin fevral ayında Moldova hökuməti milli dekarbonizasiya səylərinin gücləndirilməsi üzrə əsas yol xəritəsi olan 2025-2030-cu illər üçün Milli Enerji və İqlim Planını (National Energy and Climate Plan (NECP)[28] təsdiqlədi. Plan, BMTİP tərəfindən həyata keçirilən «Moldova Respublikasında enerji böhranının təsirlərinin aradan qaldırılması» proqramı vasitəsilə təmin edilən Avropa İttifaqının texniki və maliyyə yardımı ilə Energetika Nazirliyi tərəfindən hazırlanmışdır. NECP çərçivəsində Moldova Respublikası 2030-cu ilə qədər son enerji istehlakında 30% bərpa olunan enerjiyə nail olmaq, enerji səmərəliliyini artırmaq və 2030-cu ildə son enerji istehlakının 2800 ktoe-dən çox olmaması və ilkin enerji istehlakının 3000 ktoe-dən çox olmaması öhdəliyini götürür. Enerji səmərəliliyi baxımından, NECP Yaşayış Binalarının Enerji Effektivliyi Fondunun maliyyə dəstəyi ilə yaşayış binalarının renovasiyasını, eləcə də enerji effektivliyi tədbirlərinin və yeni səmərəli texnologiyaların tətbiqi, ağıllı sayğacların quraşdırılması və təmiz və enerjiyə qənaət edən nəqliyyatın təşviqi nəticəsində orta illik enerji istehlakının 0,8%-i qədər enerji qənaətini nəzərdə tutur. Eyni zamanda, NECP enerji təhlükəsizliyinin təmin edilməsinə dair tədbirləri, o cümlədən enerji idxalı marşrutlarının şaxələndirilməsini, milli energetika sisteminin qarşılıqlı əlaqəliliyinin gücləndirilməsini və 2050-ci ilədək yeni enerji strategiyasının hazırlanmasını nəzərdə tutur.

2030-cu il üçün Milli İqlim Dəyişikliyinə Uyğunlaşma Proqramı (National Climate Change Adaptation Programme (NCCAP) və müvafiq Fəaliyyət Planı[29] iqtisadiyyatın bütün sektorlarında iqlim dəyişikliyinə qarşı həssaslığı azaltmaq və dayanıqlığı artırmaq məqsədini müəyyən edir. Uzunmüddətli vizyonun əsas istiqaməti əhalinin rifahını və ətraf mühitin dayanıqlığını təmin etmək üçün davamlı infrastrukturun yaradılması və milli potensialın gücləndirilməsidir. Altı sektor (yəni, kənd təsərrüfatı, su ehtiyatları, meşə təsərrüfatı, səhiyyə, energetika, nəqliyyat) iqlim təhlükələrinə ən həssas sektorlar kimi müəyyən edilmiş və beş konkret məqsəd müəyyənləşdirilmişdir: potensialın gücləndirilməsi; bilik və maarifləndirmənin artırılması; iqlim dəyişikliyinin planlaşdırma və büdcələşdirmə proseslərinə

27 EC-OECD STIP Compass, Moldovanın İqlim Tədbirləri haqqında 11 aprel 2024-cü il tarixli 74 nömrəli Qanunu, https://stip.oecd.org/stip/interactive-dashboards/policy-initiatives/2025%2Fdata%2FpolicyInitiatives%2F200002324 ünvanında mövcuddur.

28 Moldovanın Milli Enerji və İqlim Planı

29 Moldova Milli CCA Proqramı 2030

daxil edilməsi; uyğunlaşma və fəlakət risklərinin azaldılmasının (FRA) sektoral və yerli planlaşdırmaya inteqrasiyası; altı prioritet sektorun dayanıqlığını artırmaq üçün konkret fəaliyyətlərin maliyyələşdirilməsi.

Ukrayna

Ukraynanın iqlim siyasəti onun əsas beynəlxalq müqavilələrdə iştirakına əsaslanır. "BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (1996) Təsdiqlənməsi haqqında" Qanun Ukraynanın istixana qazları emissiyalarına dair hesabat və monitorinq öhdəliklərini müəyyən etmişdir, "Paris Sazişinin Təsdiqlənməsi haqqında" Qanun (2016) isə ölkənin uzunmüddətli dekarbonizasiya və iqlim dəyişikliyinə davamlılıq məqsədlərinə nail olmaq öhdəliyini müəyyən etmişdir. Yenilənmiş MMT[30] çərçivəsində Ukrayna 2035-ci ildə 1990-cı il səviyyələri ilə müqayisədə istixana qazı emissiyalarını 65%-dən çox azaltmağı öhdəsinə götürür.

Milli ekoloji idarəetmə "Dövlət Ətraf Mühit Siyasətinin Əsas Prinsipləri haqqında" Qanunla tənzimlənir. Bu Qanun ətraf mühitin mühafizəsi, o cümlədən iqlim dəyişmələrinin təsirlərinin azaldılması və ona uyğunlaşma üzrə strateji prioritetləri müəyyən edir.

Energetika sektorunda keçid CO_2 emissiyalarına ekoloji vergi və bərpa olunan enerji və enerji effektivliyini təşviq edən milli proqramlar kimi alətləri özündə birləşdirən Milli Enerji və İqlim Planı (National Energy and Climate Plan (NECP)[31] ilə gücləndirilir. Xüsusilə, NECP 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrinin ümumi son enerji istehlakında payının ən azı 27% olmasını, ilkin enerji istehlakının 72.224 Mtoe-dən çox olmamasını və son enerji istehlakının 42.168 Mtoe ilə məhdudlaşdırılmasını, eləcə də 2050-ci ilə qədər energetika sektorunun iqlim neytrallığına nail olmasını nəzərdə tutur. Həmçinin ictimai binalar sektoru, enerji idxalından asılılıq və enerji təchizatının şaxələndirilməsi, həssas istehlakçıların qorunması, innovasiyanın maliyyələşdirilməsi və təmiz texnologiyaların tədqiqi üçün də hədəflər və tədbirlər müəyyən edilib.

4.2.2. Uzunmüddətli vizyonun müəyyən edilməsi

SECAP ilk növbədə uzunmüddətli vizyona əsaslanır və bu vizyon SECAP-in hazırlanması və planlaşdırılması prosesində rəhbər prinsip kimi çıxış edir. Vizyon bələdiyyənin hansı istiqamətdə getmək istədiyini göstərir. Vizyonda "bələdiyyənin gələcəkdə harada olmaq istədiyini" müəyyən etmək vacibdir. Bu, mövcud vəziyyətdən çıxış edərək məqsədə çatmaq üçün zəruri tədbirlərin müəyyənləşdirilməsi üçün əsas təşkil edir.

Vizyon dayanıqlı gələcək haqqında ümumi fikir formalaşdırmaq və fəaliyyət sahələrini prioritetləşdirmək üçün ictimai iştirak və müzakirə qrupları vasitəsilə yerli icma ilə əməkdaşlıqda hazırlanmalıdır. Vizyon real, lakin iddialı olmalıdır. O, Şərq Tərəfdaşlığı Merlər Razılaşmasınının öhdəliklərinə uyğun olmalı, bələdiyyənin tədricən iqlim dəyişikliyinin təsirlərinə davamlığını və uyğunlaşmasını necə təmin edəcəyini, enerjiyə çıxış və yoxsulluqla necə mübarizə aparacağını göstərməli, eyni zamanda ictimaiyyət üçün faydaların nə olacağını vurğulamalıdır. Aydın və iddialı uzunmüddətli vizyon SECAP-ın əsas uğur amili hesab olunur, çünki o, bələdiyyənin siyasi öhdəliyini göstərir və bələdiyyənin gələcəkdə necə inkişaf etmək istədiyi barədə ictimaiyyətə və maraqlı tərəflərə güclü mesaj verir, bu isə dayanıqlı infrastruktura daha əhəmiyyətli investisiya qoyuluşu üçün yol açır.

30 Ukraynanın MMT-i (UNFCCC)

31 Ukraynanın Milli Enerji və İqlim Planı

4.2.3. Hədəflər və məqsədlər

Uzunmüddətli vizyon dəqiq müəyyən edildikdən sonra, onu MR-in hər bir sütununda bələdiyyənin tədbir görmək niyyətində olduğu sahələrdə daha konkret hədəflərə və məqsədlərə çevirmək lazımdır. Hədəflər mövcud vəziyyətin qiymətləndirilməsində müəyyən edilmiş nəticələrə və göstəricilərə əsaslanmalıdır (bölmə 4.1.

Hədəflər və məqsədlər SMART: Konkret (**S**pecific), Ölçülə bilən (**M**easurable), Əldə edilə bilən (**A**chievable), Real (**R**ealistic) və Vaxtla məhdudlaşmış (**T**ime-bound) prinsiplərinə uyğun olmalıdır. SMART hədəflərini və məqsədlərini müəyyən etmək üçün bələdiyyələr aşağıdakı suallardan istifadə edə bilərlər:

1. **Konkret** (dəqiq müəyyən edilmiş, diqqət mərkəzində olan, ətraflı və konkret): Nə etməyə çalışırıq? Bu nə üçün vacibdir? Kim nə edəcək? Bunu nə vaxt etməliyik? Bunu necə edəcəyik?
2. **Ölçülə bilən** (kVt•saat, vaxt, pul, % və s.): Bu məqsədə nə vaxt nail olunduğunu necə biləcəyik? Müvafiq ölçmələri necə edə bilərik?
3. **Əldə edilə bilən** (mümkün, tətbiq edilə bilən): Bu mümkündürmü? Bunu bu müddət ərzində edə bilərikmi? Məhdudiyyətləri və risk faktorlarını başa düşürükmü? Bu, əvvəllər (uğurla) edilibmi?
4. **Real** (əldə edilə bilən resurslar nəzərə alınmaqla): Bu məqsədə nail olmaq üçün tələb olunan resurslarımız hazırda mövcuddurmu? Əgər yoxdursa, əlavə resurslar cəlb edə bilərikmi? Buna nail olmaq üçün vaxt, büdcə və insan resurslarının ayrılmasında prioritetləri yenidən nəzərdən keçirməliyikmi?
5. **Vaxtla məhdudlaşdırılmış** (sabit son tarix və ya cədvəl): Bu məqsədə nə vaxt nail olunacaq? Son tarix aydın və birmənalıdırmı? Son tarixə qədər bu məqsədə nail olmaq mümkündürmü və bu müddət realdırmı?

MR-in hər bir sütununu (mitiqasiya, adaptasiya və enerji yoxsulluğu) üzrə hədəf və vəzifələrin necə müəyyən edilməsi ilə bağlı özünəməxsus xüsusiyyətlər var və bunlar aşağıda izah olunur.

4.2.3.1. İQ emissiyalarının azaldılması hədəfləri

Emissiyaların azaldılması (mitiqasiya) hədəfi, bələdiyyənin baza ili ilə müqayisədə hədəf ilinədək (məsələn, 2030, 2050) hər il əldə etməyi öhdəsinə götürdüyü ümumi İQ emissiyalarının azaldılması göstəricisidir.

MR Şərq bələdiyyələri üçün iki yanaşma mövcuddur:

a). **Hədəfin BEK nəticələri əsasında müəyyən edilməsi.** BEK-ə əsaslanan azalma hədəfi "mütləq" və ya "adambaşına" göstərici əsasında müəyyən edilə bilər. Ümumiyyətlə, baza ili ilə hədəf ili arasında əhalidə əhəmiyyətli dəyişikliklər müşahidə edilmədikdə və ya gözlənilmədikdə, mütləq azalma hədəfləri məqsədəuyğundur. Lakin, əhalidə müvafiq dəyişikliklər müşahidə olunarsa, mütləq azalma hədəfi qeyri-kafi ola bilər. Əhalinin sayında böyük artım olarsa, mütləq azalma hədəfi qeyri-real ola bilər və SECAP-da tələb olunan səylərin miqyasını olduğundan aşağı qiymətləndirə bilər. Əhalidə kəskin azalma olduqda isə, azalma hədəfinə fəaliyyətin azalması nəticəsində nail olmaq olar ki, bu da bələdiyyənin faktiki səylərini əks etdirməyə bilər. Belə hallarda, "adambaşına" hədəf müəyyən edilə bilər.

b). **Olduğu Kimi Davam etmə (OKD: business-as-usual, BAU) ssenarisi əsasında hədəfin müəyyən edilməsi.** "Olduğu Kimi Davam Etmə" (OKD) ssenarisi hazırda mövcud olan siyasətlərdən əlavə heç bir yeni siyasətin tətbiq edilmədiyini və sosial-iqtisadi inkişaf dinamikasının son tendensiyalara uyğun davam etdiyini nəzərdə tutan ssenarini təsvir etmək üçün istifadə olunur (IPCC, 2022). Bələdiyyə yekun

emissiya hədəfini müəyyən edərkən BEK-dən başlayaraq OKD ssenarisindən istifadə etməklə 2030 və ya 2050-ci il üçün öz ərazisində (tCO_2 və ya tCO_2-ekv. ilə ifadə olunan) istixana qazları emissiyalarını hesablaya bilər.. OKD ssenarisini hazırlayarkən yerli hakimiyyət orqanının iki seçimi var**:**

- Öz yanaşmasını tətbiq etmək;
- BTM tərəfindən təqdim edilən milli əmsallardan istifadə etmək.

Bələdiyyələr OKD ssenarisini hazırlamaq üçün öz yanaşmalarından, məsələn, yerli və ya ölkəyə xas OKD qiymətləndirmələrindən istifadə etdikləri təqdirdə, məlumatlar (i) etibarlı mənbədən əldə edilməli; (ii) metodologiyalar, fərziyyələr və s. təsdiqlənə bilən olmalı və şəffaf şəkildə sənədləşdirilməlidir. Metodologiyanın qısa təsviri SECAP sənədində təqdim edilməli, alətə/metodologiyaya istinad isə onlayn şablona da daxil edilməlidir.

BTM tərəfindən təqdim edilən milli əmsallar, MR Şərq ölkələri üçün hazırlanmış OKD ssenarisindən istifadə etməklə hesablanır. Mövcud məlumatlardan çıxış edən OKD ssenarisi, SECAP və ya digər milli və ya yerli siyasət tədbirlərinin həyata keçirilməməsi, əhali, iqtisadiyyat, texnologiya və insan davranışındakı mövcud tendensiyaların davam etməsi fərziyyəsi əsasında 2030, 2040 və 2050-ci illərə qədər enerji istehlakı və emissiya səviyyələrinin dəyişməsini proqnozlaşdırır.

Milli əmsal baza ili ilə hədəf ili arasında İQ emissiyalarında proqnozlaşdırılan nisbi artım tempini göstərir. Hədəf ili üçün nəzərdə tutulan CO_2 və İQ emissiyalarını əldə etmək üçün bələdiyyələr seçilmiş baza ili ilə əlaqəli milli əmsalı seçməli və onu baza ilində emissiyaya aşağıdakı düstura uyğun olaraq tətbiq etməlidirlər:

$$Emissiya_{Hədəf\ ili} = Emissiya_{Baza\ ili} * K$$

Harada:

— $Emissiya_{Hədəf\ ili}$ hədəf ili (məsələn, 2030, 2040, 2050) üçün təxmin edilən emissiyalardır,

— $Emissiya_{Baza\ ili}$ baza ilində emissiyalardır,

K, seçilmiş hədəf və baza illərinin kombinasiyası üçün milli OKD əmsalıdır.

Yerli emissiyaların azaldılması hədəfləri regional və ya milli öhdəliklərə və normativ tələblərə uyğunlaşdırılmalıdır (və ya onlardan daha yüksək olmalıdır). MR Şərq iqlim dəyişikliyinin təsirlərinin azaldılması tələblərinə uyğun olaraq, 1990-cı il səviyyələri ilə müqayisədə 2030-cu ilə qədər İQ emisiyyalarının ən azı 35% azaldılması MR Şərq imzaçıları tərəfindən mütləq azalma hədəfi kimi təklif edilir. Daha böyük faizlə azaldılma və ya daha yaxın ilin baza ili kimi seçilməsi daha yüksək ambisiyanı əks etdirə bilər.

Uzunmüddətli perspektivdə, MR Şərq regional öhdəliyi, MMT öhdəliklərinə uyğun olaraq daha iddialı uzunmüddətli hədəflər qəbul etmək və 2050-ci ilə qədər iqlim neytrallığına nail olmaq səyləri ilə CO_2 (və mümkün olduqda, digər istixana qazları) emissiyalarını 1990-cı il emissiya səviyyələri ilə müqayisədə 2050-ci ilədək ən azı 60% və ya 2005-ci ildən sonrakı baza ilində emissiya səviyyələri ilə müqayisədə 2050-ci ilədək ən azı 40% azaltmağı nəzərdə tutur.

İqlim neytrallığı, sıfır istixana qazı emissiyalarına nail olmaq deməkdir, başqa sözlə, atmosferə heç bir istixana qazı əlavə etməyən bir vəziyyətdir (Davis və b. 2018). Azaldılmayan emissiyalar mənfi emissiyalar vasitəsilə kompensasiya edilməlidir. Lakin kompensasiya tədbirləri və hesablama metodları mövcud bələdçinin əhatə dairəsinə daxil deyil[32].

Xalis sıfır istixana qazı emissiyaları konsepsiyası qalıq emissiyaları (texnoloji, maliyyə və/və ya digər məhdudiyyətlər səbəbindən tam azaldıla bilməyən emissiyalar) CO_2 -nin

[32] Əlavə məlumat JRC Publications Repository - JRC Publications Repository - Guidance on negative emissions for cities. (Şəhərlər üçün mənfi emissiyalara dair təlimat) saytında mövcuddur .

təmizlənməsi yolu ilə balanslaşdırmağa imkan verir. Qalıq emissiyalar mümkün olan minimuma endirilməli və hər hansı bir kompensasiya forması yalnız azaldılması çox çətin və ya qeyri-mümkün olan emissiya mənbələri üçün nəzərdə tutulmalıdır. Bələdiyyələr qalıq emissiyalarını hesablayarkən xüsusi çərçivələrə və təlimatlara əməl etməlidirlər. Bu çərçivələr əsaslandırılmış planlaşdırmaya və nələrin qalıq emissiyalar hesab edilməli olduğunun müəyyənlədirilməsinə töhfə verə bilər (Ulpiani və b. 2024).

Ətraflı təlimatlar MR Şərq bələdçisinin "İstixana qazı emissiyası kadastrı necə hazırlanır" (How to prepare a greenhouse gas emission inventory) adlı əlavə sənəd 1-də verilmişdir.

4.2.3.2. Uyğunlaşma (adaptasiya) məqsədləri

İqlim dəyişikliyinə uyğunlaşma məqsədləri müəyyən edilmiş ən vacib riskləri və həssaslıqları əhatə etməli və icmanın iqlim dəyişmələrinə qarşı davamlılığını artırmaq üçün ölçülə bilən hədəfləri müəyyən etməlidir. Onlar ölçülə bilən olmalı və potensial təsirləri azaltmaq niyyətini əks etdirməlidir. Buna mənfi təsirə məruz qala biləcək insanların, fəaliyyətlərin, infrastrukturun və ekosistemlərin sayını azaltmaq (yəni məruz qalmanın azaldılması), məruz qalan insanların və sektorların mənfi təsirə məruz qalma həssaslığını azaltmaq (yəni həssaslığın azaldılması) və insanların, sektorların və ya sistemlərin potensial zərərlərə uyğunlaşmaq və ya cavab vermək və yaranan imkanlardan istifadə etmək qabiliyyətini artırmaq (yəni uyğunlaşma qabiliyyətinin artırılması) kimi müxtəlif aspektlərə diqqət yetirməklə nail olmaq olar.

Buna *görə* də, uyğunlaşma məqsədlərinə bunlar daxil edilməlidir: həll ediləcək əsas iqlim təhlükəsi, göstəricilər, vahidlər, baza ili dəyəri və icranın monitorinqi üçün hədəf dəyəri.

Bəzi nümunələr bunlardır (həmçinin baxın 5):

- **2030-cu ilə qədər icmada isti ilə əlaqəli xəstəliklər riskini 40% azaltmaq:** bu məqsəd "həddindən artıq isti" təhlükəsi və "sağlamlıq" üçün həssas sektorla əlaqəli ümumi risk səviyyəsinin azaldılmasına yönəlib. Bu məqsədi ölçülə bilən hala gətirmək üçün əlaqəli göstərici "xətəlik hallarının sayı" vahidi ilə ölçülən "isti ilə əlaqəli xəstəliklərin sayı» ola bilər. Bu yolla, bələdiyyə baza ilində [məsələn, 2020-ci ildə] xəstəlik hallarının sayını [məsələn, 100 hal] ölçə bilər və hədəf ilində [2030] bələdiyyənin gözlənilən azalmaya [yəni 60 hal] çatıb-çatmadığını müşahidə edə bilər.
- **2030-cu ilə qədər daşqınlardan ciddi şəkildə zərər görən binaların sayını sıfıra endirmək:** bu məqsəd daşqınlara məruz qalan binaların həssaslığının azaldılmasına yönəlib. Bu məqsədi ölçmək üçün əsas göstərici mütləq ifadədə "binaların sayı" vahidi ilə ölçülən "Zədələnmiş binaların sayı"dır. Bundan əlavə, bu göstəricinin dəqiqliyini artırmaq üçün daşqın hadisəsindən sonra istifadə edilə bilməyən və təhlükəsiz olmaq üçün kiçik müdaxilələr tələb edən binalar arasında aydın şəkildə fərq qoymaq üçün zərər səviyyələri təsnif edilə bilər. Buna görə də, bələdiyyə irəliləyişi qiymətləndirə bilər və istinad ilindəki [məsələn, 2022-ci ildə] baza dəyərinin [məsələn, 50 bina] hədəf ilində [2030] sıfıra endirilib-endirilmədiyini yoxlaya bilər.

Cədvəl 5. Uyğunlaşma (adaptasiya) məqsədlərinə dair nümunə

Uyğunlaşma məqsədi	Əsas məqsəd [Əsas Uyğunlaşma sektorları]	Təhlükə	Göstərici	Ölçü vahidi	Baza dəyəri [il]	Hədəf dəyəri [il]
2030-cu ilədək icmada istiliklə əlaqəli xəstəliklər riskini 40% azaltmaq	Ümumi risk səviyyəsinin azaldılması [Mülki müdafiə və fövqəladə hallar. Binalar]	Həddindən artıq isti	İstiliklə əlaqəli xəstəliklərin sayı	Xəstəlik hallarının sayı	100 hal [2020]	60 hal [2030]
2030-cu ilədək daşqınlardan ciddi şəkildə zərər çəkən binaların sayını sıfıra endirmək	Həssaslığın azaldılması [Mülki müdafiə və fövqəladə hallar. Binalar]	Daşqınlar	Zədələnmiş binaların sayı	Binaların sayı	50 bina [2022]	0 bina [2030]

Mənbə: BTM

Ətraflı təlimatlar MR Şərq "Risk və Həssaslıq Qiymətləndirməsi (RHQ) necə hazırlanır" (How to prepare a Risk and Vulnerability Assessment (RVA)) adlı əlavə sənəd 2-də verilmişdir.

4.2.3.3. Enerji yoxsulluğu hədəfləri

Yerli enerji kontekstinin təhlil edildiyi və ilkin məlumatların toplandığı əvvəlki mərhələlərdə əldə edilən məlumatlara əsaslanaraq, bu mərhələdə bələdiyyədən enerji yoxsulluğu üzrə hədəfin müəyyənləşdirilməsi xahiş olunur.

MR Şərq yanaşmasına əsasən, bələdiyyələr enerjiyə çıxış və enerji yoxsulluğu üzrə həm ümumi, həm də konkret hədəf müəyyən etməlidirlər:

- **Ümumi enerjiyə çıxış və enerji yoxsulluğu hədəfi:** Bu, enerjiyə çıxış və enerji yoxsulluğu problemini müəyyən ilədək həll etmək öhdəliyini nəzərdə tutur. MR Şərq çərçivəsində bələdiyyə bu öhdəliyi açıq şəkildə bəyan etməli, hədəf və baza ilini seçməlidir.
- **Konkret enerji yoxsulluğu hədəfi:** Bələdiyyə qiymətləndirmə prosesi çərçivəsində seçilmiş enerjiyə çıxış və enerji yoxsulluğu göstəricisindən istifadə edərək istənilən yaxşılaşmanı müəyyən edir və kəmiyyətlə ifadə edir. MR Şərq bələdiyyələri mövcud göstəricilərin siyahısından istifadə edərək bir və ya daha çox konkret hədəf müəyyən edə bilərlər.

Bu hədəf təyin etmə prosesində mütləq rəqəmləri və demoqrafik proqnozları da nəzərə almaq vacibdir. Daha yaxşı şəraitdə yaşayan insanların faizinin artırılması məqsədlərdən biridir, eyni zamanda enerjiyə çıxış və enerji yoxsulluğu problemləri ilə üzləşən şəxslərin və ya ev təsərrüfatlarının ümumi sayının azaldılmasını da təmin etmək bu hədəfi daha əhəmiyyətli edir və həqiqi irəliləyişi əks etdirir.

Ətraflı təlimatlar MR Şərq "Enerji yoxsulluğunun qiymətləndirilməsi necə hazırlanır" (How to develop an energy poverty assessment) adlı əlavə sənəd 3-də verilmişdir*.


* Qeyd edək ki, tamamlayıcı sənəd 3 enerji yoxsulluğunun qiymətləndirilməsi üçün Aİ çərçivəsinə əsaslanır, lakin bu sənəd, tədbirlərin hazırlanması, göstəricilər və praktik nümunələr kimi mövzularda MR Şərq bələdiyyələri üçün faydalı mənbə ola bilər.

5. Tədbirlərin planlaşdırılması və strategiyalar

5.1. Hərtərəfli tədbirlərin hazırlanması

SECAP-ın hazırlanması prosesində üçüncü mərhələ iki əsas altmərhələdən ibarətdir: tədbirlərin planlaşdırılması və icra və monitorinqə hazırlıq. Bu mərhələlərdən əvvəl, planın ümumi icra və monitorinq mərhələsinə (yəni Şəkil 7-də "icra et" mərhələsinə) keçidi təmin etmək üçün, mövcud vəziyyət dərindən öyrənilməli, eləcə də vizyon və məqsədlər müəyyən edilməlidir (müvafiq olaraq, 4.2 və 4.2.3-cü bölmələrdə izah olunur).

Şəkil 7. Fəaliyyətin planlaşdırması mərhələsi: tədbirlərin planlaşdırılması və həyata keçirilməsi



Mənbə: BTM

5.1.1. Tədbirlərin planlaşdırılması

Yerli kontekstin öyrənilməsindən başlayaraq, bələdiyyələr ardıcıl, balanslaşdırılmış, iddialı və əldə edilə bilən fəaliyyət planı hazırlamalıdırlar. SECAP-a daxil olan tədbirlər bələdiyyənin müxtəlif sütunlar (emissiyaların azaldılması (mitiqasiya), iqlim dəyişikliklərinə uyğunlaşma (adaptasiya) və enerji yoxsulluğu) üçün müəyyən etdiyi məqsədlərlə uyğunlaşdırılmalıdır. Ümumilikdə, SECAP mövcud təcrübəyə əsaslanaraq, lakin müəyyən edilmiş vizyona uyğun olaraq həm qısamüddətli (2-5 il), həm də uzunmüddətli (6 il və ya daha çox) tədbirləri əhatə etməlidir. Bu, bələdiyyələrə təəssüf hissi doğurmayan və ya az təəssüf doğuran variantlardan başlayaraq, ardıcıl səylər və ya xərclər nəzərdə tutan tədbirləri mərhələlərə bölərək və mümkün problemləri nəzərdən keçirmək və tənzimləmək imkanı əldə edərək müxtəlif növ tədbirləri seçib prioritetləşdirməklə strateji planlaşdırma aparmağa imkan verəcəkdir.
Bu səbəbdən hər bir tədbirin əsas xüsusiyyətləri, yəni müddəti, tələb olunan resursları, gözlənilən nəticələri, əlaqəli riskləri və s. haqqında məlumatın olması vacibdir. İqlim və enerji ilə bağlı problemlərin effektiv həlli üçün yumşaq və sərt tədbirlərin kombinasiyası çox vacibdir. Yumşaq tədbirlər davranış dəyişikliyini və icmaların cəlb olunmasını təşviq edir, sərt tədbirlər isə zəruri infrastruktur və sistemləri təmin edir.

Hərtərəfli tədbirlər portfelini hazırlamaq üçün bələdiyyə aşağıdakı addımları atmalıdır:

- Hər bir tədbirin potensial təsirini qiymətləndirmək, onun enerjiyə qənaət, istixana qazları emissiyalarının azaldılması, həssas əhali qruplarının iqlim təhlükələrindən qorunması, binalara dəyən zərərin minimuma endirilməsi və həssas ailələr üçün enerji xərclərinə qənaət kimi hədəflərə və məqsədlərə nail olunmasına verdiyi töhfəni qiymətləndirmək;
- Hər bir tədbirin icma, iqtisadiyyat və ətraf mühit üçün həm müsbət, həm də mənfi gözlənilməz nəticələrini, məsələn, hava keyfiyyətinə, suyun çirklənməsinə, enerji tələbatına, mənzil əlçatanlığına və aşağı gəlirli ev təsərrüfatlarının xərclərinə təsirlərini nəzərə almaqla hərtərəfli risk qiymətləndirməsi aparmaq;
- Hər bir tədbirlə bağlı xərcləri qiymətləndirməklə və potensial maliyyələşdirmə mənbələrini müəyyən etməklə maliyyə planı hazırlamaq;

- Təklif olunan hər bir tədbirə icmanın münasibətini və mümkün müqavimət səviyyəsini müəyyən etməklə ictimai dəstəyi qiymətləndirmək;
- Mənfi təsirləri azaltmaq məqsədilə, hər bir tədbirin, xüsusən də genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi zamanı yarana biləcək potensial pozuntuları qiymətləndirmək;
- Hər bir tədbirin bələdiyyənin uzunmüddətli vizyonu və məqsədləri ilə uyğunluğunu qiymətləndirməklə, bütün səylərin dekarbonizasiyayaya, davamlılığa və enerji yoxsulluğunun azaldılmasına töhfə verməsini təmin etməklə strateji uyğunluğu təmin etmək,.

Üç sütunun hər biri üçün aşağıdakı aspektlər nəzərə alınmalıdır:

- **İstixana qazlarının azaldılması tədbirləri:** planlaşdırılan istixana qazı emissiyalarının azaldılmasına nail olmaq üçün bütün müvafiq emissiya yaradan sektorlar əhatə olunmalıdır. Hər bir tədbirə emissiya yaradan hər bir sektor üçün enerji qənaəti, bərpa olunan enerji istehsalı və emissiyaların ümumi azaldılmasının qiymətləndirilməsi daxil edilməlidir. Enerji ilə əlaqəli sektorlarda bu, əsasən enerji istehlakının və onunla bağlı İQ emissiyalarının miqdarının azaldılmasına yönəlmiş tədbirlərlə əlaqələndirilir; məsələn, enerji səmərəliliyinin artırılması, bərpa olunan enerjinin payının yüksəldilməsi və ağıllı texnologiyalardan və ya davranış dəyişikliklərindən istifadə etməklə tələbatın optimallaşdırılması və ya idarə olunması. Bu kontekstdə "ilk növbədə enerji effektivliyi" prinsipi qorunmalıdır (Qutu 9)

  Digər tərəfdən, *enerji ilə əlaqəli olmayan sektorlarla* (məsələn, tullantılar və ya kənd təsərrüfatı, meşə təsərrüfatı və digər torpaq istifadəsi (KMDTİ) bağlı emissiyaları azaltmaq üçün tullantıların azaldılması, dayanıqlı kənd təsərrüfatı və meşələrin bərpası kimi strategiyalar planlaşdırıla bilər. Tullantı sektorunda tullantıların yaranmasının qarşısının alınmasını təşviq edən tədbirlərə üstünlük verilməlidir. Enerji ilə əlaqəli olmayan sektorlarla bağlı istixana qazları emissiyalarını azaltmaq üçün digər tədbirlərə kompost proqramları, aqromeşəçilik təcrübələri və yaşıl infrastruktura investisiyalar daxildir.

Qutu 9. "İlk növbədə enerji effektivliyi" prinsipi

"İlk növbədə enerji effektivliyi" prinsipi (yenidən işlənmiş Aİ Enerji Effektivliyi Direktivinə əsaslanır) enerji siyasəti və planlaşdırmasında enerji dayanıqlılığına nail olmaq üçün əsas strategiya kimi enerji effektivliyinə üstünlük verən rəhbər konsepsiyadır. Bu prinsip belə bir yanaşmaya əsaslanır ki, səmərəli texnologiyalar, təcrübələr və davranışlar vasitəsilə enerji istehlakının azaldılması çox vaxt enerji tələbatının qarşılanmasının, ən səmərəli və ekoloji cəhətdən ən faydalı yollarından biridir. Buna görə də, Direktivə əsasən, bu prinsip bütün müvafiq ssenarilərdə və siyasətdə, planlaşdırmada və əsas investisiya qərarlarında müvafiq xərc-fayda təhlilləri vasitəsilə tətbiq olunmalıdır.

Aşağıdakı diaqram (Şəkil 8) emissiyaların azaldılması tədbirlərinə necə yanaşmağın ümumi təsvirini təqdim edir.


Şəkil 8. Emissiyaların azaldılması tədbirlərinin planlaşdırılması: nümunə tədbirlərinin icmalı

İQLİM DƏYİŞİKLİKLƏRİNİN NƏTİCƏLƏRİNİN AZALDILMASI (MİTİQASİYA)				
MİTİQASİYA ÜZRƏ QİYMƏTLƏNDİRMƏ			**HƏDƏF**	**TƏDBİRİN ƏSAS MƏQSƏDİ**
BAZA EMİSSİYA KADASTRI (BEK)			NƏ?	NECƏ?
ENERJİ İLƏ ƏLAQƏLİ	TƏLƏBAT	**BİNALAR VƏ NƏQLİYYAT**	**İSTİXANA QAZLARININ AZALDILMASI HƏDƏFİ** (VAHİD: % tCO_2-ekv.)	Məsələn: Binaların termomodernizasiyası, məkan isitmə enerjisi üçün bərpa olunan enerji mənbələrinin istifadəsi, enerji idarəetməsi, sertifikatlaşdırma, enerji karbon vergisi.
	TƏCHİZAT	**ENERJİ TƏCHİZATI**		Məsələn: Binaların termomodernizasiyası, məkan isitmə enerjisi üçün bərpa olunan enerji mənbələrinin istifadəsi, enerji idarəetməsi, sertifikatlaşdırma, enerji karbon vergisi.
ENERJİ İLƏ ƏLAQƏSİZ		**DİGƏR SEKTORLAR (ENERJİ İLƏ ƏLAQƏLİ OLMAYAN)**		Məsələn: şəhər ərazilərinin regenerasiyası (yenilənməsi), torpaq istifadəsinin planlaşdırılması, tullantıların idarə olunması təcrübələri

Mənbə: BTM

Emissiyaların azaldılması (mitiqasiya) üzrə tədbirlər portfelini hazırlayarkən, bələdiyyə *əvvəlcədən (ex-ente) qiymətləndirmə* aparmalı, yəni istənilən İQ emissiyalarının azaldılması hədəfinə nail olmaq baxımından tədbirlərin effektivliyini qiymətləndirməlidir. Bu məqsədlə, baza ssenarisi müəyyən edilməlidir və qiymətləndirilən tədbirlərin olmadığı təqdirdə (yəni artıq qüvvədə olan siyasət və tədbirlər daxil olmaqla) İQ emissiyalarının hədəf ilədək necə dəyişəcəyi ssenirədə təsvir olunmalıdır. Daha sonra siyasət ssenarisi hazırlanmalı, qiymətləndirilən tədbirlərin həyata keçirilməsi şəraitində baş verə biləcək dəyişikliklər əks etdirilməli və siyasət ssenarisi üzrə emissiyalar hesablanmalıdır. Nəhayət, baza ssenarisindəki emissiyalarla siyasət ssenarisindəki emissiyalar arasındakı fərq hesablanmaqla hər bir tədbirin gələcəkdə gözlənilən İQ emissiyalarının azaldılmasına təsiri müəyyən edilməlidir. Bu proses Şəkil 9-da ümumiləşdirilmişdir.

Şəkil 9. Emissiyaların azaldılması üzrə tədbirlər nəticəsində gözlənilən İQ təsirlərinin qiymətləndirilməsi (ex-ante qiymətləndirmə)



Mənbə: BTM-nin "İstixana Qazı Protokolu – Siyasət və Fəaliyyət Standartı" ('Greenhouse Gas Protocol – Policy and Action Standard' (WRI, 2014) əsasında hazırladığı sənəd

– **İqlim dəyişikliyinə Uyğunlaşma tədbirləri:** İqlim dəyişikliyi ilə əlaqəli potensial təsirlər təhlükələr, məruz qalma, həssaslıq və adaptasiya qabiliyyətinin kombinasiyası olan risklərdən irəli gəlir[33]. Bələdiyyələr SECAP-dakı risk və həssaslıq qiymətləndirməsində (RHQ) müəyyən edilmiş bütün müvafiq yüksək riskli təhlükələri hədəf alan tədbirləri daxil etməlidirlər. Bu tədbirlər müəyyən edilmiş adaptasiya məqsədləri ilə uyğunlaşdırılmalıdır. Şəkil 10. Uyğunlaşma tədbirlərinin planlaşdırılması: ümumi baxış və tədbir nümunələrimüvafiq olaraq həddindən artıq isti, daşqın və kütləvi hərəkətlər (sürüşmələr) ilə əlaqəli olan üç məqsədə nail olmağa tədbirlərin necə töhfə verə biləcəyinə dair bəzi nümunələr verilmişdir. Müşahidə edildiyi kimi, hər bir adaptasiya məqsədini əhatə etmək üçün birdən çox tədbir tətbiq edilə bilər və tədbirlərin növləri həm yumşaq (məsələn, idarəetmə), həm də sərt (məsələn, infrastruktur) tədbirlər daxil olmaqla dəyişə bilər.

Şəkil 10. Uyğunlaşma tədbirlərinin planlaşdırılması: ümumi baxış və tədbir nümunələri

<table>
<tr><th colspan="4">ADAPTASİYA</th></tr>
<tr><th>ADAPTASİYA ÜZRƏ QİYMƏTLƏNDİRMƏ</th><th colspan="2">MƏQSƏD(LƏR)</th><th>ƏSAS FƏALİYYƏT İSTİQAMƏTİ</th></tr>
<tr><td>RİSK VƏ HƏSSASLIĞIN QİYMƏTLƏNDİRİLMƏSİ (RHQ)</td><td colspan="2">NƏ?</td><td>NECƏ?</td></tr>
<tr><td>EKSTREMAL İSTİLƏR</td><td rowspan="8">DAYANIQLILIĞIN ARTIRILMASI
Bir neçə mümkün seçim: təsirlərin / zəifliklərin / risklərin / nəticələrin azaldılması / uyğunlaşma qabiliyyətinin artırılması
ÖLÇÜ VAHİDİ MƏQSƏDDƏN ASILIDIR</td><td>Məsələn, dəniz səviyyəsinin qalxması ilə bağlı xəstəliklər riskini 2030-cu ilə qədər 60% azaltmaq.</td><td>Məsələn, anomal istilərlə bağlı erkən xəbərdarlıq sistemi qurmaq, ictimai maarifləndirmə kampaniyaları aparmaq, sərinlik mərkəzləri yaratmaq (məs. , ictimai binalarda), binaların layihələndirilməsini/yenidən qurulmasını təkmilləşdirməkı və s.</td></tr>
<tr><td>EKSTREMAL SOYUQLAR</td><td></td><td></td></tr>
<tr><td>GÜCLÜ YAĞINTILAR</td><td></td><td></td></tr>
<tr><td>DAŞQINLAR VƏ DƏNİZ SƏVİYYƏSİNİN QALXMASI</td><td>Məsələn, 2025-ci ilə qədər daşqınlara meylli ərazilərdə kənd təsərrüfatı torpaqlarının ən azı 80%-ni qorumaq.</td><td>Məsələn, daşqınlara nəzarət tədbirləri hazırlamaq və həyata keçirmək (bəndlər, sədlər və s.), iqlim dəyişikliyinə davamlı kənd təsərrüfatı təcrübələrini inkişaf etdirmək, daşqın xəbərdarlıq sistemi yaratmaq, daşqınlara qarşı təbii metodları (bataqlıqlar, meşələr və s.) tətbiq etmək.</td></tr>
<tr><td>QURAQLIQLAR VƏ SU QITLIĞI</td><td></td><td></td></tr>
<tr><td>FİRTINALAR</td><td></td><td></td></tr>
<tr><td>TORPAQ SÜRÜŞMƏLƏRİ</td><td rowspan="3">Məsələn, 2029-cu ilə qədər sürüşmə səbəbindən yolların bağlanması riskini 80% azaltmaqla nəqliyyat sektorunu təkmilləşdirmək.</td><td rowspan="3">Məsələn, torpaq sürüşmələrinin qarşısının alınması tədbirlərini tətbiq etmək (yamacların sabitləşdirilməsi, istinad divarları, drenaj sistemlərinin yaxşılaşdırılması və s.), yol infrastrukturunu təkmilləşdirmək, torpaq sürüşmələrinə davamlı materialardan istifadə etmək, fövqəladə hallar üçün tədbirlər planlarını hazırlamaq və tikinti norma və qaydalarına uyğunluğu təmin etmək.</td></tr>
<tr><td>MEŞƏ YANĞINLARI</td></tr>
<tr><td>KİMYƏVİ DƏYİŞİKLİKLƏR</td></tr>
<tr><td>BİOLOJİ TƏHLÜKƏLƏR</td></tr>
</table>

Mənbə: BTM

– **Enerji yoxsulluğu ilə bağlı tədbirlər**: Enerji yoxsulluğunun bütün miqyasını və onun mürəkkəbliyini nəzərə almaq məqsədilə bələdiyyələr enerji yoxsulluğunun yerli kontekstdə spesifik təzahürlərini əhatə etmək üçün birdən çox alət qutusundan istifadə edə və müxtəlif yanaşmalar tətbiq edə bilərlər. Təklif olunan tədbirlər əvvəlki mərhələlərin nəticələri bələdiyyədə yerli enerji yoxsulluğunu müəyyən edən makro- sahələr və göstəricilərlə və müəyyən edilmiş hədəflə uyğun olmalıdır. Bu halda da həyata keçiriləcək tədbirlərlə bağlı qərarların qəbulunda "ilk növbədə enerji effektivliyi" prinsipi (**Qutu 9**) əhəmiyyətli ola bilər. Şəkil 11-də göstərildiyi kimi, burada tədbirləri təqdim etmək üçün istifadə edilən struktur enerji yoxsulluğunun qiymətləndirilməsində tətbiq olunan müdaxilənin makro- sahələri üzrə təsnifata əsaslanır (bölmə 4.3.1).

[33] Bu anlayışların müəyyənləşdirilməsi üçün 8 - ci Qutuya baxın

Bu sütunda müxtəlif növ tədbir təklif etmək olar. Fiziki və texnoloji tədbirlərdən tutmuş bilik və davranış dəyişikliyinə qədər dəyişən enerji yoxsulluğu təşəbbüsləri əsas enerji ehtiyaclarını ödəməmək riski ilə üzləşən əhaliyə ünvanlı dəstəyə yönəlmişdir. Əsasən iqlim dəyişikliyinin təsirlərinin azaldılması sütunu çərçivəsində planlaşdırılan enerji səmərəliliyi tədbirləri dolayı yolla enerji yoxsulluğunu da əhatə edə bilər. Enerji yoxsulluğu tədbiri emissiyaların azaldılması tədbirlərindən onunla fərqlənir ki, enerji baxımından həssas olan müəyyən qruplara, o cümlədən aztəminatlı ailələrə, qadınlara və yaşlı insanlara yönəlir.

Bəzi nümunələrə aşağıdakılar daxildir:

- həssas əhali qrupları, xüsusilə də ekstremal istilər zamanı yüksək risk altında olanlar, üçün əlçatan sərinlik variantları təklif edən iqlim sığınacaqlarının tikintisi;
- enerji səmərəliliyinin artırılmasına maliyyə dəstəyi göstərməklə yaşayış yerlərində və şəhər ərazilərində enerji səmərəliliyini və xidmətlərin iqtisadi əlçatanlığını artıran məqsədyönlü siyasətlərin həyata keçirilməsi, aztəminatlı ev təsərrüfatlarına yeniləmə işləri aparmağa imkan verilməsi;
- enerji yoxsulluğu riski ilə üzləşən insanların payının yüksək olduğu ərazilərdə bərpa olunan enerji icmalarının dəstəklənməsi;
- ictimai nəqliyyatda gediş haqqının azaldılması və ya ləğv edilməsi.

Şəkil 11. Enerji yoxsulluğu ilə bağlı tədbirlərin planlaşdırılması: tədbir nümunələri və ümumi baxış

ENERJİ YOXSULLUĞU		
ENERJİ YOXSULLUĞUNUN QİYMƏTLƏNDİRİLMƏSİ	**HƏDƏFLƏR**	**ƏSAS FƏALİYYƏT İSTİQAMƏTİ**
MAKRO-SAHƏ	NƏ?	NECƏ?
İQLİM	**2023-CÜ İLƏ QƏDƏR ENERJİ YOXSULLUĞU İLƏ MÜBARİZƏ APARMAQ + XÜSUSI HƏDƏF(LƏR)** ÖLÇÜ VAHİDİ: HƏDƏFDƏN ASILIDIR (Məsələn, enerji yoxsulluğundan təsirlənən sakinlərin sayini azaltmaq)	Məsələn, ekstremal hava şəraitinə uyğunlaşma üçün maliyyə dəstəyi; şəhər sığınacaqlarının/yaşıllaşdırma ərazilərinin genişləndirilməsi.
MƏİŞƏT/TİKİLİLƏR/MƏNZİL SEKTORU		Məsələn, binaların sertifikatlaşdırılması; enerji icmaları; gəlir səviyyəsinə əsaslanan maliyyələşdirmə mexanizmləri.
MOBİLLİK (NƏQLİYYAT)		Məsələn, həssas qruplar üçün pulsuz ictimai nəqliyyat; gəlirə əsaslanan nəqliyyat kartları; ağıllı mobillik tətbiqləri.
SOSİAL-İQTİSADİ SAHƏ		Məsələn, yerli enerji icmaları üçün yerli enerji ofisləri; enerji vauçerləri və qrantlar; bərpa olunan enerji icmaları.
SİYASƏT VƏ TƏNZİMLƏYİCİ ÇƏRÇİVƏ		Məsələn, öz enerji istehlakının yerində müəyyən edilməsi; kirayə mənzillər üçün minimum enerji səmərəliliyi standartları.
İŞTİRAK VƏ MƏLUMATLANDIRMA		Məsələn, iqlimlə bağlı və/və ya ağıllı mobillik tətbiqləri; enerji istifadəsi üzrə təlimlər və kampaniyalar.

Mənbə: BTM

– **İnteqrasiya olunmuş tədbirlər**: vahid yanaşma tətbiq etməklə bələdiyyələr öz fəaliyyətlərinin effektivliyini maksimum dərəcədə artıra və müxtəlif sütunlar və ya məqsədlər arasında qarşılıqlı təsiri gücləndirə bilərlər. Bu inteqrasiya olunmuş yanaşma digər sektorlarda/təhlükələrdə/makro-sahələrdə və ya hətta digər sütunlarda çoxsaylı təsirlərə (birgə təsirlərə), eləcə də tək bir tədbirin birdən çox problemi həll etdiyi, səmərəliliyi və təsiri artırdığı birgə faydalara səbəb ola bilər. Bununla belə, potensial birgə faydaları müəyyən etmək və gözlənilməz nəticələri (kompromisləri) minimuma endirmək üçün tədbirlər arasında qarşılıqlı əlaqələrin


diqqətlə təhlili tələb olunur. Müxtəlif maraqlı tərəflərlə, o cümlədən ictimaiyyətlə, bələdiyyə idarələri ilə və digər müvafiq iştirakçılarla əvvəldən əlaqə qurmaq onların fikirlərinin nəzərə alınması və narahatlıqlarının aradan qaldırılması baxımından vacibdir. Bu, nəticə etibarilə bütövlükdə icmanın rifahını təşviq edən daha əhatəli və davamlı strategiya formalaşdırır.

Şəkil 12-də göründüyü kimi, bələdiyyələr eyni sütun daxilində birgə təsirlərə malik inteqrasiya olunmuş tədbirlər planlaşdıra bilərlər. Məsələn, tədbirlər aşağıdakıları əhatə edə bilər:

- İki və ya daha çox *sektorda emissiyaların azaldılması (mitiqasiya)*[34] (məsələn, istilik istehsalını sənaye prosesləri ilə birləşdirən mərkəzlədirilmiş istilik sistemi, bax: 'M');
- İki və ya daha *çox iqlim təhlükəsi*[35] (məsələn, meşələrin bərpasını özündə birləşdirən və torpaq sürüşmələrinin və daşqınların qarşısını ala bilən ərazinin sabitləşdirilməsi layihəsi, bax: 'A');
- İki və ya daha *çox enerji yoxsulluğu makro-sahəsi*[36](məsələn, aztəminatlı ev təsərrüfatları üçün dayanıqlı mobillik variantları, bax: 'E').

Həmçinin, birgə təsirlər eyni vaxtda iki sütunu (aşağıdakı şəkildəki '1', '2' və ya '3'-ə baxın) və ya hamısını (məsələn, aztəminatlı ev təsərrüfatları yaşayan binaların enerji səmərəli və iqlim dəyişkənliyinə davamlı xüsusiyyətlərlə təchiz edilərək yenilənməsini, bax: '4'-ə) əhatə etməklə əldə edilə bilər. Bütün hallarda birgə faydalar və kompromislər nəzərə alınmalıdır.

Şəkil 12. İnteqrasiya olunmuş tədbirlərin planlaşdırılması



Mənbə: BTM

34 Təsirlərin azaldılması sektorları: yaşayış binaları, bələdiyyə binaları, ictimai işıqlandırma, sənaye, nəqliyyat, tullantılar və çirkab suları, KTMDTİ (AFOLU)İ, elektrik enerjisi istehsalı və istilik/soyuq istehsalı.

35 İqlim dəyişikliyinə uyğunlaşma təhlükələri: həddindən artıq isti, həddindən artıq soyuq, güclü yağıntı, daşqınlar/dəniz səviyyəsinin qalxması, torpaq sürüşməsi, meşə yanğınları, fırtınalar, quraqlıq və su qıtlığı, kimyəvi dəyişikliklər və bioloji təhlükələr.

36 Enerji yoxsulluğu makro-sahələri: iqlim, mobillik, imkanlar və mənzil, sosial-iqtisadi.

Bu tədbirlərin uğurla həyata keçirilməsini təmin etmək üçün lazımi resursları ayıran və maraqlı tərəfləri cəlb edən, onların icrası üçün real vaxt qrafiki müəyyən edən və təsirini qiymətləndirən aydın plan tərtib etmək vacibdir. Bələdiyyələr fiziki və texnoloji, iqtisadi və maliyyə, idarəetmə və tənzimləmə, bilik və davranış dəyişikliyi də daxil olmaqla müxtəlif növ tədbirlərin həyata keçirilməsini və monitorinqini dəstəkləmək və təmin etmək potensialına malikdirlər. Fəaliyyət növlərinin müvafiq kombinasiyasını təmin etməklə, bələdiyyələr müxtəlif maraqlı tərəfləri fəallaşdıra və hətta bələdiyyələrin birbaşa nəzarəti olmayan sektorlarda belə iqlim tədbirlərini təşviq edə bilərlər.

Bundan əlavə, tədbirlərin ətraflı məlumat vərəqlərindən (fişlərdən) ibarət portfel şəklində təşkil edilməsi prosesi sadələşdirməyə, həmçinin monitorinq və qiymətləndirməni asanlaşdırmağa kömək edə bilər. Prosesi standartlaşdırmaq məqsədilə müvafiq məlumatların toplanması üçün şablondan istifadə etmək olar.

5.1.2. İQ emissiyalarının azaldılması üzrə tədbirlərin yerli havanın keyfiyyətinə təsirlərinin və mümkün ziddiyyətlərinin qiymətləndirilməsi

SECAP-larda planlaşdırılan tədbirlər emissiyaların azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və enerji yoxsulluğu sahələrindən kənarda da sinerji və qarşılıqlı mənfi təsirlər yarada bilər. İQ emissiyalarının azaldılması üçün həyata keçirilən tədbirlərin çoxu hava keyfiyyətini də yaxşılaşdıra bilər, çünki onlar çox vaxt enerji istehlakının azaldılmasını və daha təmiz enerji mənbələrindən istifadənin təşviq edilməsini əhatə edir (Peduzzi və b. 2020). Məsələn, binalarda enerji səmərəliliyinin artırılması isitmə və soyutma ehtiyacını azalda bilər ki, bu da öz növbəsində hissəciklər və azot oksidləri (NOx) kimi hava çirkləndiricilərinin emissiyalarını azalda bilər. Eynilə, daha səmərəli, elektrikli və ya hibrid nəqliyyat vasitələrinin istifadəsinin təşviqi və ya şəxsi nəqliyyatdan istifadənin azaldılması nəqliyyatdan hava çirkləndiricilərinin emissiyalarını azalda bilər (Peduzzi və b. 2020).

Planlaşdırılan İQ emissiyalarının azaldılması tədbirlərinin yerli hava keyfiyyətinə təsirlərinin qiymətləndirilməsi həm iqlim dəyişikliyinin azaldılmasında, həm də şəhər səviyyəsində hava keyfiyyəti siyasətlərinin optimallaşdırılmasında mühüm addımdır. Bunu etməklə, bələdiyyələr planlaşdırılan emissiyaların azaldılması tədbirlərinin sağlamlığa və ətraf mühitə təsirləri də daxil olmaqla potensial sinerjilərdən tam istifadə edərək daha effektiv və dayanıqlı şəhər siyasətləri hazırlaya bilər və bununla da SECAP-ları üzrə əsaslandırılmış qərarlar qəbul edə bilərlər.

MR Şərq çərçivəsində, İQ emissiyalarının azaldılması tədbirləri, ümumiyyətlə, əksər şəhərlərdə hava keyfiyyətini yaxşılaşdırmışdır (Monforti-Ferrario və b. 2018). Bununla belə, yerli İQ emissiyalarının azaldılması tədbirləri səbəbindən hava keyfiyyətinin pisləşə biləcəyi hallar da mövcuddur. Diqqətəlayiq bir nümunə, yaşayış sektorunda biokütlənin yandırılması ilə bağlıdır. Bu tədbir (karbon balansının biokütlə fərziyyələri çərçivəsində, əgər biokütlə dayanıqlı şəkildə yığılırsa) İQ emissiyalarının azalmasına səbəb ola bilər, lakin eyni zamanda hava keyfiyyətini pisləşdirə də bilər, çünki çox vaxt xırda hissəciklərin (PM 2.5) emissiyasının və atmosferdəki konsentrasiyasının artmasına səbəb olur (Peduzzi və b. 2020; Bastos və b. 2026).

MR Şərq imzaçılarının tədbirləri planlaşdırma seçimlərinin hava keyfiyyətinə təsirinə qısa bir baxış keçirmələri və məlumatların toplanmasına əlavə yük yaratmamaları üçün Merlərin Razılaşması çərçivəsinə uyğunlaşdırılmış iki sadələşdirilmiş alət mövcuddur. Xüsusilə, bunlar aşağıdakılara imkan verir:

- SECAP-ların fəaliyyətlərində enerji qənaətini baza emissiya kadastrı (BEK) ilə müqayisə etməklə təklif olunan emissiyaların azaldılması tədbirlərinin hava keyfiyyətinə potensial təsirlərini qiymətləndirməyə;
- Baza göstəricilərini (BEK-ləri) müqayisə edərək və monitorinq emissiya kadastrına (MEK) əsaslanaraq hava keyfiyyətinə necə təsir olunduğunu qiymətləndirməyə.

Hər iki alət MyCovenant hesabat platformasında mövcuddur.

Bundan əlavə, emissiyaların azaldılması üzrə planlaşdırılan tədbirlərin yerli hava keyfiyyətinə potensial təsirlərini qiymətləndirmək üçün imzaçılar SHERPA (Pisoni və b. 2024) kimi hava keyfiyyəti modellərindən istifadə edə bilərlər. SHERPA, müxtəlif emissiya ssenarilərinin hava keyfiyyətinə və bununla bağlı sağlamlıq nəticələrinə təsirini qiymətləndirmək üçün istifadə edilə bilən və şəhər səviyyəsində tətbiq oluna bilən operativ modelləşdirmə vasitəsidir (Monforti-Ferrario və b. 2018).[37]

5.1.3. İcraya və monitorinqə hazırlıq

Tədbirlərin həyata keçirilməsi zamanı onların icrasını dəstəkləyən əlverişli mühitin qorunub saxlanması vacibdir. Buraya tənzimləyici çərçivə, idarəetmə strukturu və müvafiq maraqlı tərəflərlə və/və ya ictimaiyyətlə əməkdaşlıq daxildir. Tədbirlərin uğurla həyata keçirilməsi üçün digər idarəetmə səviyyələrindən dəstək almaq da zəruri ola bilər. Tədbirlərin icrası zamanı, zərurət yarandıqda, bələdiyyənin gözlənilən məqsədlərə nail olmaq üçün fəaliyyət istiqamətini yenidən nəzərdən keçirməsini tələb edə biləcək potensial pozuntuların nəzərə alınması tövsiyə olunur.

Tədbirlərin icrasına və monitorinqinə hazırlıq məqsədilə tədbir səviyyəsində müvafiq göstəricilərin müəyyənləşdirilməsi tövsiyə olunur. Bu göstəricilər i) tədbirin təsirini, ii) tədbirin icra vəziyyətini və iii) potensial birgə faydaları və ya qarşılıqlı mənfi təsirləri ölçməyə imkan verməlidir. Tədbirin icrasının müvafiq tezliklə izlənilməsi bələdiyyəyə əldə olunan nəticələrin gözləntilərə uyğun olub-olmadığını qiymətləndirməyə və ya plana dəyişiklik və düzəlişlərin edilməsinin zəruri olub-olmadığını müəyyənləşdirməyə imkan verir. Bundan əlavə, tədbir səviyyəsində irəliləyişin izlənilməsi bələdiyyənin iqlim üzrə fəaliyyət istiqamətinin hansı mərhələsində olduğunu müəyyən etməyə və 6-cı bölmədə izah edildiyi kimi, prosesin ümumi monitorinqinə töhfə verməyə imkan yaradır.

Ətraflı təlimatlar MR Aİ təlimat kitabçasının əlavə sənəd 4-də — "Mitiqasiya, adaptasiya və enerji yoxsulluğu üzrə tədbirlər necə planlaşdırılır" ("How to plan mitigation, adaptation and energy poverty actions")— təqdim olunur.

5.2. Zəruri maliyyələşdirmənin müəyyən edilməsi və təmin edilməsi

Bələdiyyələr iqlim məqsədlərinə nail olmaq üçün lazımi vəsaiti təmin etməkdə çox vaxt çətinliklərlə üzləşirlər, çünki enerji səmərəliliyi və bərpa olunan enerji layihələri, eləcə də iqlim dəyişikliklərinə uyğunlaşma infrastrukturu əhəmiyyətli investisiyalar tələb edə bilər.

SECAP-ların uğurlu həyata keçirilməsini təmin etmək üçün iqlim və enerji tədbirlərinin müəyyənləşdirilməsindən kənara çıxmaq və onların maliyyə təsirlərini qiymətləndirmək vacibdir. Buraya ümumi investisiya və qeyri-investisiya xərclərinin qiymətləndirilməsi, mövcud maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi və potensial maliyyələşdirmə boşluqlarını aradan qaldırmaq üçün ilkin maliyyələşdirmə strategiyasının hazırlanması daxildir.

[37] Alətə https://jeodpp.jrc.ec.europa.eu/eu/vaas/voila/render/sherpa/sherpa/Sherpa.ipynb ünvanından onlayn şəkildə daxil olmaq mümkündür.

Müxtəlif maliyyələşdirmə mexanizmlərinə, modellərinə və alətlərinə çıxış imkanı prosesin sabitliyini və davamlılığını təmin etmək, eləcə də aşağı karbonlu, davamlı və dayanıqlı şəhər sistemlərinə keçidi təmin etmək üçün vacibdir.

İqlim və enerji tədbirlərini dəstəkləmək üçün həm geniş tətbiq olunan ənənəvi yanaşmalar, həm də daha innovativ və ya icma əsaslı həlləri əhatə edən geniş çeşiddə alətlər mövcuddur. Bu alətlər maliyyələşdirmə mənbələri, müqavilə strukturu, risklərin bölüşdürülməsi səviyyəsi, eləcə də özəl və ya dövlət subyektlərinin cəlb olunması baxımından bir-birindən fərqlənir və bələdiyyələrə öz konkret ehtiyaclarına və layihə növlərinə uyğun müxtəlif seçimlər təklif edir.

Ənənəvi alətlərə bələdiyyələrə dayanıqlı layihələrin ilkin xərclərini ödəməkdə dəstək verən qrantlar, vergi güzəştləri və güzəştli kreditlər kimi dövlət maliyyələşdirməsi daxildir. Ənənəvi istiqrazlar, lizinq və təchizatçı maliyyələşdirməsi kimi özəl maliyyələşdirmə variantları bələdiyyələrə böyük ilkin investisiyalar olmadan enerji səmərəli infrastruktur əldə etməyə imkan yaradır. Bu mexanizmlər enerji səmərəliliyi və bərpa olunan enerji layihələrinin ilkin mərhələlərinin başlanması və maliyyələşdirilməsi üçün vacibdir.

İnnovativ alətlər bələdiyyələrə enerji səmərəliliyi tədbirlərini ilkin xərclər olmadan, qənaət yolu ilə geri ödəmə hesabına həyata keçirməyə imkan verir. Məsələn, bələdiyyələr iqlim tədbirlərini maliyyələşdirmək üçün yaşıl istiqrazlar və ya yaşıl kreditlər vasitəsilə vəsait toplaya bilərlər. Qarışıq maliyyələşdirmə riskləri azaltmaq və daha böyük miqyaslı layihələrə imkan yaratmaq üçün dövlət və özəl investisiyaları birləşdirir və onları maliyyə baxımından daha əlverişli edir.

Alternativ alətlər bərpa olunan enerji və ya enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsinə yerli əhalini cəlb edən kütləvi maliyyələşdirmə (kraudfandinq) və enerji kooperativləri kimi icma əsaslı maliyyələşdirməyə yönəlir. Birgə satınalma və karbon maliyyələşdirilməsi bələdiyyələr, müəssisələr və ictimaiyyət arasında əməkdaşlığa imkan yaradır, riskləri və faydaları bölüşdürməklə dayanıqlı inkişaf üzrə irimiqyaslı layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə imkan verir.

Bu mexanizmlərin hər biri bələdiyyələrə özünəməxsus üstünlüklər və imkanlar təqdim edir və maliyyələşdirmə strategiyalarını öz konkret ehtiyaclarına və layihələrinə uyğunlaşdırmağa imkan verir. Bu alətləri araşdırmaqla bələdiyyələr SECAP prosesinin bütün mərhələlərində zəruri maliyyələşdirməni təmin etmək üçün mövcud resurslardan necə istifadə edə biləcəklərini daha yaxşı başa düşə bilərlər.

Qutu 10. Nümunə: Alaverdinin maliyyələşdirmə layihələri

İmzaçı: Alaverdi (Ermənistan) | Əhalisi: 36 621 | Qoşulma: 2016

" Enerji səmərəliliyi və aşağı emissiyalı inkişaf vasitəsilə icmaların davamlılığının gücləndirilməsi " ("Strengthened Community Resilience through Energy Efficiency and Low-Emission Development") layihəsi 2022-2024-cü illərdə İsveç Beynəlxalq İnkişaf və Əməkdaşlıq Agentliyi (Sida) tərəfindən maliyyələşdirilirmiş və BMTİP tərəfindən Alaverdi Bələdiyyəsi ilə tərəfdaşlıqda həyata keçirilmişdir.

Proqramın məqsədlərinə aşağıdakılar daxildir: birləşdirilmiş Alaverdi İcmasının iqtisadi, ekoloji və sosial davamlılığının gücləndirilməsi; enerji səmərəli və aşağı karbonlu icma inkişafının təkrarlana bilən modelinin hazırlanması, sınaqdan keçirilməsi və miqyasının genişləndirilməsi və Ermənistanın Paris Sazişi çərçivəsində öhdəliklərinin dəstəklənməsi.

Əldə edilən əsas nəticələr:

– Alaverdidə 36 yaşayış binasının istilik izolyasiyası işləri aparılıb;
– 2 binada tam termomodernizasiya işləri aparılıb;
– 34 – qismən enerji səmərəliliyinin artırılması üzrə işlər görülmüşdür.

Digər mövcud maliyyələşdirmə mexanizmi, dayanıqlı enerji layihələrinin həyata keçirilməsi və maliyyələşdirilməsində geniş milli təcrübəyə malik qeyri-kommersiya təşkilatı olan Bərpa Olunan Enerji və Enerji Effektivliyi Fondudur (R2E2 Fondu) (Renewable Energy and Energy Efficiency Fund).

Ətraflı təlimat MR Aİ bələdçisinə əlavə olan "Mitiqasiya, adaptasiya və enerji yoxsulluğu üzrə tədbirlər üçün maliyyə alətləri" sənəd 5-də – təqdim olunur.

Maliyyələşdirmə ilə bağlı əlavə resurslar

Şərq Tərəfdaşlığı (EaP) iştirakçıları üçün MR Şərq-in "Maliyyələşdirmə imkanları" ("Funding opportunities") interaktiv təlimatı.

5.3. SECAP-ın qəbul edilməsi və təqdim olunması

Hazır olduqdan sonra, SECAP bələdiyyə şurası və ya ona bərabər inzibati orqan tərəfindən rəsmi təsdiqdən keçməlidir.

Razılaşmaya qoşulan bələdiyyələr müəyyən edilmiş müddətlər çərçivəsində fəaliyyət planı və onun icrası barədə hesabat təqdim etməyi də öhdələrinə götürürlər. Yerli iqlim tədbirləri üzrə açıq və şəffaf hesabatlar etimadın, etibarlılığın və hesabatlılığın formalaşmasına kömək edir, hərtərəfli təhlil və ümumiləşdirməyə imkan verir. Bu, bələdiyyələrin iqlim dəyişikliyi ilə mübarizədə mühüm rolunu vurğulayır, maqraqların qorunması səylərini gücləndirir və onların maliyyələşdirmə və maliyyə dəstəyi təmin etmək qabiliyyətlərini artırır (Merlərin Qlobal Razılaşması 2023).

Minimum hesabatlılıq dövrü aşağıdakı kimidir:

- SECAP: təşəbbüsə rəsmi olaraq qoşulduqdan sonra iki il ərzində təqdim edilməlidir;
- Tədbirlərin icrası ilə bağlı monitorinq hesabatları: hər iki ildən bir təqdim edilməlidir;
- Son İQ emissiyaları kadastrı ilə birlikdə monitorinq hesabatları: hər dörd ildən bir təqdim edilməlidir.

SECAP və onun icrası barədə hesabat vermə qaydaları Merlərin Razılaşması – Avropa (Covenant of Mayors – Europe) veb saytında mövcuddur[38].

[38] Merlərin Razılaşması – Avropa: Hesabatlılıq üzrə veb səhifəsi

6. SECAP-ın icrası və monitorinqi

6.1. Mərhələlər və göstəricilərlə birlikdə ətraflı icra strategiyaları

SECAP-ın icra mərhələsi prosesin ən vacib mərhələsidir. Bu mərhələ tədbirlərin lazımi qaydada həyata keçirilməsini və nəzərdə tutulan nəticələrin əldə olunmasını təmin etmək üçün diqqətli planlaşdırma, koordinasiya və icra tələb edir. SECAP-ın icrası xeyli vaxt, səy və maliyyə vəsaiti tələb edir. İcra strategiyasının real, həyata keçirilə bilən və planın məqsədlərinə uyğun olmasını, eləcə də icra prosesi zamanı yarana biləcək hər hansı bir dəyişikliyi və ya çətinliyi əks etdirmək üçün müntəzəm olaraq nəzərdən keçirilməsini və yenilənməsini təmin etmək vacibdir. Bu mərhələdə bələdiyyələr potensial gözlənilməz maneələrə və nəticələrə diqqət yetirməlidirlər. Bundan əlavə, siyasi, sosial və/və ya iqtisadi sahələrdə zamanla bağlı dəyişikliklər planın icrasını çətinləşdirə bilər. Buna görə də möhkəm, ətraflı və ardıcıl layihə idarəetmə planı olmalıdır.

SECAP-ın uğurla həyata keçirilməsi başlanğıc mərhələsində (3-cü bölmə) formalaşdırılmış prosesin ardıcıllığından və möhkəmliyindən böyük dərəcədə asılıdır: ardıcıl siyasi öhdəlik, insan resurslarının səfərbər edilməsi, maraqlı tərəflərin və ictimaiyyətin cəlb olunması icra mərhələsində də mühüm əhəmiyyət daşıyır.

SECAP-ın həyata keçirilməsini təmin etmək üçün əsas amillərdən biri bütün bələdiyyə orqanlarının və şöbələrinin davamlı iştirakıdır. Layihənin idarə olunması üzrə vəzifələr bütün müvafiq bələdiyyə şöbələri və orqanları arasında bölüşdürməli və bununla da üfüqi əməkdaşlıq təmin olunmalıdır. Mümkün olduğu hallarda, əsas funksiyalar yalnız "siyasi" vəzifələrlə (müntəzəm olaraq dəyişən qeyri-daimi vəzifələr) əlaqələndirilməməlidir ki, müəyyən inzibati vəzifələrdəki dəyişikliklərin planın davam etdirilməsinə maneə yaratmaması təmin edilsin. Eynilə, plana cəlb olunan sektorlarda/sahələrdə/şəxslərdə dəyişikliklər baş verdikdə, metodoloji və məlumat toplama yanaşmaları da daxil olmaqla, planın hazırlanması ilə bağlı ətraflı məlumatlar müvafiq qaydada sənədləşdirilmiş və əlçatan olmalıdır.

SECAP-ın üç sütunu üzrə icranın monitorinqi və müvafiq məlumatlandırma həmişə onun həyata keçirilməsinin ayrılmaz hissəsi olmalıdır. Bələdiyyə irəliləyişin monitorinqi üçün emissiyaların azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və enerji yoxsulluğu üzrə əsas göstəriciləri müəyyən etməlidir (ətraflı məlumat 6.2-ci bölmədə verilmişdir).

Nəhayət, icra dövründə maraqlı tərəflərin iştirakı və sosial dəstək dəyişə bilər, lakin ictimaiyyət və digər maraqlı tərəflər nəticələr və faydalar barədə mütəmadi olaraq məlumatlandırılmalıdır.

SECAP-ı həyata keçirilməsi üçün bəzi məsləhətlər:

- Layihə idarəetmə yanaşmasını tətbiq edin: vaxt qrafikinə nəzarət, maliyyə nəzarəti, planlaşdırma, kənarlaşmaların təhlili və risklərin idarə edilməsi. Keyfiyyətin idarəedilməsi prosedurundan istifadə edin, əsas mərhələləri və nəticələri müəyyən edin.
- İcra strategiyasını müxtəlif hissələrə bölün və məsul şəxsləri dəqiq müəyyən edin. Əməkdaşlar və icrada birbaşa iştirak edən şəxslər üçün müvafiq təlimləri təmin edin.
- SECAP-ın hər bir hissəsinin həyata keçirilməsinə yönəlmiş konkret prosedur və proseslər təyin edin. Keyfiyyət sistemi prosedurların məqsədlərə uyğun olmasını təmin etmək üçün faydalı vasitədir.

- Gələcək hadisələri proqnozlaşdırın və layihəyə başlamaq üçün bələdiyyə tərəfindən aparılmalı danışıqları və atılmalı inzibati addımları nəzərə alın. Dövlət layihələri üçün adətən icazələrin və təsdiqlərin alınmasına vaxt tələb olunur. Bu halda, xüsusilə SECAP-ın icrası mərhələsinin əvvəlində, ehtiyat planı da daxil olmaqla dəqiq strategiyanın hazırlanması məqsədəuyğun ola bilər.
- Planı izləmək və monitorinq etmək üçün göstəricilər müəyyən edin və istifadə edin, yəni tədbirlərin faktiki həyata keçirilməsi ilə əlaqəli parametrlərə diqqət yetirin. Bunlara müəyyən edilmiş müddətlərə uyğun olaraq yerinə yetirilən tədbirlərin payı, ümumi tədbirlər çərçivəsində həyata keçirilmiş tədbirlərin payı, büdcədən kənarlaşmaların faizi və ya həyata keçirilmiş tədbirlərlə əlaqəli emissiyaların azaldılması faizi daxil ola bilər. İdeal olaraq, bu yanaşma, məsələn, monitorinq nəticələrinə, əldə edilmiş təcrübəyə və ya ortaya çıxan çətinliklərə əsaslanaraq, SECAP-a gələcək əlavələr və düzəlişlər planı ilə müşayiət olunur.
- Potensial maneələri və çətinlikləri (maliyyə ehtiyacları daxil olmaqla) müəyyən edin və dəyişikliklərə müqavimət, resurs çatışmazlığı və ziddiyyətli prioritetlər kimi problemləri aradan qaldırmaq üçün strategiyalar hazırlayın.
- Maraqlı tərəflərlə birlikdə sonrakı tədbirləri planlaşdırın, onları icra barədə məlumatlandırmaq və prosesə cəlb etmək üçün görüşlər təqvimi hazırlayın. Bu görüşlər zamanı maraqlı ideyalar ortaya çıxa bilər və ya gələcəkdə yarana biləcək sosial maneələr aşkar edilə bilər.
- Komandanı həvəsləndirin, onlara təlim və dəstək təqdim edin. Daxili əməkdaşlar vacib maraqlı tərəflərdir.
- Öhdəliklərini yerinə yetirmələrini və strateji rəhbərliyi təmin etmək üçün bələdiyyə şurasını (və ya ekvivalent orqanı) və siyasətçiləri mütəmadi olaraq məlumatlandırın.

Qutu 11. İcra mərhələsində yol verilməməli olan ümumi səhvlər

- Aydın məqsəd və hədəflərin olmaması;
- Maraqlı tərəflərin prosesə kifayət qədər cəlb olunmaması;
- Layihənin lazımi səviyyədə planlaşdırılmaması və idarə edilməməsi;
- İcranın monitorinqinin və qiymətləndirilməsinin aparılmaması;
- Gözlənilməz hallar üçün ehtiyat planlarının olmaması;
- Dəyişən şərtlərə uyğunlaşa bilməmək;
- Komanda üzvləri üçün yetərli təlim və dəstəyin təmin edilməməsi;
- Maraqlı tərəflər və ictimaiyyətlə kommunikasiyanin zəif olması.

6.2. İcranın monitorinqi və hesabatlılıq

İrəliləyişin monitorinqi SECAP-ın icrası prosesinin vacib hissəsidir. Bu, həyata keçirilən proseslərin nəticələrini, tədbirlərin icra vəziyyətini və müəyyən edilmiş hədəflərə doğru irəliləyişi dövri olaraq qiymətləndirmək məqsədinə xidmət edir (Bertoldi P. (red.) 2018).

Yaxşı qurulmuş və etibarlı monitorinq prosesi vasitəsilə bələdiyyələr aşağıdakı suallara cavab verə bilərlər:

- İqlim və enerji hədəflərimizə çatmaq istiqamətində irəliləyirikmi?
- Siyasətlərin/tədbirlərin effektivliyinə hansı zəif cəhətlər mane olub?
- Nəticələrin səmərəliliyini və keyfiyyətini necə artıra bilərik?
- Həll etməli olduğumuz potensial çətinliklər hansılardır?

Buna görə də, monitorinq prosesləri bələdiyyələrə gec aşkar edilə bilən və ya hətta diqqətdən kənarda qala biləcək gecikmələri, boşluqları və ya qeyri-qənaətbəxş nəticələri müəyyən etməkdə və düzəltməkdə, eləcə də təkrarlana biləcək uğurlu təcrübələri müəyyən

etməkdə kömək edir. Bələdiyyələr həmçinin prosesdə potensial təkmilləşdirmələr və onun səmərəliliyini artırmaq üçün dəyişikliklər barədə düşünə bilərlər. Bundan əlavə, monitorinq prosesi SECAP prosesinin tətbiqi ilə yerli kontekstdə və bələdiyyə strukturunda baş verən dəyişikliklərin təsirlərini də qiymətləndirmək imkanı verir (Merlərin Razılaşması – Avropa Ofisi 2020). Monitorinq yerli iqlim tədbirlərinin gedişatını əks etdirir, bələdiyyənin hədəflərə doğru düzgün istiqamətdə irəliləyib-irəliləmədiyini müəyyənləşdirməyə və nəticələrə təsir göstərən amilləri aşkar etməyə imkan yaradır.

MR yanaşması bələdiyyələrin vizyonu və strategiyası ilə sıx əlaqəli aydın və ölçülə bilən məqsədlər müəyyən etmək və əsas fəaliyyət göstəricilərini seçmək üçün çərçivə təmin edir. SECAP prosesinə gəldikdə, bələdiyyələr bələdiyyə strukturundakı dəyişiklikləri, planın icrası üçün ayrılmış işçi heyətinin potensialını, xərclənən büdcəni və hədəfə doğru ümumi irəliləyişi izləyəcəklər. Monitorinq prosesi vasitəsilə bələdiyyələr ilkin qiymətləndirmələrdə olduğu kimi eyni yanaşmalara əsaslanaraq enerji istehlakı və istehsalındakı, istixana qazı emissiyalarındakı, risk və həssaslıqlardakı hər hansı dəyişiklikləri və enerji yoxsulluğunun qiymətləndirilməsindəki dəyişiklikləri qiymətləndirirlər. Onlar həmçinin fəaliyyətlərinin hər bir konkret sütun üzrə irəliləyişlərini və nəticələrini qiymətləndirəcəklər:

– *Emissiyaların azaldılması (Mitiqasiya)*

  İmzaçılar, BEK ilə eyni yanaşma və metodlara əsaslanaraq, monitorinq emissiya kadastrını (MEK) hazırlayırlar. İstixana qazı kadastrının müntəzəm olaraq tərtib edilməsi, emissiyaların azaldılması hədəfinə(lərinə) doğru ümumi irəliləyişin monitorinqinə və izlənilməsinə imkan verir. Bundan əlavə, təxirə salınmış və ya ləğv edilmiş tədbirlərin olub-olmadığını və tamamlanmış tədbirlərin gözlənilən nəticələrə nail olub-olmadığını müəyyən etmək üçün tədbirlərin icra vəziyyəti yoxlanılmalıdır. Bu qiymətləndirmə həmçinin qarşılaşılan maneələri və çətinlikləri müəyyən etməyə və planın güclü və zəif tərəflərini qiymətləndirməyə kömək edəcək.

– *İqlim dəyişikliyinə uyğunlaşma (Adaptasiya)*

  Müəyyən edilmiş iqlim təhlükələrinin təsir səviyyəsində və intensivliyində, həmçinin müəyyən edilmiş həssas sektorlarda və həssas əhali qruplarında baş verən dəyişikliklər risk və həssaslıq qiymətləndirməsinin yenilənmiş variantında qeyd edilə bilər. Bundan əlavə, planlaşdırılmış tədbirlərin gedişatını müntəzəm olaraq qiymətləndirmək və faktiki nəticələri plan hazırlanarkən müəyyən edilmiş məqsədlərlə müqayisə etmək vacibdir. Monitorinq nəticələrinə əsasən, müəyyən tədbirləri uyğunlaşdırmaq və ya təxirə salmaq yaxud yenilərini hazırlamaq da zəruri ola bilər (Avropa Ətraf Mühit Agentliyi 2016).

  Digər MR sütunları ilə müqayisədə iqlim dəyişmələrinə uyğunlaşmanın monitorinqi prosesini iki element xüsusi olaraq xarakterizə edir: i) tədbirlərin gedişatını qiymətləndirmək üçün daha uzun müddətlər tələb oluna biləcəyi üçün vaxt çərçivələri qeyri-müntəzəm ola bilər; ii) iqlim dəyişmələri ilə bağlı hadisələrə xas qeyri-müəyyənlik Risk və Həssaslığın Qiymətləndirilməsinə, tədbirlərə və sonrakı monitorinq nəticələrinə təsir göstərə bilər və bununla da, mövcud olduqda, müşahidə olunan dəyişikliklərə dair məlumatlardan istifadə edərək müntəzəm yeniləmələr aparılması tələb olunur (BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 2023). Adaptasiya tədbirləri çox vaxt qabaqlayıcı tədbirlərə yönəlir, və bu iki əsas element əvvəlcədən planlaşdırılmış tədbirlərin uyğunluğuna və vaxtına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Bu isə gözlənilən qısamüddətli və uzunmüddətli nəticələrin tədbirlərə daxil edilməsinin, tədbirlərin irəliləyişini izləmək üçün uyğun göstəricilərin seçilməsinin və müəyyən edilmiş təhlükələrlə

uzlaşan, kəmiyyətlə ifadə olunan uyğunlaşma (adaptasiya) məqsədlərinin müəyyən edilməsinin vacibliyini vurğulayır.

– *Enerjiyə çıxış və enerji yoxsulluğu*

  Enerjiyə çıxış və enerji yoxsulluğu sütununun metodoloji əsasları monitorinq üçün vacib hesab edilən göstəricilərin qiymətləndirmə mərhələsində müəyyənləşdirilməsini tövsiyə edir. Buna görə də, monitorinq prosesi monitorinq üçün müəyyən edilmiş göstəricilərə əsaslanır və imzaçılar bunun üçün nəzərdə tutulan proqnozlaşdırılan hədəf dəyərini bəyan edə bilərlər. Seçilmiş göstəricilərin dəyərlərindəki dəyişikliklərin gözlənilən hədəflə müqayisəsi enerjiyə çıxış və enerji yoxsulluğunun azaldılmasında irəliləyişi səmərəli şəkildə izləməyə və görülən tədbirlərin nəticələrini qiymətləndirməyə imkan verir. Tədbirlər həmçinin ilkin məqsədlərlə yenidən uyğunlaşdırılmaq və planlaşdırılımış istiqamətə qayıtmaq üçün dəqiqləşdirilə və tənzimlənə bilər. Konteksti dəyişdirən dəyişikliklər baş verərsə, bu, çərçivə qiymətləndirmə mərhələsinə yenidən baxmağa imkan verir və burada davamlı aktuallığı təmin etmək üçün əlavə göstəricilər müəyyən edilə və daxil edilə bilər.

Mövcud planlarda əhəmiyyətli dəyişikliklər olduqda, imzaçılar SECAP-ın təsirlənmiş bölmələri üzərində işləyə və ideal olaraq, yenilənmiş plan bələdiyyə şurası tərəfindən qəbul edildikdən sonra, onu yenidən təqdim edə bilərlər.

Monitorinq prosesi bələdiyyə şurası və bələdiyyə administrasiyası tərəfindən əldə edilən irəliləyişləri, yeni mövcud bilik və təcrübələri, dəyişmiş normativ-hüquqi çərçivəni və dayanıqlı enerji layihələri və/və ya iqlim dəyişikliklərinə uyğunlaşma tədbirləri üçün ən son texnoloji və ya maliyyə imkanlarını nəzərə alaraq SECAP-ın strategiyasını və tədbirlərini yenidən nəzərdən keçirmək üçün bir fürsət kimi qəbul edilməlidir. Monitorinq prosesi vasitəsilə SECAP daim yenilənə və bələdiyyədə baş verən dəyişiklikləri və transformasiyaları əks etdirərək dinamik sənədə çevrilə bilər.

Nəhayət, monitorinq fəaliyyəti hesabatlılıq və şəffaflıq nümayiş etdirməklə maraqlı tərəflərin etimadını gücləndirə və irəliləyişlər, çətinliklər, imkanlar və ortaya çıxan ehtiyaclar barədə müntəzəm məlumatlar verməklə ictimaiyyətlə əlaqələri möhkəmləndirə bilər.

7. Kiçik bələdiyyələr üçün əlaqələndirilmiş fəaliyyət imkanları və dəstək

7.1. Birgə SECAP-lar

SECAP-ın hazırlanması, xüsusilə kiçik və orta ölçülü bələdiyyələr üçün, vaxt və resurs tələb edən proses kimi qiymətləndirilə bilər.

Bələdiyyələr çox vaxt aşağıdakılarla əlaqəli çətinlikləri vurğulayırlar:

- İstixana qazı emissiyalarının kadastrı, risk və həssaslıq qiymətləndirmələri və enerji yoxsulluğunun qiymətləndirilməsi üçün müvafiq məlumatların toplanması və təhlili də daxil olmaqla, SECAP hazırlamaq üçün məhdud imkanlar və ya resurslar;
- Özəl sektorda tədbirlərin başlanması üçün lazım olan maraqlı tərəfləri cəlb etmək imkanlarının məhdud olması;
- Fəaliyyətlərin həyata keçirilməsi üçün maliyyə resurslarına və maliyyələşdirmə imkanlarına çıxışın məhdud olması;
- Hesabatlılıq tələblərinin həddindən artıq ağır hesab edilməsi.

Qonşu bələdiyyələrlə qüvvələrini birləşdirməklə bələdiyyələr bu çətinliklərin bir qismini aradan qaldıra və SECAP-ın həm hazırlanması, həm də həyata keçirilməsi prosesində miqyas effektindən yararlanmaq və regional sinerji yaratmaq imkanlarından istifadə edə bilərlər. Məsələn, kollektiv tədbirlərin hazırlanması və həyata keçirilməsi (məsələn, bələdiyyələrarası ictimai nəqliyyatın planlaşdırılması) buna nümunədir.

Birgə SECAP-ın hazırlanması üçün iki yanaşma mövcuddur (həmçinin Cədvəl 6. Standart SECAP, Birgə SECAP -Variant 1-in və Birgə SECAP-Variant 2- nin əsas xüsusiyyətləri:

- **Birgə SECAP -variant 1.** Bu variant standart SECAP-a çox bənzəyir və bələdiyyələrdən emissiyaların azaldılması hədəflərinə və digər məqsədlərə nail olmaq öhdəliyini fərdi şəkildə götürməyi tələb edir. Standart SECAP ilə müqayisədə onun əsas fərqi ondan ibarətdir ki, bələdiyyələr digər bələdiyyələrlə birgə hazırlanmış bir və ya daha çox tədbiri daxil edə və beləliklə, birgə tədbirlərdən İQ emissiyalarının azaldılması baxımından əldə olunan faydaları birgə planda iştirak edən bütün bələdiyyələr arasında bölüşə bilərlər.
- **Birgə SECAP -variant 2.** Bu variant bələdiyyələrə iştirakçı bələdiyyələrin ümumi ərazisini əhatə edən birgə İQ emissiyası kadastrının nəticələrinə əsaslanaraq birgə İQ emissiyasının azaldılması hədəfi üzrə öhdəlik götürməyə imkan verir. Bu variant bələdiyyələrə Merlər Razılaşmasına birgə hesabat verməyə imkan verir. 1-ci variantla müqayisədə bu variant daha yüksək inteqrasiya səviyyəsini (və müvafiq olaraq daha çox əlaqələndirmə səylərini) nəzərdə tutur və Aİ MR-nin öhdəliklərinə müstəqil şəkildə qoşulmaq üçün kifayət qədər imkanları olmayan çox kiçik bələdiyyələr üçün daha uyğun hesab edilir.

Cədvəl 6. Standart SECAP, Birgə SECAP -Variant 1-in və Birgə SECAP-Variant 2- nin əsas xüsusiyyətləri

	'Standart' SECAP	Birgə SECAP Variant 1	Birgə SECAP Variant 2
Emissiyaların azaldılması hədəfi	Fərdi	Fərdi	Birgə
Emissiya kadastrı	Fərdi	Fərdi	Birgə
Fəaliyyət planının hazırlanması	Fərdi	Birgə	Birgə
Fəaliyyət planının təsdiqi	Bələdiyyə Şurası planı təsdiq edir	Hər bir Bələdiyyə Şurası birgə planı təsdiq edir	Hər bir Bələdiyyə Şurası birgə planı təsdiq edir
Fəaliyyət planının təqdim edilməsi	Fərdi hesabat	Fərdi hesabat	Birgə hesabat

Mənbə: BTM

Qutu 12. Misal: Kaxeti bölgəsi bələdiyyələrinin Birgə SECAP-ı (Gürcüstan)

İmzaçı: Kaxeti bölgəsinin administrasiyası (Gürcüstan) | Əhali: 216 500 | Qoulma: 2018

"Kaxeti bölgəsinin administrasiyası" Gürcüstanda 2019-cu ildə ümumi əhalisi 216 500 nəfər olan beş bələdiyyəni (Saqareco, Qurcaani, Laqodexi, Axmeta və Kvareli) birləşdirir və birgə SECAP -variant 1 üzrə nümunə kimi təqdim olunur.

İmzaçılar fərdi şəkildə müəyyən edilmiş məqsədlərə nail olmaq öhdəliyi götürmüş və ayrıca emissiya kadastrlarını təqdim etmişlər. Bununla belə, onların SECAP-larına birgə hazırlanmış bəzi tədbirlər, məsələn, emissiyaların azaldılması, enerji yoxsulluğu, eləcə də iqlim dəyişikliyinə uyğunlaşma məsələləri üzrə maarifləndirmə kampaniyaları daxil edilmişdir.

7.2. SECAP proseslərini dəstəkləyən Razılaşma Koordinatorları

İmzaçılar kimi Merlər Razılaşmasına qoşulmaq hüququna yalnız bələdiyyələr malikdir, lakin təşəbbüs həmçinin rəsmi olaraq Razılaşma Koordinatorlarının[39], yəni coğrafi əhatə dairələri daxilində Razılaşma imzaçılarına strateji rəhbərlik, maliyyə və texniki dəstək göstərməyi öhdələrinə götürən milli, regional və subregional dövlət orqanlarının rolunu da müəyyən edir. Milli və submilli hakimiyyət orqanları bələdiyyələri iqlim və enerji hədəflərinə nail olmaq üçün vacib tərəfdaşlar kimi qəbul edirlər. Bu kontekstdə, bələdiyyələrin Merlər Razılaşmasında iştirakının dəstəklənməsi milli və submilli hakimiyyət orqanlarına yanaşmaları yerli ehtiyaclara daha yaxşı uyğunlaşdırmaq, eləcə də iqlim tədbirlərini ictimaiyyətə və maraqlı tərəflərə daha yaxın olan yerli səviyyədə həyata keçirmək imkanı verir.

Razılaşma Koordinatorları tərəfindən göstərilən dəstək nəticəsində bələdiyyələr oxşar, daha uyğunlaşdırılmış SECAP-lar hazırlaya bilər ki, bu da layihələrin birləşdirilməsini və nəticədə maliyyələşdirməyə çıxışı asanlaşdıra bilər.

39 https://eu-mayors.ec.europa.eu/en/coordinators

Nəticələr

Şərq Tərəfdaşlığı ölkələrində Merlərin Razılaşması (MR Şərq) yerli icmaları iqlim probleminin həlli istiqamətində birgə öhdəlik çərçivəsində birləşdirən mühüm təşəbbüsdür. Şəhər səviyyəsində effektiv iqlim strategiyalarının və tədbirlərinin hazırlanmasını və həyata keçirilməsini təşviq etməklə, MR Şərq bələdiyyələrə üç sütun: öz ərazilərində istixana qazı emissiyalarının azaldılması (mitiqasiya), iqlim dəyişikliklərinə uyğunlaşma (adaptasiya) və enerji yoxsulluğunun azaldılması üzrə fəal rol oynamağa imkan verir.

Dayanıqlı enerji və iqlim üzrə fəaliyyət planı (SECAP) bələdiyyələrin öz öhdəliklərini konkret tədbirlərə necə çevirəcəklərini göstərən əsas alətdir. İnteqrasiya olunmuş və hərtərəfli SECAP vasitəsilə bələdiyyələr Paris Sazişi kimi fövqəlmilli iqlim hədəflərinə nail olunmasına töhfə verməklə yanaşı, əhalisinin sağlamlığını, rifahını və həyat keyfiyyətini yaxşılaşdıra bilərlər. Yaxşı strukturlaşdırılmış, ardıcıl və iddialı SECAP-lar yerli icmalara yeni iqtisadi imkanlar açmağa və innovasiyanı təşviq etməyə kömək edə bilər.

Bu bələdçi, prosesin bütün mərhələlərində SECAP-ın hazırlanması, icrası və monitorinqinin vacib aspektlərini əhatə edir. Əhatəli, addım-addım təlimatları, eləcə də nümunələri və geniş yayılmış təcrübələri təqdim etməklə, bu vəsait Şərq Tərəfdaşlığı ölkələrinin bələdiyyələrinə aşağı karbonlu, davamlı və inklüziv cəmiyyətin formalaşdırılmasında dəstək verir və öz icmalarında dayanıqlılıq mədəniyyətinin təşviqində mühüm rol oynamasına kömək edir.

İstinadlar

Anguelovski, Isabelle, James J. T. Connolly, Helen Cole, et al. 2022. "Green Gentrification in European and North American Cities." *Nature Communications* 13 (1): 1–13. https://doi.org/10.1038/s41467-022-31572-1.

Bastos, Joana, Jacopo Giuntoli, Nicola Arriga, et al. 2026. "The Biomass Dilemma: Assessing Synergies and Trade-Offs between Climate Change Mitigation, Air Quality and Other Environmental Impacts across the EU." *Sustainable Production and Consumption* 65 (June): 152–66. https://doi.org/10.1016/j.spc.2026.04.002.

Bertoldi P. (eds), ed. 2018. Guidebook "*How to Develop a Sustainable Energy and Climate Action Plan (SECAP)": Part 1: The SECAP Process, Step-by-Step towards Low Carbon and Climate Resilient Cities by 2030*. Publications Office. https://doi.org/10.2760/223399.

Cattino, Massimo, and Diana Reckien. 2021. "Does Public Participation Lead to More Ambitious and Transformative Local Climate Change Planning?" *Current Opinion in Environmental Sustainability* 52 (October): 100–110. https://doi.org/10.1016/j.cosust.2021.08.004.

Covenant of Mayors – Europe. 2023. "Embedding Equity Considerations into SECAP Processes." https://eu-mayors.ec.europa.eu/en/guidance-on-embedding-equity-in-SECAP-processes.

Covenant of Mayors – Europe Office. 2020. "Quick Reference Guide Monitoring SECAP Implementation." https://eu-mayors.ec.europa.eu/sites/default/files/2022-10/Quick_guide-Monitoring_SECAP_implementation-2020.pdf.

Davide, M., G. Melica, V. Palermo, O. Rybak, and I. Sukhodub. 2026. *CoM East Overall Assessment and In-Depth SECAPs Analysis.* Publications Office of the European Union. https://publications.jrc.ec.europa.eu/repository/handle/JRC145840.

Davis, Steven J., Nathan S. Lewis, Matthew Shaner, et al. 2018. "Net-Zero Emissions Energy Systems." Science 360 (6396): eaas9793. https://doi.org/10.1126/science.aas9793.

Diezmartínez, Claudia V., and Anne G. Short Gianotti. 2022. "US Cities Increasingly Integrate Justice into Climate Planning and Create Policy Tools for Climate Justice." Nature Communications 13 (1). https://doi.org/10.1038/s41467-022-33392-9.

Energy Poverty Advisory Hub. 2023. *Energy Poverty Handbooks.* https://energy-poverty.ec.europa.eu/observatory/publications/epah-energy-poverty-advisory-hub-handbook-1-guide-energy-poverty-0.

European Environment Agency. 2016. "6. Monitoring and Evaluating Adaptation. in 'The Adaptation Support Tool – Getting Started.'" *Climate-ADAPT*, June. https://climate-adapt.eea.europa.eu/en/knowledge/tools/adaptation-support-tool/step-6-0.

Global Covenant of Mayors. 2023. "Global Covenant of Mayors Common Reporting Framework." https://www.globalcovenantofmayors.org/our-initiatives/data4cities/common-global-reporting-framework/.

Global Covenant of Mayors. 2024. "The 2024 Global Covenant of Mayors Impact Report. Banking on Change." https://www.globalcovenantofmayors.org/impact2024/.

Global Covenant of Mayors. 2025. "Gender Equitable and Inclusive Climate Action Planning. Toolkit for Cities and Local Governments." https://www.globalcovenantofmayors.org/wp-content/uploads/2025/07/GCoM-Toolkit-Gender-Equitable-and-Inclusive-Climate-Action-Planning.pdf.

IPCC. 2022. *Annex II: Glossary [Möller, V., R. van Diemen, J.B.R. Matthews, C. Méndez, S. Semenov, J.S. Fuglestvedt, A. Reisinger (Eds.)]. In: Climate Change 2022: Impacts, Adaptation and Vulnerability. Contribution of Working Group II to the Sixth Assessment Report of the Intergovernmental Panel on Climate Change [H.-O. Pörtner, D.C. Roberts, M. Tignor, E.S. Poloczanska, K. Mintenbeck, A. Alegría, M. Craig, S. Langsdorf, S. Löschke, V. Möller, A. Okem, B. Rama (Eds.)].* Cambridge University Press, Cambridge, UK and New York, NY, USA,. doi:10.1017/9781009325844.029.

Kona, A., P. Bertoldi, V. Palermo, et al. 2018. *How to Develop a Sustainable Energy and Climate Action Plan (SECAP) in the Eastern Partnership Countries.* Publications Office.

Monforti-Ferrario, Fabio, Albana Kona, Emanuela Peduzzi, Denise Pernigotti, and Enrico Pisoni. 2018. "The Impact on Air Quality of Energy Saving Measures in the Major Cities Signatories of the Covenant of Mayors Initiative." E*nvironment International* 118 (September): 222–34. https://doi.org/10.1016/j.envint.2018.06.001.

NDC partnership. 2021. "Developing Gender Responsive NDC's Action Plans. A Practical Guide." https://ndcpartnership.org/sites/default/files/2023-09/genderresponsivendcactionplanspracticalguide-march-2021.pdf.

Newig, Jens, Nicolas W. Jager, Edward Challies, and Elisa Kochskämper. 2023. "Does Stakeholder Participation Improve Environmental Governance? Evidence from a Meta-Analysis of 305 Case Studies." *Global Environmental Change* 82 (September): 102705. https://doi.org/10.1016/j.gloenvcha.2023.102705.

Peduzzi, Emanuela, Marta Giulia Baldi, Enrico Pisoni, Albana Kona, Paolo Bertoldi, and Fabio Monforti-Ferrario. 2020. "Impacts of a Climate Change Initiative on Air Pollutant Emissions: Insights from the Covenant of Mayors." *Environment International* 145 (December): 106029. https://doi.org/10.1016/j.envint.2020.106029.

Pisoni, Enrico, Davide De Marchi, Alberto di Taranto, et al. 2024. "SHERPA-Cloud: An Open-Source Online Model to Simulate Air Quality Management Policies in Europe." *Environmental Modelling & Software* 176 (May): 106031. https://doi.org/10.1016/j.envsoft.2024.106031.

Rivas, Silvia, Yeray Hernandez, Ruben Urraca, and Paulo Barbosa. 2021. "A Comparative Analysis to Depict Underlying Attributes That Might Determine Successful Implementation of Local Adaptation Plans." Environmental Science & Policy 117 (March): 25–33. https://doi.org/10.1016/j.envsci.2020.12.002.

Tamarack Institute. 2017. "Index of Community Engagement Techniques." https://www.tamarackcommunity.ca/interactive-tools/index-of-community-engagement-techniques.

Ulpiani, G., and N. Vetters. 2023. "On the Risks Associated with Transitioning to Climate Neutrality in Europe: A City Perspective." *Renewable and Sustainable Energy Reviews* 183 (November 2022): 113448. https://doi.org/10.1016/j.rser.2023.113448.

Ulpiani, Giulia, Nadja Vetters, Paolo Bertoldi, and Christian Thiel. 2024. "Shining Light on Residual Emissions for Cities." *Nature Climate Change* 14 (4): 302–5. https://doi.org/10.1038/s41558-024-01961-z.

UNFCCC. 2023. "Monitoring and Evaluation of Adaptation at the National and Subnational Levels: Technical Paper by the Adaptation Committee." *United Nations Framework Convention on Climate Change*. https://unfccc.int/sites/default/files/resource/AC_TechnicalPaper_AdaptationMandE_2023.pdf

Valle, Nives Della, Giulia Ulpiani, and Nadja Vetters. 2023. "Assessing Climate Justice Awareness among Climate Neutral-to-Be Cities." H*umanities and Social Sciences Communications* 10 (1). https://doi.org/10.1057/s41599-023-01953-y.

WRI. 2014. Greenhouse Gas Protocol. Policy and Action Standard. https://ghgprotocol.org/

İxtisarlar və təriflər

İxtisarlar	Təriflər	Abbreviation	Definition
KMDTİ	Kənd təsərrüfatı, meşə təsərrüfatı və digər torpaq istifadəsi	**AFOLU**	Agriculture, forestry and other land use
OKD	Olduğu kimi davam etmə	**BAU**	Business-as-usual
BEK	Baza Emissiya Kadastrı	**BEI**	Baseline emission inventory
CHP	Kogenerasiya istilik və elektrik mərkəzi	**CHP**	Combined heat power
CO_2	Karbon qazı	**CO_2**	Carbon dioxide
CO_2-ekv.	CO_2-equivalent	**CO_2-ekv.**	CO2 ekvivalenti
MR	İqlim və Enerji üzrə Merlərin Razılaşması	**CoM**	Covenant of Mayors for Climate & Energy
MR Şərq	Avropa Şərq Tərəfdaşlığında Merlərin Razılaşması	**CoM East**	European Covenant of Mayors in the Eastern Partnership
ÜHÇ	Ümumi hesabatlılıq çərçivəsi	**CRF**	Common reporting framework
DG ENEST	Genişlənmə və Şərq Qonşuluğu üzrə Baş Direktorluq	**DG ENEST**	Directorate-General for Enlargement and the Eastern Neighbourhood
AK	Avropa Komissiyası	**EC**	European Commission
EAP (EÇY)	Enerjiyə çıxış və Enerji yoxsulluğu	**EAP**	Energy Access and Poverty
ŞT	Şərq tərəfdaşlığı	**EaP**	Eastern partnership
AQS	Avropa qonşuluq siyasəti	**ENP**	European neighbourhood policy
EPAH	Enerji Yoxsulluğu üzrə Məsləhət Mərkəzi	**EPAH**	Energy poverty advisory hub
EPC	Enerji qənaəti müqaviləsi	**EPC**	Energy performance contract
ESCO	Enerji xidmətləri şirkəti	**ESCO**	Energy services company
EPOV (EYOX)	Enerji yoxsulluğunun qiymətləndirilməsi	**EPOV**	Energy poverty assessment
Aİ	Avropa İttifaqı	**EU**	European Union
GCoM	İqlim və Enerji üzrə Merlərin Qlobal Razılaşması	**GCoM**	Global Covenant of Mayors for Climate & Energy
GEDSI	Gender bərabərliyi, əlillik və sosial inteqrasiya	**GEDSI**	Gender equality, disability, and social inclusion
İQ	İstixana qazı	**GHG**	Greenhouse gas
İDHP	İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel	**IPCC**	Intergovernmental Panel on Climate Change
BTM	Birgə Tədqiqat Mərkəzi	**JRC**	Joint Research Centre
MEK	Monitorinq Emissiya Kadastrı	**MEI**	Monitoring emission inventory
MQGÖ	Monitorinq, qiymətləndirmə, hesabatlılıq və öyrənmə	**MEAL**	Monitoring, evaluation, accountability, and learning
MMT	Milli səviyyədə müəyyən edilmiş töhfə	**NDC**	Nationally determined contribution
MEİP	Milli enerji və iqlim planı	**NECP**	National energy and climate plan
PM	Hissəciklər	**PM**	Particulate matter
PV	Fotovoltaik	**PV**	Photovoltaic
RHQ	Risk və həssaslığın qiymətləndirilməsi	**RVA**	Risk and vulnerability assessment
SDG	Dayanıqlı inkişaf məqsədi	**SDG**	Sustainable development goal
SEAP	Dayanıqlı enerji üzrə fəaliyyət planı	**SEAP**	Sustainable energy action plan
SECAP	Dayanıqlı enerji və iqlim üzrə fəaliyyət planı	**SECAP**	Sustainable energy and climate action plan
BMT	Birləşmiş Millətlər Təşkilatı	**UN**	United Nations
BMTİP	Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı	**UNDP**	United Nations Development Programme
BMTİDÇK	Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası.	**UNFCCC**	United Nations Framework Convention on Climate Change.

Qutuların siyahısı

Qutu 2. Digər təşəbbüslər və ya layihələr çərçivəsində hazırlanmış iqlim üzrə fəaliyyət planları MR Şərq çərçivəsində SECAP kimi etibarlı hesab edilə bilərmi? 12
Qutu 3. Yerli səviyyədə siyasi diqqətin və dəstəyin təmin edilməsi ilə bağlı təkliflər 18
Qutu 5. Misal: Çernovtsi icmasının "SECAP İşçi Qrupu" 21
Qutu 6. Misal: Lutsk birləşmiş icmasında maraqlı tərəflərin cəlb edilməsi 27
Qutu 7. Moldova Respublikasının bələdiyyələrində qadınların səlahiyyətlərinin artırılması vasitəsilə iqlimə davamlı icmaların formalaşdırılması 30
Qutu 8. Bu bölmə ilə əlaqəli əsas anlayışların tərifi 32
Qutu 9. "İlk növbədə enerji effektivliyi" prinsipi 46
Qutu 10. Nümunə: Alaverdinin maliyyələşdirmə layihələri 54
Qutu 11. İcra mərhələsində yol verilməməli olan ümumi səhvlər 56
Qutu 12. Misal: Kaxeti bölgəsi bələdiyyələrinin Birgə SECAP-ı (Gürcüstan) 60

Şəkillərin siyahısı

Şəkil 1. 2050-ci ilədək Merlərin Razılaşmasının hədflərinə aparan yol 7
Şəkil 2. SECAP – ın üç sütunu 11
Şəkil 3. Hər sütun üzrə diqqət mərkəzində olan fəaliyyət sahələri 13
Şəkil 4. SECAP-ın 10 əsas elementi 15
Şəkil 5. Təşkilati strukturun nümunəsi 20
Şəkil 6. Enerjiyə çıxış və enerji yoxsulluğu sütununun atributları və MR Şərq üçün seçilmiş atribut üzrə müvafiq göstəricilər 34
Şəkil 7. Fəaliyyətin planlaşdırması mərhələsi: tədbirlərin planlaşdırılması və həyata keçirilməsi 45
Şəkil 8. Emissiyaların azaldılması tədbirlərinin planlaşdırılması: nümunə tədbirlərinin icmalı 47
Şəkil 9. Emissiyaların azaldılması üzrə tədbirlər nəticəsində gözlənilən İQ təsirlərinin qiymətləndirilməsi (ex-ante qiymətləndirmə) 47
Şəkil 10. Uyğunlaşma tədbirlərinin planlaşdırılması: ümumi baxış və tədbir nümunələri 48
Şəkil 11. Enerji yoxsulluğu ilə bağlı tədbirlərin planlaşdırılması: tədbir nümunələri və ümumi baxış 49
Şəkil 12. İnteqrasiya olunmuş tədbirlərin planlaşdırılması 50

Cədvəllərin siyahısı

Cədvəl 1. SECAP-ın hazırlanması prosesindəki əsas mərhələlər 16
Cədvəl 2. Beşqat Spiral (Helix Quintuple) modeli əsasında kateqoriyalar üzrə qruplaşdırılmış maraqlı tərəflər nümunəsi 24
Cədvəl 3. İcma ilə əlaqə üsullarına dair nümunələr 25
Cədvəl 4. Maraqlı tərəflərlin cəlb edilməsi planının mümkün strukturu (yalnız illüstrativ məqsədlər üçün) 26
Cədvəl 5. Uyğunlaşma (adaptasiya) məqsədlərinə dair nümunə 44
Cədvəl 6. Standart SECAP, Birgə SECAP -Variant 1-in və Birgə SECAP-Variant 2- nin əsas xüsusiyyətləri 60

Aİ ilə əlaqə qurmaq

Şəxsən

Avropa İttifaqının hər yerində yüzlərlə Europe Direct mərkəzi mövcuddur. Sizə ən yaxın mərkəzin ünvanını onlayn olaraq tapa bilərsiniz (european-union.europa.eu/contact-eu/meet-us_en).

Telefonla və ya yazılı şəkildə

Europe Direct, Avropa İttifaqı ilə bağlı suallarınızı cavablandıran xidmətdir. Bu xidmətlə əlaqə saxlaya bilərsiniz:

- pulsuz telefonla: 00 800 6 7 8 9 10 11 (müəyyən operatorlar bu zənglər üçün ödəniş tələb edə bilər),
- aşağıdakı standart nömrədə: +32 22999696,
- aşağıdakı əlaqə forması vasitəsilə: european-union.europa.eu/contact-eu/write-us_en .

Aİ haqqında məlumat tapmaq

Onlayn

Avropa İttifaqı haqqında məlumatı Avropa İttifaqının bütün rəsmi dillərində Avropa veb saytında (europa.eu) əldə etmək mümkündür.

Aİ nəşrləri

op.europa.eu/en/publications saytında baxa və ya sifariş verə bilərsiniz . Pulsuz nəşrlərin birdən çox nüsxəsini Europe Direct və ya yerli sənədləşmə mərkəzinizlə (european-union.europa.eu/contact-eu/write-us_en) əlaqə saxlayaraq əldə edə bilərsiniz.

Aİ qanunvericiliyi və əlaqəli sənədlər

Aİ-nin hüquqi məlumatlarına, o cümlədən 1951-ci ildən etibarən qəbul edilmiş bütün Aİ qanunvericiliyinə bütün rəsmi dillərdə çıxış əldə etmək üçün EUR-Lex (eur-lex.europa.eu) saytına daxil olun.

Aİ-dən açıq məlumatlar

data.europa.eu portalı Aİ institutlarından, orqalarından və agentliklərindən açıq məlumat dəstlərinə giriş təmin edir. Bunlar həm kommersiya, həm də qeyri-kommersiya məqsədləri üçün pulsuz yüklənə və təkrar istifadə edilə bilər. Portal həmçinin Avropa ölkələrindən zəngin məlumat dəstlərinə giriş təmin edir.

Siyasət üçün elm

Birgə Tədqiqat Mərkəzi (BTM) Aİ siyasətlərinin cəmiyyətə müsbət təsir göstərməsinə xidmət edən müstəqil, sübutlara əsaslanan bilik və tədqiqatlar təqdim edir.

Keçid üçün QR kodunu skan edin:

Birgə Tədqiqat Mərkəzi
https://joint-research-centre.ec.europa.eu

Publications Office
of the European Union